**Seyraqif Coculu**

# BU YOL HARA GEDİR GÖRƏN…

Nərgiz NƏŞRİYYATI
BAKI-2007

Redaktor: **Qəşəm İlqar**

***Kitabın çapı üçün maliyyə xərclərini öz üzərinə götürən qardaşım oğlu Qurbanov Tariyel Kamal oğluna öz minnətdarlığımı bildirirəm.***



**Seyraqif Coculu.** «Bu yol hara gedir görən…», Bakı, «Nərgiz» nəşriyyatı, 2007, – 164 səh.

**C** $\frac{742000000}{079}$ 417 – 2007

© «Nərgiz», 2007

## MÜƏLLİFDƏN

Ənənəmə sadiq qalaraq kitabıma ön söz yazdırmadım. Çünki ön söz yazanlar təhlildən çox tərif edirlər.

Mənim bu kitabıma ön söz yazan ya mənim kimi düşünməli, ya da özü kimi düşünüb kitaba rəy verməlidir.

Burada mənim öz dünyabaxışım var. Dünyanı neçə dərk etdyimi bəzən aşikar, bəzən də sətiraltı ifadələrlə vurğulamışam. Xeyirin şərlə mübarizəsində xeyirin qalib kimi çıxmasını şərh etmək istəyində olmuşam. Ancaq təəsüflər olsun ki, istəyimdən asılı olmayaraq kimin kimə qalib gəlməyini bəzən söyləmək çox çətin olur. Çünki çox zaman xeyir şərə qalib gəlmək əvəzinə, şər qüvvələr xeyirə qalib gəlir. Bunun səbəbi isə insanın kamilləşməməsidir. İnsan elmli, savadlı ola bilər. Əgər onun elmi, savadı şərə xidmət edirsə, deməli o, insan hələ kamilləşməyib.

İnsanın kamilləşməsi üçün insan həqiqi olanı, həqiqəti dərk etməlidir. Həqiqəti dərk edən insan ədalətli olar.

Dünyanın özü isə ədalətlə idarə olunanda azad olur. Cəmiyyətin özü azad deyilsə o, cəmiyyətdə yaşayn insanın fərdi azadlığından danışmağa dəyməz. Dövlət azad ola bilər. Başqa dövlətlərdən asıllığı olmayada bilər. Cəmiyyət ədalətlə idarə olunmazsa, diktatorluqla idarə olunarsa artıq o, azad cəmiyyət deyildir, insanları da azad deyildir.

İnsan dünyanın qanunauyğunluqlarını dərk etmə məqamına çatmalıdır. Bəşər tarixi qurulandan bəri insanlar dünyanın yaranmasına müxtəlif aspektdən baxmışlar. Hər biri özlüyündə düz olduqlarını sübut etməyə çalışmışlar.

Ancaq dünyanın bircə düzəni var. Haqq və ədalətlə idarə olunanda dünyanın düzəni pozulmaz.

Deməli, ədalət haqqdan və həqiqətdən gəlir. Həqiqi olan isə insan özüdür. Bütün dünyanın yarısının qəbul etdiyi kimi dünyanı düzənlədən Allahdırsa, onda həqiqi olan insan

Allaha yaxınlaşıb onun dərgahına çatmalıdır. Allaha olan sevgisi onu bütün şər işlərdən çəkindirməlidir. Çox təəsüf ki, belə olmur:

***Allah qapısını açıb insan,***
***Ey insan! Allaha yaxınlaşsana.***
***Ey insan! Nurlanıb, təmizlənməsən,***
***Allah dərgahına girə bilməzsən.***

Allah dərgahına qovuşmaq onun dindar olub-olmamasından asılı deyildir. Onun şərəfindən, qeyrətindən, mənliyindən və şəxsiyyətindən asılıdır.

Mənim fəlsəfəmdə həqiqi cəmiyyət qurmaq üçün layiqli vətəndaşlar yetişməlidir. Layiqli vətəndaşlar layiqli cəmiyyət qura bilərlər:

***Vətəndaş olmağa mizan qoyulsa,***
***Tarazın qolunu əyəsən gərək.***
***Haq da, ədalət də tapdanan zaman,***
***Susmayıb sözünü deyəsən gərək.***

Susmağın özü də günah və köləlik əlamətidir:

***Deyirlər ki, söz gümüşdür qısanda,***
***Qızıl olur danışmayıb susanda.***

Bu bir deyim kimi işlədilsə də, bu məfkurədən azad olmalıyıq:

***Tanrı bizi lal yaratdı, lal olduq,***
***Uca-uca kürsülərdən qovulduq.***

Ancaq, danışanda ikiüzlülükdən, riyakarlıqdan azad olmalıdır insan. Batində xəbis, şeytan, üzdə mələk kimi görünməməlidir. İnsan vətənini sevdiyi kimi, kimliyini başa düşməli, vətənin bayrağını, simvollarını ən ümdə də dilini varlığından artıq sevməlidir. Xalq o zaman millət olur ki, onun danışdığı Ana dili var. Hansı ki, bütün dillərdən yuxarıda durmalıdır:

***Bizim şeirimizdə büdrəmələr çox olub,***
***Ərəbin, farsın sözü dilimizə çoxulub.***

Sözlərin mənasını başa düşməyəndə deyilən fikir bizim üçün əlçatmaz olub və çox mənalı görünüb:

***Mən əruzun, qəzəlin əleyhinə deyiləm,***
***Niyə dilim var ikən ərəb, farsa əyiləm.***
***İndi də bu ənənə yenə davam eyləyir,***
***Xalqımız ingiliscə nağıl, dastan söyləyir.***

Mənim düşündüklərimi bir çoxları başa düşməyə də bilər. Elə bilərlər ki, nöqsanlar axtarıram. Əsla yox! Məqsədim səhvlərimizi görərək, səhv olanları düzəltmək, maariflənmək və kamilləşməkdir.

İnsan məkan və zaman daxilində yaşayır. Məkan və zamanın mövcudluğu əbədidir və heç birinin hüdudu yoxdur. Bu dünya fanidir, – deyərək ruhdan düşmək olmaz. Dünya elmlərinə yiyələnərək inkişaf etməliyik.

Məkan da, zaman da hərəkətdə olan varlığın mövcud olması üçün obyektiv real formasıdır:

***Bəs varlıq harada, nə vaxt yaranıb?***
***Varlığın məkanı, vaxtı olmayıb.***
***Məkan da sonsuzdur, zaman da sonsuz,***
***Təfəkkür söyləyə bilməyir son söz.***

İnsanın dünyanın özünü dərk etməsi onun məkana, zamana və varlığa olan münasibətindən çox asılıdır.

## AĞLI-QARALI DÜNYAM

Bir yanın qaradı, bir yanın ağdır,
Bir yanın səhradır, bir yanın dağdır.
Bir yanın virandır, bir yanın bağdır,
Ay mənim sinəsi yaralı dünyam,
Əzəl gündən ağlı-qaralı dünyam.

Bir yanın tufandı, bir yanın gündü,
Bir yanın mələkdi, bir yanın cindi.
Bir yanın qalxanda, bir yanın endi,
Sən ey bir-birindən aralı dünyam,
Əzəl gündən ağlı-qaralı dünyam.

Bir yanın cəhənnəm, bir yanın cənnət,
Bir yanın İsadı, bir yanın Hümmət.
Bir yanın vüsaldı, bir yanın möhnət,
Ay közü sönməyən qaralı dünyam,
Əzəl gündən ağlı-qaralı dünyam.

# DÜNYANIN SİRRİ

Alimlər söz açdı xeyirdən, şərdən,
Göylərin sirrindən, ulduzdan, yerdən.
Nədir kainatı nizama salan,
O hansı qüvvədir qaranlıq qalan?!
Aqillər dünyanın şərhini verdi,
Bəşərin sirrini elmdə gördü.
Günəş bu göylərin tacı sayılır,
Görəsən Yer haradan asılı qalır?
Göylərin dayağı, yoxdu sütunu,
Bilinmir dünyanın əvvəli, sonu.
Kainat fırlanır, yerində durmur,
Saat tək işləyir, amma qurulmur.
Fırlanır, fırlanır, heç yerə getmir,
Yerini göylərdə heç nə dəyişmir.
Əbədi fırlanır göylərin çarxı,
Yoxdur dayanmağa heç zaman qorxu.
Kainat bircə an dayansa belə,
Göydə tufan qopar, yerdə zəlzələ.
Bəs çarxın qolları hara bağlıdır,
O hansı qüvvədir çarxı fırladır?!
Çarxa bağlananın miqdarı çoxdur,
Bu çarxın nizamı, sükanı yoxdur.
Çarxsız, mühərriksiz fırlanır onlar,
Alimlər hələ də çox axtarırlar.
Kainat fırlanır, elə dövr edir,
Əbədi mühərrik əmələ gəlir.
Dünyanın sirri də elə bundadır,
Bəşəri də həmin qüvvə fırladır.
Əbədi mühərrik axtarışdadır,
Həyatın taleyi ona bağlıdır.

Göylərin sirrini dərk edən zaman,
Əbədi mühərrik tapacaq insan,
Tərəqqi, inkişaf sürətlə gedir,
İnsanlar göylərə maşın göndərir.
Göyə ayağını basmasa insan,
Açmaz qapısını ona asiman.
İnsanlar maşınla uçur göylərə,
Oradan xəbərlər göndərir yerə.
Göylərin qapısı açılsa belə,
İnsanlar dərk edə bilməyib hələ.
Çətindir kələfin ucunu açmaq,
Yenə də lazımdır göylərə uçmaq.
«Vurğun qanad açıb uçmaq istədi,
Ən uzaq ellərə çatmaq istədi.
İnsan qanadsızdır!.. Çatıb qaşını,
Ananın dizinə qoyub başını,
Xəyallar içində yuxuya daldı,
Vurğunun arzusu bir nağıl oldu».
Bu nağıl deyilmiş, həqiqət imiş,
İnsanlar göylərə uça bilərmiş.
Qədimdən insanlar arzu eyləyib,
Təəssüf, göylərə uça bilməyib.
İnsan çox düşünüb, xəyala dalıb,
Ən böyük kəşfi də «mələklər» olub.
Mələklər yaşayıb gizli aləmdə,
Buna da bir sübut yoxdur elmdə.
İsrafil sur düdüyünü çalıbdır,
Torpaqdan insan oğlu yaranıbdır.
İsrafil düdüyün bir də çalacaq,
Onda həyat yerlə-yeksan olacaq.
Cəbrayıl Allaha qasidlik edir,
Göylərdən yerlərə xəbər gətirir.

Məryəmə İsanın doğulduğunu,
Söyləmişdi Peyğəmbər olduğunu.
«Quran» da yerlərdə nazil olanda,
O, Allahla Məhəmməd arasında,
Vəhylər gətirərək əlaqə qurdu,
Yerdə müqəddəs «Quran» yaradıldı.
Mikayıl insana ruzi verəndir,
Həyat nemətlərini bitirəndir.
Əzrayıl can vermir, ancaq can alır,
Yerdəki həyatı sahmana salır.
O, baxmır ki, kim cavandır, kim qoca,
Alır canlarını vaxtı çatınca.
Bəs göylərdə gəzən ulduzlar nədir?
Dolanır göyləri, elə dövr edir.
Onlar qübbəmizdən çoxmu kənarda?
Bilinmir yerləri, oturub harda?
Yəqin hər ulduzun öz çevrəsi var,
Onun ətrafında hey dolanırlar.
Bu məntiq qarşısında acizdir elm,
Öyrənə bilməyib bunu bir alim.
Günəşin çevrəsi məlumdur bizə,
Peykərlər dayanıb orda üz-üzə.
Nizama salınıb dövrə vurublar,
Hər biri yerində düz oturublar.
Heç kimin cürəti yoxdur ki, axsın,
Çevrədən bir azca kənara çıxsın.
Merkuri Günəşə yaxın peykərdir,
Özü də göylərdə katiblik edir.
Utarid deyirik onun adına,
Çatır uca göylərin imdadına.
Qanadlı Allahdır o, yol göstərir,
Göylərin elçisi müjdə gətirir.

Venera göylərin gözəl mələyi,
Nəqqaşla çəkilib bəri-bəzəyi.
Qərbdə – Afrodita, deyilib ona,
Gözəllik biçilib onun boyuna.
O Şərqin Zöhrəsi, bir gözəl pəri,
Mat qoyub önündə çox gözəlləri.
O Karvanqırandır, gah Dan ulduzu,
Günəştək parlayır göylərin qızı.
Harut da, Marut da onu sevibdir,
Hər biri Zöhrəyə könül veribdir.
Harutun günahı eşqbazlıq idi,
Zöhrəyə cadu, əfsun öyrədirdi.
Harutu, Marutu yandırdı nazı,
Göylərə çəkildi göylərin qızı.
Harutu, Marutu başıaşağı,
Quyudan asdırdı Babil padşahı.
Yerdir göylərdəki əbədi məkan,
Başqa bir məkanda yaşamır insan.
Yer günəşin ətrafında fırlanır,
Düz bir ilə dövrə vurur, dolanır.
Bəs necə yaranır, gündüzlə-gecə?
O fırlanır öz oxunda səssizcə.
Yerin sirri hələ tam açılmayıb,
Göylərdə ona bənzər tapılmayıb.
Yer açıb qoynunda bəsləyib bizi,
Yerdən də doğulub insanın özü.
Yer anamız, göylər atamız olub,
Anamız göylərdən hamilə qalıb.
Göylər kişnəmiş, asiman yaş ələmiş,
Bir damladan insan əmələ gəlmiş.
Mars Romanın müharibə allahı,
Savaşlarda, döyüşlərdə pənahı.

O gündən ki, qılıncını itirdi,
Romaya da çox bədbəxtlik gətirdi.
Atilla qılıncı keçirdi ələ,
Romanın canına saldı vəlvələ.
«Tanrının qılıncı» deyildi ona,
Bir müddət qılıncı qoymadı qına.
Qərb məmləkətində belə inanc var,
Marsın qılıncını əgər kim tapar,
Cəzalandıracaq çox insanları,
Günahlara batmış xristianları.
Marsın rəngi niyə qırmızı olmuş?
Ağır döyüşlərdə qana boyanmış.
Qalxdı günəşin yanında qaldı,
Göylərin əbədi sakini oldu.
Yupiter – baş allah, dünyanı qurur,
Günəşdən beşinci sırada durur.
Səadət ulduzu şəfəq, nur saçır,
Bağlı qapıları, düyünü açır.
Səadət gətirir bəni-insana,
Çağırır onları dinə, imana.
Şərqdə Müştəridir, Mehrə vurulmuş,
Dostluqda pak, Mehrin sirdaşı olmuş.
Mehr çox əzab çəkmiş onun yolunda,
Durmuşlar bir-birinin qulluğunda.
Saturun Romada səpin allahı,
O Şərqdə keyvandır, yoxdu günahı.
İnsana azuqə, ruzi, ruh verir,
Xalqı ədalətlə idarə edir.
Uran göy allahı, səmada gəzir,
Qanadla uçanı idarə edir.
Oğlu Kronos tutub onu kor etmiş,
Taxtına əyləşib, zorla devirmiş.

Ploton yer altında allahlıq edir,
Olduqca ədalətsiz hökmlər verir.
Neptun bulaqlar və çaylar allahı,
Yerlərdə yerləşir onun dərgahı.
Əlində üçdişli əsası ilə,
Dənizləri gətirir təlatümə.
Bəzən də yatırır, sakitləşdirir,
Hərdən Pasidona arxa çevirir.
Bunlar bir əfsanə, nağıl da olsa,
İnsanın canında qorxu qalıbsa,
İnsanın beynindən çıxmayır nağıl,
Bunun qarşısında acizdir ağıl.
Xof insan canına birdən hopmayır,
İllər keçir canlarından qopmayır.
Zaman-zaman kamilləşməsə insan,
Xof da çıxmayacaq onun canından.
Elm inkişaf edir, gedir irəli,
Quracaq həyatı memarın əli.
Elm dünyaya hakim olandan bəri,
Ağıl fəth eyləyir uca göyləri.

## EŞQ HAQQINDA

Aşiqlik olmasa insan canında,
Məhv etməz özünü eşqin yolunda.
Eşqə bağlanıbdır xilqətin canı,
Eşq ilə yaradıb xaliq cahanı.
Eşq uca göylərdə qərar tutubdur,
Eşq ilə kainat tarazlaşıbdır.
Ayın məhəbbəti olmazsa Yerə,
Dolanıb başına vurarmı dövrə?
Yerin də Günəşə məhhəbəti var,
Onun çevrəsində hey qərar tutar.
Müştəri Zöhrənin gül camalına
Vuruldu, çatmadı öz vüsalına.
İndi də göylərdə dövrə vururlar,
Eşqin çevrəsində qərarlaşırlar.
Göylərin sütunu qurulsa əgər,
Eşq ilə tökülən təməl bərkiyər.
Rüzgarlar onu uçura bilməz,
Eşq ilə bağlanan sütun əyilməz.
Sürtəndə bir-birinə kəhrəbanı,
Eşq ilə özünə çəkir samanı.
Eşqin zəncirinə dolanıb cahan,
Eşq ilə yaranıb, doğulub insan.
Əslinin eşqiylə Kərəm kül oldu,
Eşqin yaşı axdı-axdı göl oldu.
Leyli də Məcnunu saldı çöllərə,
Bir dastan bağlandı, düşdü dillərə.
Məhəbbət Fərhadın ömrünü qırdı,
Şirinin eşqiylə dağları yardı.
Züleyxa alışdı, Yusifi sevdi,
Eşqinin uğrunda böhtan da dedi.
Bəşərin canında eşq olmasaydı,
Səmalar donardı, yer buz bağlardı.

## QƏZƏL

Pərvanədə eşq olmasa, odda da yanan olmazdı,
Hər aşiqin eşqi sönsə, dillərdə dastan olmazdı.

Səhər-səhər bülbül öpüb oyatmasa gül-çiçəyi,
Yatıb qəflət yuxusunda güllü-gülüstan olmazdı.

Yusifi sevməsə əgər Züleyxa divanə olub,
Aləmdə açıq-aşikar Yusifə böhtan olmazdı.

Şirin kimi bir gözəlin eşq atəşi yandırmasa,
Bisütuntək dağı çapıb Fərhada meydan olmazdı.

Məcnun sevib Leylisini düşməsəydi səhralara,
Məhəbətin məcarası dünyaya bəyan olmazdı.

Kərəm açıb yaxasını, xan Əslisi alovlanıb,
Özü yanıb kül olmasa, keşişə ayan olmazdı.

Əzra-Vamiq məhəbbəti keçməsəydi könüllərə,
Aşıqlərə könül verən sevgili canan olmazdı.

Bir gözəlin eşqi düşüb bir igidin sinəsinə,
Ağrı-əzab çəkməsəydi, sevgidən doyan olmazdı.

Gizli qalıb bu aləmdə sirlər açan olmasaydı,
Nə sirr verən, nə sirr açan şər-şəpət şeytan olmazdı.

Ey Coculu, sən anladın, bu dünyanın eşqi ölsə,
Yaşamaq mənasız olub, gözəl bir dövran olmazdı.

## AĞLIMI ALIB GETDİ

Bir niqabın altında bir mələk gizlənibdir,
Elə bil ki, dünyaya hürü-qılman gəlibdir.
Boyu sərv ağacıdır, beli üzükdən keçir,
Neçə aşiqlər onun qabağında diz çökür.
Yerişi maral kimi, duruşu bir ceyrandı,
Ətrafa nur çiləyir, hamı ona heyrandı.
Niqabı cilvələnir, sinəsi qalxıb-enir,
Bu atəşdə yananlar dindən, imandan dönür.
O mələyin niqabı vücudundan sürüşdü,
Könlümün təşnəsinə sevda düşdü, nə düşdü.
Gül camalı açılıb günəş kimi parladı,
Kiprikləri ox olub qəlbimi yaraladı.
Gözləri gözlərimlə bir anlığa görüşdü,
Gözlərinin nurundan gözlərimə nur düşdü.
Dindirmək istəyirdim, nə danışdı, nə dindi,
Vücudunu qaldırdı, başı aşağı endi.
Əl atıb niqabını yenə çəkdi başına,
Həm ədası, həm nazı çox yaraşdı yaşına.
Məni görməyir kimi, yoluna davam etdi,
Yerimdə donub qaldım, ağlımı alıb getdi.
Gözəllik aşiqləri mələyi seyr edirdi,
Özünü itirmədən öz yoluyla gedirdi.
Ayağının səsində musiqi ahəngi var,
Sevdaya düşənlərin ürəyini parçalar.
Bu nə sirdi görəsən, nurdanmı yaranıbdır?
İlahinin, Tanrının əliylə daranıbdır.

# ƏDALƏT HAQQINDA

Bir kimsənin haqqı tanınmayanda,
Ədalət var deyə bilmərik onda.
Ədalət bir nurdur, yaranıb haqdan,
Onun işığına yığışır insan.
Ədalət toxumu səpilsə cana,
Zamanla tiryək tək yeriyər qana.
Anadan olanda toxum səpməsən,
Sonra faydasını görə bilməzsən.
Ədalət hikmətdir, hamıda olmur,
Nadanın beyninə dürr, inci dolmur.
Nadanlar heyvan tək ömür sürürlər,
Həyatı işrətdə, kefdə görürlər.
Elm ilə əməldən yaranıb hikmət,
Elm kamillikdir, əməlsə zəhmət.
Elmsiz əməlin zəhməti çoxdur,
Əməlsiz elmin faydası yoxdur.
Nəfsinin quluna çevrilsə insan,
Nə haqq, nə ədalət gözləmə ondan.
Nəfsdir insanı cahil göstərən,
Nəfsdir insanı qula döndərən.
İnsan öz nəfsinə tabe olanda
Haqq da, ədalət də yox olur onda.
İnsan öz nəfsini boğa bilərsə,
Ədalət gözüylə baxar hər kəsə,
Nəsimi car çəkib, «ənəlhəqq» – dedi,
İnsan övladını haqqa səslədi.
Allah qapısını açıb insana,
Ey insan! Allaha yaxınlaşsana.
Ey insan! Nurlanıb təmizlənməsən,
Allah dərgahına girə bilməzsən.
Nəsimi bu yola səsləyib bizi,
Biz haqqa çevirsək hər cümləmizi,
O zaman insanlar haqqa gələcək,
Ədalət dünyanı xilas edəcək.

# AĞIL HAQQINDA

Cahildən soruşdular: – Ağıl nədir?
Dedi: – Mənim üçün bir əyləncədir.
Yeyirəm, içirəm, kefdə oluram,
Həyatın zövqünü meydən alıram.
Özümə oxşayır dostum, yoldaşım,
Düşünə bilmirəm, ağrımır başım.
Kiminlə dost olub yaxınlıq etsəm,
Ölərəm mən ondan xeyir görməsəm.
Dərd nədir, sər nədir, yaxın qoymaram,
Qohumun, qardaşın halın sormaram.
Nə işim, kim-kimi kəməndə salır,
Nə işim, kim-kimdən qisasın alır.
Millətin haqqında fikirləşmirəm,
Dərdi çox böyükdür, çəkə bilmirəm.
Dərdi çox olanın bənizi solur,
El üçün ağlayan gözündən olur.
Nə işim, vətənim düşübdür dara,
Günüm harada xoş – Vətənim ora!
Şikayət etmədi cahil ağlından,
Nələr eşidirik insan oğlundan.
Aqildən soruşdular: – Ağıl nədir?
Dedi: – Mənim üçün bir dəbilqədir.
Qoyuram başıma, qoruyur məni,
Qandırır, tanıdır dostu, düşməni.
Dərdini çəkirəm elin, obanın,
Halını bilirəm bütün dünyanın.
Əl tuturam mənə ağız açana,
Badalaq atmıram məndən qaçana.
Ağıldır bizləri idarə edən,
İnkişaf etdirib, düz yol göstərən.

Ağılı bizlərə vermişsə Xuda,
Ondan da əzizi varmı dünyada.
Ağıldır fəth edən uca göyləri,
Ağılın, kamalın yox bərabəri!
Ağıldır dünyanı nizama salan,
Ağıldır dünyadan bac-xərac alan.



## VƏTƏNDAŞ OLMAQ

Çatmasa çörəyə cavanın əli,
Tutmasa baltanı, külüngü, beli,
Əgər onda mərfət, hörmət olmasa,
Böyüyün, kiçiyin yerin bilməsə,
Zatı da, soyu da qırıq olarsa,
Bir ömrü şərəfsiz başa vurarsa,
Xisləti bənzəsə vəhşi heyvana,
Oxşaya bilməsə adi insana,
Əxlaqı ləkəli, həyası yoxsa,
Qanında insanlıq mayası yoxsa,
Özünə ər deyib çıxmasın üzə,
Düşməsin ağıza, söhbətə, sözə.
Böyüyüb ər kimi ərsəyə gəlsin,
Bir parça çörəyə boyun əyməsin,
Oxuyub, öyrənib sənətkar olsun,
Özünü əzaba, zəhmətə salsın.
Yatmağa, durmağa bir koma qursun,
Vətən keşiyində ər kimi dursun.
Hakimin zülmünə tabe olmasın,
Xalqını qovğaya, şərə salmasın,
Millət bağışlamır ara qatanı,
Xəyanət eyləyib dostu satanı.
Şərəflə özünə vətəndaş desin,
Vətəni canından o artıq sevsin.

Vətəndaş olmağa mizan qoyulsa,
Tarazın qolları düz dursun gərək.
Şərəfli vətəndaş olan hər kəsin,
Ürəyi vətənlə bir vursun gərək.

Vətənədaş olmağa mizan qoyulsa,
Tarazın qolunu əyəsən gərək.
Haqq da, ədalət də tapdanan zaman,
Susmayıb sözünü deyəsən gərək.

Vətəndaş olmağa mizan qoyulsa,
Tərəzi hər kəsi düz çəksin gərək.
Tərəzi gözündə kiçilənləri,
Vətən öz başından tez əksin gərək.

Zildən oxunur «Qarabağ şikəstəsi»,
Vətən səmasında yayılır səsi.
Bu zaman çadırdan bir ana çıxır,
Gəldiyi yollara həsrətələ baxır.
Vətənin yolları bağlanıb qalıb,
Ana elə bu çadırda qocalıb.
Oğul şəhid verib, ər şəhid verib,
Ananın gözləri dəhşətlər görüb.
Şikəstə ağladır, yandırır onu,
Torpağa bağlıdır ananın canı.
Nə ola yenidən bir ər doğaydı,
Torpağı almağa bir nər doğaydı.
Ananın ümidi qırılır birdən,
Nə ər, nə də ki, nər doğmaz yenidən.

Ərlərin düşmənə çevrilsin yönü,
Qisas qiyamətə qalmasın gərək.
Analar görməsə o böyük günü,
Heç zaman, heç zaman ölməsin gərək.

Şikəstə oxunur… zahı bir ana
Çadırda gətirir oğul dünyaya.
Çadırda doğulan bu ər dediyim,
Adına bilmirəm nə ad verdiyim,
Koroğlu olarmı, Babək olarmı,
Düşməni susdurub, qisas alarmı?!
Çadırda doğulan Vətən qədrini,
Bilərmi, qorurmu şəhidlərini?!
Şikəstə oxunur… millət oynayır,
Toylarda «ərlərin» qanı qaynayır.
«Kərəmi» çalınır, millət rəqs edir,
Sərhəddə bir əsgər canını verir.
Düşmənin silahı çevrilib bizə,
Eşqimiz coşubdur, nə kefimizə…

## VƏTƏNİ SEVMƏK

Vətəni sevmək imandandır! – dedi,
Peyğəmbər əfəndi belə söylədi.
Vətəndir xəlq edən cahana bizi,
Vətənlə başlayaq hər kəlməmizi.
Vətəni sevməyən – imansız olar,
Vətəni olmayan – gümansız olar.
Bir xalqın vətəni olmazsa əgər,
Millətlər içində əriyib gedər!
Vətənsiz millətin dili də ölər,
Vaxt gələr bir başqa dilə çevrilər.
Vətəni qorumaq bizə gərəkdir,
Ruhumuz vətənlə birləşəcəkdir.
Ruhumuz nə qədər qalxsa göylərə,
Yenə də vətəndən getməz heç yerə.

Biz isə qoruya bilmədik onu,
Az duyduq vətənin nə olduğunu.
Vətənimiz parça-parça olubdur,
Bölük-bölük yad əllərdə qalıbdır.
Borçalımız qan ağlayır, yaş tökür,
Göyçə eli həsrət çəkir, qəm çəkir.
Dərbənd bizə qapıları bağlayıb,
Xan Arazım daşıb, coşub, çağlayıb.
O tay, bu tay dərd içində dərd görüb,
Bu torpağı Araz niyə tən bölüb?
Bu millətin günahı nə, suçu nə?
Yazan yazıb yazımızı tərsinə.
Təbriz niyə həsrət qalıb Bakıya?
Urmiyadan yol bağlanıb Şəkiyə.
Qarabağı əlimizdən alıblar,
Yaman yerdə bizi tora salıblar.
Borçalının özü boyda dərdi var,
Borçalılar pərən-pərən olublar.
Vətən oğlu, sev vətəni, qoru sən,
Haqq işini yetir sona doğru sən!

El bir olsa, dağı yerdən oynadar,
El bir olsa, zərbi kərən sındırar.
Bir yumruq tək bir ovucda birləşək,
Düşmənləri diz çökdürüb, mərdləşək.
Məqsədimiz, amalımız bir olsun,
Hayqıranda haqq səsimiz gur olsun!

***

Ayrılıq həsrəti üzəndə məni,
Dağların seyrinə çıxdım, ay Sayad.
Anamız «Şindi»nin qalxıb başına,
Ağlayıb köksümə sıxdım, ay Sayad.

Ayaqladım Böyük Tapın başını,
Qartal uçan qayaların tuşunu,
Yazıb bir lövhəyə vurdun yaşını,
Mən bala «Şindi»yə taxdım, ay Sayad.

Dərəsini, təpəsini yoxladım,
Dolandım dağları, çiçək qoxladım.
Ən uca zirvədə ayaq saxladım,
Pirdən bu cahana baxdım, ay Sayad.

Dam yerində görüşümə gəldilər,
Çiçəkli çəməndə süfrə sərdilər,
Əmliyin ətindən kabab verdilər,
Yeyərək doyunca tıxdım, ay Sayad.

Yaralar var vətənimin kökksündə,
Dayanıblar millətimin qəsdində,
Mədnə təpəsində, ocaq üstündə
Tanrıya bir nəzir çıxdım, ay Sayad.

Qucaqladım qayasını, daşını,
Saxlaya bilmədim gözüm yaşını,
Zalım fələk yaman görüb işini,
Çarəsiz yanaraq-yaxdım, ay Sayad.

Dolana-dolana Tağlıya getdim,
Bayram bulağını ziyarət etdim,
Əyilib suyundan doyunca içdim,
Həsrət qalasını yıxdım, ay Sayad.

Göy üzünü qara bulud alanda,
Şimşəklər çaxanda, leysan olanda,
Sellər daşıb dərələrə dolanda,
Qoşulub sellərə axdım, ay Sayad.

## SÖZ HAQQINDA

İnsan yarandı, söz ehtiyac oldu,
Söz insanın başına bir tac oldu.
Sözlə dərk eylədi insan özünü,
Sözlə dedi əyrisini, düzünü.
Söz əvvəl yarandı, sonra da kamal,
Sözlə cilvələndi gülüzlü camal.
Söz incidir – sapa düzə bilənə,
Söz qul olur ayağına gələnə.
Söz güllədir gurladanın əlində,
Söz hikmətdir söyləyənin dilində.
Muncuq tək yan-yana düzülən zaman,
Yaranır kamil bir hekayə, roman.
Sözü nəzmə çəkə bilərsə insan,
Sözlərdən yaradar gözəl bir dastan.
Ağızdan-ağıza, dillərə düşər,
Tikanlı çöllərdə bəhər yetişər.
Aşiqi məst edər güllərin ətri,
Göylərdə yaranar məhəbbət çətri.
Söz var ki, dünyanı qana qərq edir,
Söz var ki, dünyanı haqqa gətirir.
İndi məqamdır söz danışmağın,
Böyük bir xətası olur susmağın.
Ancaq, söyləyəndə boş-boş danışma,
Sözün sərhəddini, həddini aşma!
Az danış, düz danış, özünü öymə,
Aqillər yanında gözünü döymə.
Mənasız sözləri danışsan əgər,
O sənə alçaqlıq, nifrət gətirər.
Haqqı danışanda canından qorxma,
Haqqı danışanı çəkirlər mıxa.

Bir sözlə, çevrilmə köləyə, qul,
Bir sözə aldanıb satılma pula.
İndi söz meydanı, söz zamanıdır,
Söz – zamanın, siyasətin canıdır.
Əgər açılıbsa sözün meydanı,
Buraxma ortaya kütü, nadanı.
Çox böyük hikmətlər yaranır sözdə,
Bəzən söz anlayır at da, öküz də.
Heyvanlar da söz anlayır, söz qanır,
«Toqquş» çağıranda, eşşək dayanır.
Bəzən də insana söz təsir etmir,
O zaman incinin qiyməti itir,
Mən söz sərrafıyam, söz ustasıyam,
Susmaz dilim, məzarda susasıyam.



## DÜNYANIN GƏRDİŞİ

Dünya qoca dünyadır, papağını atıblar,
Dünyanın şərəfini, qeyrətini satıblar.
Dünyadan kam alanlar öz payını alıbdır,
Özləri kef içində, bizi dərdə salıbdır.
Dünyanın azarı var, dərdi var, bezarı var,
Varlıdan yan keçsə də, yoxsulu arar, tapar.
Dünya gidi dünyadı, ədaləti pozulub,
Kiminin bəxti qara, kiminə ağ yazılıb.
Bəs fələyin çərxini kim döndərib tərsinə?
Bu dünyanın bilinmir əyrisi nə, düzü nə.
Fələk özü söyləyir, çərximi döndərmədim,
Mən dərdimi, bəlamı kimsəyə göndərmədim.
Dərd-bəla tapıb sizi, mən məəttəl qalmışam,
Özüm də bu işlərdən çox nigaran olmuşam.
Onda günah kimdədi? – deməli, Adəmdədi.
Bir buğdada, arpada, bir də elə dəndədi.
Cənnətdə yaşayarkən cəhənnəmə atıldı,
Tamahı güc gəlincə bir buğdaya satıldı.
Adəm ata Həvvanı özü ilə götürdü,
Cəhənnəmdə dünyaya insanları gətirdi.
İnsanın da kələfi cəhənnəmdə dolaşdı,
İnsan oğlu bu işdən məəttəl qaldı, çaşdı.
Kiminin kələfini fələk çözdü, tez açdı,
Kiminin də kələfi gedə-gedə dolaşdı.
Adəm öz günahını götürüncə boynuna,
Yenidən qaytardılar tez cənnətin qoynuna.
Adəm oğlu insanın indi olarmı dərdi,
Bir etiraf Adəmi peyğəmbərə döndərdi.
Adəm oldu dünyanın birinci peyğəmbəri,
Cənnətin, cəhənnəmin çəkildi sərhədləri.

İndi tövbə dəbdədir, günahı yumaq üçün,
Yolunu azmışları yoluna qoymaq üçün.
Adəmdən tamah qaldı insanların canında,
Günahkar oldu insan Tanrının dərgahında.
Adəm özü günahsız, Adəm oğlu günahkar,
Görəsən günahları görürmü pərvədigar?
İnsan oğlu insana ağır cəzalar verir,
İnsan oğlu insanı görən, niyə öldürür?
Bu gərdişin başında tamahın özü durur,
Bu dünyanın açılan ağ-qara üzü durur.
Adəmin yox günahı, o, ki, din yaratmadı,
Bir-birindən insanı heç zaman ayırmadı.
Onda günah kimdədi, təriqətdə, dindədi,
İnsanlara yol tapan şeytandadı, cindədi.
Bağdadın günahı yox, bomba yağır üstünə,
Tamaşa qılınıbdır o şəhərin hüsnünə.
Əfqanıstan dağılır, torpağın nə günahı,
Bu gün qan içənlərin olacaqmı sabahı,
Əfqanlar didəşirlər, ingilisə nə borcu?
Amerika dövlətinin niyə tökülür xərci?
Rus tutubdur dünyanın beşdə birdən çoxunu.
Qınına qoyacaqmı kamanını, oxunu?..
İndi elm kimdədi, güc-qüvvə də ondadır,
Elmin inkişafı da yaradılan candadır.
Əcnəbilər fəth edir yeri, göyü, ulduzu,
Onlar elmin pələngi, biz isə əmlik quzu.
Didib parçalayarlar, yeyərlər ətimizi,
Elmə çevrə bilməsək əgər niyyətimizi.
Xeyirlə şərin işi elə vuruşmaq olub,
İnsan oğlu xeyirlə-şər içində doğulub.
Dünya qoca dünyadı, qorxmuram gərdişindən,
Vərdiş edən əl çəkməz etdiyi vərdişindən.

## DÜNYAMIZIN YARANMASI

Dünyamızın yaranması
Sirli qaldı bu aləmdə.
Əsaslı bir sübut yoxdur,
Fərziyyədə, nə elmdə.
Kainatın bətni dolub,
Varlıqların sayı sonsuz.
Yaranıbdır, yox olubdur,
Kainatda canlı-cansız.
Hansı qanun üzərində
Bu dünyamız qurulubdur?!
Yaranışı bəllidirmi?
Belə bərqərar olubdur.
Kainatın sirri nədir?
Milyard ilə yaranıbdır.
Kəhkaşanın özü böyük,
Hansı qüvvə yaradıbdır?
Bir dəfə var ol, deməklə,
Kəhkaşanmı hasil oldu,
Bir söz isə kainatın,
Bətni görən necə doldu.
Bir söz ilə kainatın,
Yaranmağı bir əfsanə,
Kainatda yaranışın,
Sorğusu nə, cavabı nə?
Kainatın dolmağını
Partlayışda görənlər var,
Partlayışın səbəbini,
Guya duyub bilənlər var.

Bir qrup alim söyləyir,
Fikrini izah eyləyir:
– Planetlərin tərkibi,
Çox kiçik zərrəcikdir.
Diferensasiyadan o,
Toz halında birləşibdir.

Dünya sirli bir aləmdir,
Sirri hələ açılmayıb.
Çox alimlər çalışıbdır,
Onu bilən tapılmayıb.

**I**

Astronomiyada nəzəriyyə var,
Yayılıb dünyaya açıq-aşikar.
Dünyanın əvvəli sonsuza gedib,
Qaz, toz kütlələri göydə dövr edib.
Obyektiv varlıqlar yaranmamışdan,
Günəş, yer, ay, planet olmamışdan,
Kütlələrin həcmi çox böyük imiş,
Burada soyuma əmələ gəlmiş.
Qazlar, tozlar bu mühitdə qarışıb,
Birləşərək bir-birinə yapışıb.
Kondensasiya prosesi çox gedib,
Beləcə, varlıqlar əmələ gəlib.
Potensial enerjisi azalmış,
Radiaktiv maddələr parçalanmış.
Varlıqlar əmələ gəldiyi zaman,
Dixildə istilik artıb durmadan.
Ağır elementlər dərinə enib,
Yüngül olanları üstdə yerləşib.
Obyektiv varlıqlar yaranıb belə,
Buna da sübutlar olmayıb hələ.

## II

İndi görək dünya haqqda söz deyib,
Övliyanlar, ərənlər nə söyləyib.
Bu dünyanı yozub-yoran piranlar,
Gərdişinə sinə gərib duranlar.
Söz söyləmiş, əsatirlər yaratmış,
Qoca dünya hələ binnət olmamış.
Bu dünyada nə yer varmış, nə də göy,
Əyyamis – sələfdən olub çox bədöy.
Yerlə göyün vücüdları bir imiş,
Köbəkləri bir-birinə bitişmiş.
Ərənlərin, piranların gapında,
Dəhşət olub yerlə göyün çatında.
Burada bir ənşər-mənşər başlayıb,
Göy bu yeri, yer də göyü boşlayıb.
Beşik kimi yırğalanıb bu dünya,
Nehrə kimi çalxalanıb bu dünya,
Köbəkbitişik parçalanıb qırılıb,
Köbəkləri bir-birindən ayrılıb.
Dünyanın bətnindən bir oluv çıxıb,
Yeddi milyon at mənzili qalıxıb.
O həmişəyaşar bir məskən salıb,
Göylərin tacında Günəş adlanıb.
Dünyanın alt qatı bütöv su olub,
Özünün əvvəlki yerində qalıb.
Qapalı dünyanı yozub-yoranlar,
Əsatiri, nağılları quranlar,
Söz söyləyib, gap danışıb, gop edib,
Bu tarixi bəlli-başlı bilməyib.
Çox öj olub bu ayrılan ekizlər,
Bir-birinə qarşı durub əzizlər.

Qarşıdurma yedi milyon il sürüb,
Günəş ağzından od-alov püskürüb.
Odun gücü qorlayıb çox qarsalıb,
Yerin suyu yavaş-yavaş buğ salıb.
Buxarlanıb göy Buluda çevrilib,
Yanarodun qarşısına sərilib.
Göydə Bulud ora-bura sürüşür,
Gün yaxanda hərdən Suyla görüşür.
Bu görüşdən Bulud hamilə qalır,
Xəbər çatır Günəş yaman sarsılır.
Buluda çevirir o hikkəsini,
Yandırır bağrını, kəsir səsini.
Şahmar ilan kimi Bulud qıvrılır,
Hamilə köbəyi birdən cırılır.
Dünyaya çox övladları gətirir,
Bu varlıqlar göy üzünə səpilir.
Ay, Ulduz Günəşin odunu bilir,
Gündüzlər gizlənir, gecə seyr edir.
Günəşin hikkəsi sönmür ki, sönmür,
Suya qəzəbindən dönmür ki, dönmür.
Günəş Suyu daha da çox yandırır,
Oduyla qızdırıb buxarlandırır.
Yavaş-yavaş su da geri çəkilir,
Günəşin hikkəsi yerə tökülür.
Çalın-çarpaz dağ çəkir sinəsinə,
Dərə-təpə yaradır təşnəsinə.
Ərənlər hər şeyin vaxtını bilir,
Ay, Ulduz böyüyüb ərsəyə gəlir.
Tənhalıq Günəşi salanda əldən,
Aya aşiq olur minbir könüldən.
Buludun sevinci sığmayır göyə,
Ayı tumarlayır, övladım deyə.

Ayla Günəş bir-biriylə sevişir,
Ayda-ildə bircə kərə görüşür.
Günəş Aydan bu zaman boylu olur,
Dan və Dün – oğlu, qızı doğulur.
Onlar da ərsəyə gəldiyi zaman,
Bulud çox sevinir, gülür asiman.
Bir-birini sevib könül verirlər,
Xeyir-dua alaraq evlənirlər.
Dörd nəvə, on iki nəticə olur,
İyirmi dörd kötücə, otuz itiycə,
Üç yüz altımış dörd ötüycə qalır.
Ötüycənin son beşiyi dəcəldir,
Tək-tənha dünyanı dolanıb gəzir,
Günəş ötüycənin dəymir xətrinə,
Yerləşdirir Şua adlı çətrinə.
O, çətirlə onu yerə endərir,
Fərmanını verib səfir göndərir.
Tək-tənha ötüycə gəzir-dolanır,
Dərya kənarında yeni yurd salır.
Çal-çamırnan yeddi çöpü düzəldir,
Hamısını ayaq üstə dikəldir.
Yamanca yorulub gedir yuxuya,
Bulud çox sevinir, düşür qorxuya.
Sevincindən gözlərindən yaş axır,
Hər bir çöpə yeddi damcı buraxır.
Elə ki, ötüycə yuxudan durur,
Çöplərin hərəsi bir ağac olur.
Ağaclar böyüyür qol-budaq atır,
Yayılır hər yana, ilbəil artır.
Yurddaşda yaranır bir Gülşən bağı,
Üzanır hər yana güllərin tağı.
Ötüycə bağları, bağçanı gəzir,
Güllərdən toxuyub çələng düzəldir.

O yenə də qərib-qərib darıxır,
Oturub kənardan dəryaya baxır.
Gözünə dəryada məxluq görünür,
Bir az qorxur, vahiməyə bürünür.
Sonra görür sudakı öz əksidir,
Gələn səs də ləpələrin səsidir.
Çal-çamırdan iki məxluq yaradır,
Onları sudakı əksə oxşadır.
Məxluqlara göydən nəfəs verilir,
Hər ikisi cana gəlir, dirilir.
Biri: – Adəm! Adəm, – deyə bağırır.
O birisi: – Həvva! Həvva, – çağırır.
İlk insanlar bu dünyaya iz salır,
İsrafil ucadan düdüyü çalır.
Adəm, Həvva bir-birini xoşlayır,
O gündən də yeni həyat başlayır.
Günlər, aylar yavaş-yavaş ötüşür,
Həvvanın könlünə nar, zoğal düşür.
Ərənlər, piranlar yorub-yozurlar,
Gapları, gopları qoşub-düzürlər.
Həvva yetmiş bir il doğub-törəyir,
Hər ildə dünyaya bir əkiz verir.
Birisi qız olur, birisi oğlan,
Onlarla yurd olur Palıd, Dağdağan,
Utancaqlıq yaşına ki, çıxırlar,
Him-cimləşib bir-birinə baxırlar.
Bu Gülşən bağına sığmaz olurlar,
Dəstə-dəstə yollara ayrılırlar.
Gecə-gündüz yeddi ay yol getdilər,
Özlərinə yurddaşlar düzəltdilər.
Yeddi min il doğdular, törədilər,
Ölüm-itim olduğun görmədilər.
Cahan div ölümlə dünyaya gəldi,
Minbiri doğuldu, mini də öldü.

## III

Bu dünya gəlimli-gedimli oldu,
Nə qədər boşaldı, o qədər doldu.
Dünyada ərən də var, örən də var,
Dünyada yaxşı-yaman dövran da var.
Adəm ilə Həvva qondu-qonumdu,
Övladları ovun-ovun ovundu.
Cahan divin qurduğu bir oyundu,
Şər qüvvədən xeyir hər vaxt qorundu.
Kimi vurdu, kimi qurdu dünyada,
Kimi iblis, kimi nurdu dünyada.
Bu dünyanı söküb vurana lənət!
Bu dünyanı tikib qurana hörmət!

## VARLIĞIN DƏRK EDİLMƏSİ

Varlıq nədir, onu yaradan nədir,
Bunlar sirdir, yoxsa bir əfsanədir?
Varlıq bizi əhatə edən dünya,
Aqilə elmdir, cahilə xülya.
Varlığın özünü ağıl dərk edir,
Necə yaranıbdır öyrənə bilmir.
Bəs varlıq harada, nə vaxt yaranıb?
Varlığın məkanı, vaxtı olmayıb.
Onun yarandığı məkanı çoxdur,
Keçdiyi zamanın hüdudu yoxdur.
Şar üzərində sən yerisən əgər,
Getdiyin yol bitər, nə də tükənər.
Nə qədər fırlansan yol gedəcəksən,
Zaman bitdiyini görməyəcəksən.

Şar özü göylərdə hərəkət etsə,
Çox uzun məsafə, yollar da getsə,
Yenə də o yanda məkanı qalır,
Nə məkan qurtarır, nə vaxt dayanır.
Məkan da mövcuddur, zaman da mövcud,
Zamana, məkana qoyulmaz hüdud.
Məkan da sonsuzdur, zaman da sonsuz,
Təfəkkür söyləyə bilməyir son söz.
Varlıqdan törəyib təfəkkür özü,
Varlığın sirrini dərk etmir düzü.
Axı bir hər şeyin başlanğıcı var,
Əvvəli olanın sonu da olar.
Məkan da, zaman da ölçüyə gəlməz,
İdrak bu məntiqi dərk edə bilməz.
Bəs birinci – əzəli olan nədir,
Varlıqmı əvvəldir, ruhmu əvvəldir?!
İnsan da canlı bir materiyadır,
Ruhdan əvvəl insan özü yaranır.
Bəlkə ruh olmasa, insan da olmaz,
İdeya olmasa, varlıq yaranmaz.
Deyirlər varlığı bir yaradan var,
Bu fikir həllini bəs necə tapar?
Görəsən tutarlı bir sübut varmı,
Sübutsuz, dəlilsiz əsas olarmı?
Bəs onda varlığı nədir yaradan,
Tapılmaz bir həlli məntiq olmadan?!
Belə iddiada bulunur insan,
Varlıqlar asılı deyil şüurdan.
O ancaq şüurda əksini tapır,
Duyğuyla insanın özünə çatır.
Beləcə dünyanı dərk etmək olur,
Ortaya obyektiv məntiq qoyulur.
Vəhdətdə olurlar məkanla zaman,
Dünyanı dərk edir ağıllı insan.

Bəzən də insanlar iddia edir,
Dünyanı dərk etmək mümkündür, – deyir.
Dünyanı quran mütləq ideyadır,
İdrakın mənbəyi «o dünya»dadır.
Həqiqəti bilmək istəsə adam,
O, ətraf mühitdən əl çəksin müdam.
Varlıqlar şüurda inikas etmir,
Obyektiv bir dünya idrakla bitmir.
Bəzən də insanlar belə söyləyir:
– Dünyanı dərk etmək mümkün deyildir.
Nə əvvəl yaranır, törəyən nədir?
Bunlar hamısı bir əfsanədir.
İdrak dərk etməzsə dünyanı əgər,
Bəs dialektika nədən törəyər?!
Deməli, dünyanı dərk edir insan,
Çıxır cəhalətin qaranlığından.

## DÜNYANIN İSTİRABLARI

Bilən varmı görəsən, bu dünyanın yaşını?!
Bəxtəvər arsız olub, ağartmayıb başını.
Bu dünyanın əzəldən bəlkə dərdi olmayıb,
Həmişə cavan qalıb, dünyamız qocalmayıb!
Özü cavan qalsa da, bizi qocaldıb dünya,
Bəzən dağdan aşırıb, bəzən ucaldıb dünya.
Dünya elə həmişə boşalacaq, dolacaq,
Kimlərə nə veribsə qaytaracaq, alacaq.
Kim deyir ki, dünyamız çox istirab çəkməyib
Bir gözü gülən zaman, o biri yaş tökməyib.
Mən danışım, sən də bil bu dünyanın dərdini,
Tanıtmaq istəyirəm qorxağını, mərdini.

Nuha qədər bu dünya bir dəfə də boşaldı,
Su basdı dünyamızı, dünyamız Nuha qaldı.
Nuhdan sonra dünyanın istirabı çox artdı,
Misirin fironları ehramları yaratdı.
Ehramların hər daşı insanların belində,
Daşınırdı sürəkli, zəncirli əllərində.
İnsanlar yoruldular, çox zillətə dözdülər,
Hüquqları olmayan insanları əzdilər.
Yunan–İran savaşı əsrlərlə uzandı,
Troyanın divarları oda qalandı, yandı.
Süleymanın taxt-tacı bilinməyir hardadır,
Taxtı-tacı dağılıb, Süleyman məzardadır.
İsgəndər qanlar tökdü, dünyanı viran etdi,
Dünyadan köç edən də əlləri açıq getdi.
İran şahənşahları neçə məmləkət aldı,
Tomris Kirin başını tuluqda yola saldı.
Yuli Sezar, Pompey, Kras Romadan Türküstana,
Gözdağı çəkdirdilər milyonlarla insana.
«Qullar dünyası»nın gözü Spartaka dikildi,
Cəlladların əlində o, çarmıxa çəkildi.
Kəyanlar, Sasanilər oturmadı yerində.
Süquta uğradılar xilafətin əlində.
Hunlar böyük köç edib Avropanı aldılar,
Azmış xristianları yoluna qaytardılar.
Atilla qılıncını öz qınına salmadı,
Taxtı-tacı dağıldı, məzarı tapılmadı.
Ərəblər qan tökdülər, dövlətlər devirdilər,
Dünyanın yarısını İslama çevirdilər.
Babəkin inqilabı çox da uzun sürmədi,
Min illərlə bu dünya haqq-ədalət görmədi.
Atəşdə yandırıldı atəşpərəst olanlar.
Hindistana köçdülər oda sadiq qalanlar.
On birinci əsrdən türkün qanı çağladı,

Anaların qəlbini, sinəsini dağladı.
Türkün qılıncı türkün öz başına enirdi,
Yenilməyən türkləri türkün özü yenirdi.
Teymurun Bəyazidlə ədavəti nə idi?
Qardaşlar türk adını birləşdirə bilmədi.
Nəsiminin dərisi diri-diri soyuldu,
Haqq səsi ərşə çıxdı, asimana yayıldı.
Allahın dərgahından bu səs yerə enmədi,
Ədalət yayanların köməyinə gəlmədi.
Kim deyir ki, dünyamız çox istirab çəkməyib,
Bir gözü gülən zaman, o biri yaş tökməyib.

Taleyimiz bağlanıb
Bir Allahın hökmünə.
Biz anlaya bilmirik
Fərmanı nə, hökmü nə?

Allah özü də sevmir
İtaət edənləri.
Şərəfsizin, iblisin,
Yolunu gedənləri.

## PAPAQ QEYRƏTİMİZDİR

Torpağın beşdə biri düşmənin əlindəditr,
Qarı düşmən dost olmaz, fitnədə, felindədir.
Gündə xəbərlər gəlir, odlanır torpağımız,
Başımızdan düşübdür buxara papağımız.
Papaq başdan ucadır, əgər başda durarsa,
Papağı saxlayarıq qeyrətimiz olarsa.
Nə fərqi var, alıblar papağı, ya torpağı,
İmarəti, sarayı, ya da kiçik otağı?

Döyüşəydik meydanda, verməyəydik torpağı,
Kaş ki, şəhid olaydıq, itirəydik papağı.
Özümüz bacarmadıq, çox oldu ortağımız,
Mıxdan asılı qaldı çərkəzi papağımız,
Torpağımız gedibdir nə günahı papağın?
Papaq üçün fərqi yox harada dayanmağın.
Başda qeyrət olanda, papaq başda ucalır,
Nəin ki, torpaq verir, hətta torpaq bac alır.
Şal örpək də papağın yerini verə bilir,
Papaq başdan düşəndə, örpək əvəz eyləyir.
Ərəfat da başına otuz il şal bağladı,
Nə papağın, nə şalın bir faydası olmadı.
Onda millət neyləsin, başına nə bağlasın?
Düşmənin həmləsini, qabağını saxlasın.
Bəlkə «biret», «furaşka» qoyaydıq başımıza,
Qarı düşmən qorxardı, çıxmazdı qarşımıza.
Onda papaq neyləsin, demək günah başdadı,
Bir-biriylə didişən qohumda, qardaşdadı.
Taleyimiz əzəldən belə yazılıb bizim,
Birliyimiz bilmirəm niyə pozulub bizim?
Demək olmayıb bizim nə başçımız, başımız,
Birləşə bilməyibdir dostumuz, qardaşımız.
Bir sehirli papağım olsa mənim nə dərdim,
Üzdə bizə dost deyən iblisləri görərdim.
Tanıyardım millətin dostunu, düşmənini, –
Üzdə bizi öyəni, dalda bizi söyəni.

## GECƏNİN ƏYLƏNCƏSİ

«Bar» deyilən bir yerə qonaq etdilər məni,
Unutmaq olardımı belə zövqü, nəşəni?!
Yer altında otaqlar bər-bəzəklə bəzənib,
Rəngli-rəngli işıqlar, çılçıraqlar düzənib.
Elə bil ki, düşübsən nağıllar aləminə,
Burada kef çəkənin əhvalı nə, dərdi nə?
Musiqinin sədası insanı məst eyləyir,
Müğənnilər oxuyur, nağıl, dastan söyləyir.
Rəqqasələr rəqs edir yarıçılpaq halında,
Minbir oyun göstərir pul-paranın yolunda.
«Bar» deyilən bu yerə yığışırlar cavanlar,
Dərdi-qəmi unudub, nəşəyə bənd olanlar.
Məclisə gələnlərin hal-əhvalı necədi?
Aşiqi dəmləndirən məsti-xumar gecədi.
Hər aşiqin yanında məşuqəsi nazlanır,
Al yanağı qızarır, şöləsi pərvazlanır.
Məşuqun hicabı yox, ağ əndamı görünür,
Aşiqdə hal qalmayıb qəlbi vurur, döyünür.
Badam gözlər süzülür, şux məmələr titrəyir,
İçib sərxoş olanı lap divanə eyləyir.
Məclisdə hər masaya nazu-nemət düzülür,
Bardaqlardan al şərab qədəhlərə süzülür.
Şərabın təsirindən başlar gicəllənibdir,
Bu gecə bu məclisə divanələr gəlibdir.
Gözəllər rəqs eyləyir, cavanlar hallanıbdır,
Qız oğlana sarılıb boynundan sallanıbdır.
Pul kisəsi açılır, havayı pullar çıxır,
Kimdi manat gəzdirən, bir ovuc dollar çıxır.
Səpillir gözəllərin açılan sinəsinə,
Cavanlar yarışırlar dilbərin həvəsinə.

Bu gecə yar yarını öz qoynuna alıbdır,
Taqəti yox durmağa, məst olaraq qalıbdır.
Bu gecənin sabahı, kaş ki, heç olmayaydı,
Səhərin açılmağı qiyamətə qalaydı.
Bu barlardan bir deyil, ölkədə minlərlədir.
Burada kef edənlər nə bilir Vətən nədir?!

## SUSMAQ ADƏTİMİZDİR

Deyirlər ki, söz gümüşdür qısanda,
Qızıl olur danışmayıb susanda.
Ona görə danışmayıb susmuşuq,
Danışanın mərəzini basmışıq.
Danışmağı əzəldən ar bilmişik,
Danışana xəfif-xəfif gülmüşük.
Tanrı bizi lal yaratdı, lal olduq,
Uca-uca kürsülərdən qovulduq.
Danışanın qıfıl vurduq ağzına,
Bir baxmadıq nə ağına, bozuna.
Beləcə susmağa adət eylədik,
Danışanda hərzə-mərzə söylədik.
Söz danışdıq başqasının diliylə,
Biz vurulduq yadların silləsiylə.
Deyəndə də hərəmiz bir söz dedik,
Ona görə bir araya gəlmədik.
Tarix boyu tayfalara bölündük,
Düşmən qarşısında aciz göründük.
Haralısan? – mərəzinə tutulduq,
Güclülərin qoltuğuna soxulduq.
Adət olub, vəkil-naib danışmır,
Bir kimsənin işlərinə qarışmır.

Ağ olmurlar pay verənin üzünə,
Baş əyirlər bəyin, xanın sözünə.
Qəlb deyəni dil söyləyə bilməyir,
Hökm edənə kimsə qarşı gəlməyir.
Daş gələndə kimlər ki, baş əyəcək,
«Ondan ötüb qardaşına dəyəcək».
Ölkəmiz çıxıbdır müstəqilliyə,
Tərəqqi, inkişaf olmasın niyə?
Xalqımız qabaqda günlər görəcək,
Cəm olanda şərə qalib gələcək.

## İKİÜZLÜLÜK HAQQINDA

Saxta pula bənzəyir ikiüzlü olanlar,
Bir üzlüdür həmişə haqqa sadiq qalanlar.
Əsginazın bir üzü, o birinə bənzəmir,
Çalarları bambaşqa, hərəsi bir rəngdədir.
Saxta pulun üzünə qızıl çəkilsə belə,
İçərisi misdirsə saxta sayılır hələ.
Əskinazın üzünü sürtəndə də silinmir,
Saxta pul yoxlanmasa qəlp olduğu bilinmir.
Riyakarın batini açılanda görünür,
İkiüzlü hər zaman kölgə kimi sürünür.
Əhriməndən güc alır, şeytana qulluq edir,
Getdiyi yol bilinməz, əyri-üyrü yol gedir.
Çox qədimdən bu günə belə bir deyim qalıb,
Qürub vaxtı  üfüqdə qurd da itə oxşayıb.
Fransızlar bu vaxta qurdun vaxtı deyiblər,
İtlə qurdu bu zaman ayıra bilməyiblər.
İtlə qurdun siması çox da eyni görünür,
Qurdun qəlbi it deyil, hərarətlə döyünür.

İt vəfalı olsa da, bulayır quyruğunu,
Qorxudan qəbul edir insanın buyruğunu.
İtdən vəfa gözləmə mədəsi boş anında,
Ona görə sümsünür məbədin qabağında.
İtlə qurdun fiziki oxşarı olsa belə,
İnsan qurdu ram edib ala bilməmiş ələ.
Qurd olduqca məğrurdur, məğlub olmağı sevmir,
Qurd mənəvi ucadır, asanlıqla yenilmir.
Türkün zatı, əjdadı gedib qurda dayanır,
Soyu Aşina soyu, həm də Bozqurd adlanır.
Nə zatımız itməyib, nə soyumuz dönməyib.
Yüksəkdə qərar tutub, ucalıqdan enməyib.
Zatı qırıq olanlar həm təkcədi, fərdidi,
Millətin daxilində bu onun öz dərdidi.
Bəzən görürsən üzdə ayadan arıdı insan,
Şeytan cildinə girib, sudan durudu insan.
Əgər sərsəm olmasan onları tanıyarsan,
Mərdi ilə dost olub, namərdi qınayarsan.
Üzdə sadə, daxildə xəbis vücüdlar olur,
Üz-üzə yaltaqlanır, arxada qisas alır.
Bəzən də insanların heç kinləri bilinməz,
Qılınc təki söz deyər, yaraları silinməz.
İkiüzlü adamlar dağ kimidir, sirr versən
Sirrini faş eyləyər, dağdan səs eşidərsən.
Səninlə sirdaş olar səndən bir şey qapınca,
Sənə arxa çevirər başqasını tapınca.
Baş məclisin başında dursa ikiüzlülər,
Vay halına millətin, millət əziyyət çəkər.

Taleyim top kimi oynadır məni,
Hələ də yolların arasındayam.
Rüzgar ağarır, gah da qaralır,
Nə ağında, nə də qarasındayam.

Yollar ayrıcında donub da qaldım,
Səbrim çox tükəndi, boşaldım, doldum.
Nədəndir bu qədər bəxti kəm oldum,
Bilmirəm dünyanın harasındaym.

Demirəm, bəxtimə düyün vurublar,
Mən haqqa gedərkən tələ qurublar,
Namərdlər qəsdimə yaman durublar,
Sönməmiş ocağın qorasındayam.

Kimi atın mindi, çapdı dörd nala,
Kimi ulaq ilə düzəldi yala.
Kimi də boylandı gah sağa, sola,
Yolu bağlıların sırasındayam.

Nadandır oynadan çovkan oynunu,
Topu düz tutanın vurur boynunu.
Pozulub dünyanın mizan qonunu,
Dünyanın çirk verən yarasındayam.

Həyatın yolları, izi qarışıb,
Dünyanın əyrisi, düzü qarışıb.
Harada dünyanın özü qarışıb,
Bax elə dünyanın orasındayam.

## SƏRXOŞLUQDAN AYILMAQ

Əzəl gündən insanın mey həmdəmi olubdur,
İnsan meydən zövqünü, nəşəsini alıbdır.
Mey Cəmşiddən dünyaya bir ərmağan qalıbdır,
İnsan dəm tutan zaman meyə meyil salıbdır.
Mey dağıdıb insanın qəmini, kədərini,
Gərək meyi içəndə biləsən qədərini.
Şərab çox içiləndə, onda haram sayılıb,
Şərab üzüm suyudur, üzümdən hazırlanıb.
İnsan meyə meyil edib, meyxanələr yaranıb.
Mey düşgünü şəraba qarışqa tək daranıb.
Mey düşgünü olanlar dünyadan bixəbərdi,
Dərdləri qəmləri yox, bəlkə də bəxtəvərdi.
İnsanı dərd tutanda şəraba meyli artır,
Şərab içən gecələr bir az da rahat yatır.
Amma şərab içəndə etibar yox əzəldən,
Vəfa gözləmək olmaz nə sərxoşdan, gözəldən.
Bizlər şərab içməmiş hələ sərxoş kimiyik,
Kimliyimiz şübhəli, bilirikmi kimiyik.
Torpağımız gedibdir nə kədərdə, qəmdəyik,
Yerimiz meyxanələr, məsti-xumar dəmdəyik.
Elə sərsəm gəzirik, dəmdən ayılmamışıq,
Böyük ikən kiçilib, böyük sayılmamışıq.
Ədalətlə birlikdə birliyimiz pozulub,
Birləşə bilməyirik, qismət belə yazılıb.
Hər gecənin gündüzü, var enişi-yoxuşu,
Bəsdi mürgüləyirik, bu nə qəflət yuxusu?
Biz qurddan törəmişik, qorxaq ola bilmərik,
Hamımız əlbir olsaq heç zaman yenilmərik.
Bir azca büdrəmişik, xalqın günahı azdır,
Dünya bizə qarşıdır, bu türk olmağımızdır.
Tayfaların birliyi bir-birinə örnəkdir,
Bütün türk dünyasının birləşməsi gərəkdir.
İsrarlıyam, əminəm elə bir gün gələcək,
Bu böyük türk dünyası cəm olub birləşəcək.

## QARABAĞ DƏRDİ

Biz vətəni sevirik, canımızdan əzizdir,
Vətən gözlərimizdə bir ümmandır, dənizdir.
Vətənin hər qarışı, hər bucağı doğmadır,
Biz vətənə borcluyuq, çünki bizə anadır.
Sual olur ki, vətən görən hardan başlayır?
Harada yaralıdır, elə ordan başlayır.
Zaman-zaman vətəni ağır yaralayıblar,
Torpağı hissə-hissə bölüb paralayıblar.
Yavaş-yavaş itirdik Dərbəndi, Borçalını,
Uca-uca dağların yamacını, yalını.
Göyçə eli, Zəngəzur diri ikən ölübdür,
Araz Azərbaycanı iki yerə bölübdür.
Dərdlərimiz çox olub, hamısı unudulub,
Ən böyük dərdimizsə, Qarabağ dərdi olub.
Əvvəlki faciələr babaların dərdiydi,
Dərdləri yaşamadıq, içimizdə əridi.
O əriyən dərdlərdən yeni bir dərd yarandı,
Fələyin fırıldağı gedib ərşə dayandı.
Bu dünyadan köçənin çoxu nisgilli getdi,
Hər biri son nəfəsdə: «Azad Qarabağ!» – dedi.
O nakamlar içində böyük dahilər oldu,
Onların da yerinə ər oğlanlar doğuldu.
Bu yükün ağırlığı bu zamana düşübdür,
Millətimiz bu odda qovrulubdur, bişibdir.
O ruhlar qalxıb durub Qarabağın üstündə,
Bir erməni deyil ki, millətimin qəsdində.
Tək erməni olsaydı millətimin nə dərdi,
Qatardı qabağına diri-diri didərdi.
Qarabağı almasaq ruhlar bizdən küsəcək,
İndiki nəsillərə şərəfsizlər deyəcək.
Biz də gərək qınayaq əvvəlki nəsilləri,
Bizi də söyəcəkdir gələcəyin ərləri.
İndi hünər vaxtıdır, a millət! Əlbir olaq!
Canımız-qanımızla Qarabağı qaytaraq!

# DİLİMİZ VARLIĞIMIZDIR

Dünyada çoxlu sayda millətlərin dili var,
Hər millət öz dilində danışırlar, yazırlar.
Dili ölən millətin özü də yox olacaq,
Dili hakim olanlar o adla yaşaycaq.
Bizi də millət edən bizim dilimiz olub,
Min illər keçsə yenə nə əksilib, nə ölüb.
Bu dili bu zamana xalqın özü daşıyıb,
Türk dilimiz beləcə uzun ömür yaşayıb.
Bizim şeirimizdə büdrəmələr çox olub,
Ərəbin, farsın sözü dilimizə soxulub.
Nə babamız, nənəmiz onları anlamayıb,
Qəliz şeir yazanı bir kimsə danlamayıb.
Mən qəzəlin, əruzun əleyhinə deyiləm,
Niyə dilim var ikən, ərəb, farsa əyiləm?!
Dilimizdən yad sözü tamam ələməliyik,
Hər sözü, hər kəlməni türkcə söyləməliyik.
Dədəm Qorqudun dili türkün təmiz dilidir,
Bu yurd Dədəm Qorqudun obasıdır, elidir.
Dilimizə xor baxıb şahımız, xaqanımız,
Nizamiyə sifariş verib Axsitanımız.
Deyib: – Leyli Məcnunu fars dilində bəzə sən,
Sən şeir aləmində o zaman yüksələrsən.
Beləcə son zamanlar rus dilinə meyil etdik,
Türkcə danışanlara geridə qalmış dedik.
Rusca danışanları bir alimtək gördülər,
Savad oldu-olmadı vəzifələr verdilər.
İndi də bu ənənə yenə davam eyləyir,
Xalqımız ingiliscə nağıl, dastan söyləyir.
İngiliscə bilənin kürsüsü uca olur,
Bilməyən alim belə kürsülərdən qovulur.

Dilimiz başımıza bəlkə bəla olubdur?
Nizamımız əzəldən, binədən pozulubdur.
İndi fəxr edək bizim müstəqil dilimiz var,
Özümüzü anlasaq bəlkə də yaxşı olar.

## BÖYÜK GÜNAHLAR

Nə qədər günah var, sayı bilinməz,
Saysan da sayları hesaba gəlməz.
İnsanlar dünyaya gəldiyi gündən,
Günahdan qurtara bilməyib nədən?
Çünki Adəm cəhənəmə qovulub,
İnsan oğlu cəhənnəmdə doğulub.
Adəm cəhənnəmdən uçdu cənnətə,
İnsan oğlu çox gəlsə də minnətə,
Elə cəhənnəmdə bağlandı qaldı.
Cənnət dediyimiz o dünyadadı,
Cənnətdə yaşamaq istəyən hər kəs,
Günahkar olmağa etməsin həvəs.
Düşünə bilsə ki, o, günah nədir?
İnsanın gözünə çirkli pərdədir.
Bu çirkli pərdəni yırtmasa insan,
Çıxmaz cəhalətin qaranlığından.
Qəflətsiz olanın günahı olmaz,
Günahkar qəflətdən heç vaxt ayılmaz.
Savadlı olan qəflətdən ayılır,
Nadanlıq ən böyük günah sayılır.
Şeytanın toruna nadan tez düşür,
Xətadan, bəladan aqil ötüşür.
Fəqir-füqaranın malın yeyənlər,
Alçaq itaətə boyun əyənlər.

Məzluma zülm edən, zalım olanlar,
Zalımın zülmündən razı qalanlar.
Vətənə, millətə xəyanət edən,
İblisin, şeytanın yoluyla gedən,
Əyrilər, oğrular, yalan danışan,
Taleyinin qədəriylə barışan.
Vəzifə sahibi qoltuğa girən,
Xalqının ziddinə fərmanlar verən.
Alçaqlar, yaltaqlar, ikiüzlülülər,
Tamahkar, hiyləgər, yaman gözlülər,
Bunaların hamısı böyük günahdır,
Günahın böyüyü, kiçiyi vardır.
Kiçik günahların tənəsi olmur,
Böyük günahlarsa bağışlanılmır.
Böyük günahlar heç ölçüyə gəlməz,
Bir böyük günahı yüz tövbə silməz.





***Kəndin sakinləri***
***Soldan: Qoşqar Seyraqif oğlu, Kamandar Ziyadxan oğlu, Aliyə Seyraqif qızı və Zenfira Məhəmməd qızı***

## BİR KƏNDİN NAĞILI

Dağların qoynunda balaca kənd var,
Ömür karvanını sürür insanlar.
Qədimdən salıblar burada kəndi,
Yerində qoyulub bərəsi, bəndi.
Nə sellər aparıb, nə də su yuyub,
Zaman özü kəndi əmanət qoyub.
Üstündən nə qədər qara yel əsib,
Qışın sərt ayazi, soyuğu kəsib.
Kədərə, möhnətə çox dözüb bu kənd,
Zalımın zülmündən çox bezib bu kənd.

Yenə əyilməyib vüqarlı başı,
Tarixin, zamanın olub yoldaşı.
Bu kənddə xotkarlar, bəylər olubdur,
Xalqı çox bəlaya, dərdə salıbdır.
Kəndli möhtac olub duza, çörəyə,
Tamarzı qalıbdır ətə, xörəyə.
Keçib qərinələr, dəyişib dövran,
Qurtarıb zülmətin əlindən insan.
Bu kənddə də sosializm qurulub,
Burada da abı-hava durulub.
Kəndlinin qaməti düzəlib bir az,
Şair, olanları doğru, dürüst yaz.
Pərdə çəkmə gördüyünün üstünə,
Dayanıblar kommunizmin qəsdinə.
Ölməz bir ədalətli quruluşdur,
İnsan üçün zəfərli qurtuluşdur.

İmansız, dinsiz adlanan quruluş,
Dünyaya iman da, din də gətirdi.
Hər kəsin günü ki, çox qara idi,
Səfalı bir həyat, gün də gətirdi.

Qorundu insanın mənəviyyatı,
Dəyişdi kasıbın miskin həyatı,
Silindi əlinin qabarı, çatı,
İnsanı insana tən də gətirdi.

Dəyişdi dünyanın formasiyası,
Quruldu bir başqa təməl əsası.
Duruldu dünyanın abı-havası,
Dünyanı dəyişən yön də gətirdi.

Hər kənddə, şəhərdə məktəb tikildi,
Gedişə-gəlişə yollar çəkildi.
Fəhlə də, kəndli də gəldi həvəsə,
Məktəbdə şagirdlər verdi səs-səsə.
Tədrisimiz, təhsilimiz yayıldı,
Millətimiz cəhalətdən ayıldı.
Tədris ocaqları pulsuz quruldu,
Sovet təhsilinə möhür vuruldu.
Bu kənddə inkişaf sürətlə getdi,
Zülüm də, zülmət də bununla bitdi.
Dövlət hər bir  işi yoluna qoydu,
Kasıbın qarını çörəklə doydu.
Xəstə olan müalicə edildi,
Dəvası-dərmanı pulsuz verildi.
O sistemə nəyə görə pis deyək,
Nahaqdan ölənin dalınca söyək?!
Sovet tərbiyəsi verilib bizə,
Hesabat verərdik biz özümüzə.
Pionerə, komsomola keçəndə,
Uğurlu bir həyat yolu seçəndə,
Çalışardıq hazırlıqlı gedərdik,
Özümüzü biz tərbiyə edərdik.

Həyat bizə o sistemi çox gördü,
Fələyin çərxi də geriyə döndü.
Sevinc getdi insanların üzündən,
Kədər yağdı milyonların gözündən.
Balaca kəndimiz tənəzzül etdi,
İnsanlar axışıb şəhərə getdi.

Bir buxovdan başımızı açdılar,
Azad olub, diyar-diyar dolandıq.
Üz tutub Avropaya, Asiyaya,
Hərdən bir də Amerikaya boylandıq.

Yenilməyən bir dövləti itirdik,
Sosializm epoxasın bitirdik.
Elə ki, biz kommunizmə gedirdik,
Kapitalist xülyasına allandıq.

Bu dünyada cənnəti vəd etdilər,
Başımızı bişirdilər, yedilər.
Kapitalın röyasından dedilər,
Şirin-şirin yuxulara inandıq.

Oxucum, zamanı qaytaraq dala,
Baxaq millətlərin keçdiyi yola.
İnsanlar qan tökdü, yollar axtardı,
Tarixin içində tarix yaratdı.
Bir kabus dolandı bütün dünyanı,
Axtarışda oldu o divin canı.
Hansı ki, dünyanı alıb cənginə,
Salmışdı insanı məngənəsinə.
İnsanları sümürürdü, yeyirdi,
Öz sözünü yeridirdi, deyirdi.
Bu divin əlindən qurtarmaq üçün,
İnsanlar kabusu axtardı hər gün.

İnqilabda tapıldı nicat yolu,
İnsan niyə olsun zülmətin qulu?
Zalımın zülmünə qarşı çıxmasın,
İstibdadı devirməsin, yıxmasın.
Zalımın zülmündən bezməsə insan,
Nə inqilab edər, nədə ki, üsyan.
İnsan nə qədər çox yığılsa cana,
Onda baxmayacaq tökdüyü qana.
Qalxacaq ayağa, ölsə də belə,
İstəyi azadlıq, qalmasın kölə.

İnqilabın vaxtı gəlib çatmışdı,
Məzlum ancaq zəncirini atmışdı.
O inqilab yetişmiş irin idi,
Tarixi kökləri çox dərin idi.
Zaman özü hazırladı yetirdi,
İyirminci əsirədək gətirdi.
O inqilab labüd, qaçılmaz idi,
Onun fəlsəfəsi açılmaz idi.
Açıldı dünyaya yeni yön verdi,
İstibdadı zülmətləri devirdi.
Zəfər yürüşünü o başa vurdu,
Min il arzulanan cəmiyyət qurdu.
O gələndə, düzdür qansız gəlmədi,
Mütləqiyyət çox asan devrilmədi.
Lövbərini min illərə salmışdı,
Despot bu dünyaya hakim olmuşdu.
Özü devriləndə qansız devrildi,
Yenə başqa bir kabusa çevrildi.
O dalğa yenə də bir gün coşaçaq,
Zaman-zaman sərhədləri aşacaq.

Oxucum, başqa bir mətləbə keçək,
Bu qəmli notları burda dəyişək.
İki dost yaşayıb bizim bu kənddə,
Evləri yan-yana qonşu həyətdə.
Bir yerdə yeriyib ayaq açıblar,
Çöllərə, çəmənə birgə qaçıblar.
Məktəbə gedəndə birgə gediblər,
Bir-birinin həsrətini çəkiblər.
Könüldən-könülə sıx bağlanıblar,
And içib ayrılmaz yoldaş olublar.
Birisi Alimdir, birisi Səlim,
Birisi ötkəmdir, biri mülayim.

Alim inadkardır, həm də çalışqan,
Səlim uyuşandır, həm də alışqan.
Alim dərsləri yerinə yetirib,
Səlimsə çox zaman ondan köçürüb.
Hər ikisi dərsdən əla alardı,
Burada Alimin əməyi vardı.
Alimin atası fəhlə işləyir,
Kənddə hamı ona hörmət bəsləyir.
Dan atmamış yuxusundan oyanır,
İş başında hamıdan tez dayanır.
Dəyirmanda arpa, taxıl üyüdür,
Zəhmətiylə uşaqları böyüdür.
Alim addımlayır uğurlu yolla,
Məktəbi bitirdi qızıl medalla.
Varlı ailədə böyüyüb Səlim,
Atası işləyir məktəbdə müəllim.
Səlim də məktəbi yaxşı bitirdi,
Alim onu Politexnikə gətirdi.
Eyni ixtisasa sənəd verdilər,
İmtahan zalına birgə girdilər.
Bilet çəkib yan-yana əyləşdilər,
Əqidədə, amalda birləşdilər.
Alim suallara cavab yazırdı,
Səlim gah düz yazır, gah da azırdı.
Səlim səhv edəndə Alim düzəldir,
Səlimə gizlincə göstəriş verir.
Müəllim bu halı duysa da belə,
Dostlar özlərini verməyir ələ.
Alim ona görə kömək edirdi,
Səlim də sınaqdan çıxmalı idi.
Bu dostların işləri düz gətirdi,
Hər ikisi ali məktəbə girdi.
Həyata çox böyük addım atdılar,
Arzulardan birisinə çatdılar.

Hələ çox arzular irəlidədir,
Arzular dalınca arzular gəlir.
Muradına çatmaq istəyən adam,
Həyatda cəfakeş olmalı müdam.

Cəfa çəkdik arzulara çatmadıq,
Biz elə itirə-itirə gəldik.
Boynumuzda olan çox ağır yükü,
Minnəti götürə-götürə gəldik.

Məhkum olduq, hakim ola bilmədik,
Hikkəmizdən bir araya gəlmədik.
Parçalandıq, ayrıldıq biz ölmədik,
Zamana ötürə-ötürə gəldik.

Kimliyimiz hələ qaranlıq qalıb,
Düşmənimiz dostumuzdan çox olub.
Gələn-gedən elə bizdən bac alıb,
Yar-yoxu batıra-batıra gəldik.

Gələnə, gedənə biz çox inandıq,
Düşmənə rəhm edib, halına yandıq.
Dost oldu, yad oldu möhkəm bağlandıq,
Qəflətdə yatıra-yatıra gəldik.

Qəflətdən ayıldıq, artıq gec oldu,
Qarı düşmən bizdən ayıq, bic oldu.
Çiynimizə düşən ağır güc oldu,
Arxayın otura-otura gəldik.

Yolumuz düz ikən, yol göstərdilər,
Dərsmi bilməz idik, dərs də verdilər.
Tanrıdan, imandan, dindən dedilər,
Hər elmi bitirə-bitirə gəldik.

Alimin arzusu daha böyükdür,
Səlimsə Alimin çiynində yükdür.
İstəyi çalışıb elmli olsun,
Xalqın qulluğunda müntəzir dursun.
Gündüzlər oxuyur, gecə işləyir,
Elə hey düşünür, fikir eyləyir.
Vətənin borcunu qaytarsın necə?
Bu haqda düşünmür, Səlmə gəlincə.
Deyir: – Nə var bu qədər oxumaqda?
Gününü keçir kefdə-damaqda.
İmtahan gələndə min dona girir,
Müəllimə hərdən rüşvət də verir.
Alim gömək edir çertiyojlara,
Əlini çox tutur düşəndə dara.
Hər ikisi məktəbi bitirdilər,
Alimə «Qırmızı diplom» verdilər,
Təyinat aldılar eyni zavoda,
Səlim yavaş-yavaş çevrildi yada.
Asılı deyildir daha Alimdən,
Baxmayaraq heç nə gəlmir əlindən.
Başını girləyir birtəhər işdə,
Fırıldaqdır hər addımda, yerişdə.
Müdirə, rəisə hər vaxt baş əyir,
Nə buyruq versələr, göz üstə deyir.
Onların yanında hörmət qazanır,
Xalqın arasında satqın adlanır.
İstəyəndə cildini tez dəyişir,
Yerli-yersiz insanlarla deyişir.
İstəyi rəhbərə girişə bilsin,
Vəzifə qazanıb ərsəyə gəlsin.
Yavaş-yavaş arzusuna çatırdı,
İldən-ilə vəzifəsi artırdı.

Zavodda bir  qız var, sözü kəsərli,
O, nazir qızıdır, soyu Köçərli.
Adı Qərənfildir, işvəli, nazlı,
Hamıdan şirindir, şəkərli-duzlu.
Ancaq hökmlüdür, bir az da «vülqar»,
Canında olduqca ehtirası var.
Qərənfil Səlimin ağlını almış,
Oğlanı qurduğu toruna salmış.
Bu qız da Səlimi bir az sevirdi,
Məqsədi onunla evlənmək idi.
Səlim söz götürən, sözə baxandı,
Özünü hər yerdə gözə soxandı.
Səlim Qərənfillə ailə qurdu,
O, çox qənimətli bir şikar vurdu.
Onunçün məhəbbət bir əyləncədir,
Ən ümdə məqsədi dayaq, pəncədir.
Artıq nazir kimi bir dayağı var,
Açılmış önündə işıqlı yollar.
Çox keçmədi ki, yeni əmr verildi,
Müdirə müavin təyin edildi.
Alim də doğrultdu işdə özünü,
Cəsarətlə söyləyirdi sözünü.
Hörməti çox artdı tez bir zamanda,
Ədalət var damarında, qanında.
O, işdən yorulmur, nə də ki, bezmir,
Rəhbərə baş əymir, fəhləni əzmir.
İşləyir vicdanı dediyi kimi,
O, özüdür vicdanın hakimi.
Əli də vicdanı kimi təmizdir,
Qanunlar onunçün daha əzizdir.
Alimin taleyi uğurlu oldu,
Meylini çox gözəl bir qıza saldı.

Ürəkdən bağlandı Alim bu qıza,
Camalı xoş, bənzəri var ulduza.
Elindən, yurdundan seçmişdi onu,
Bilirdi nəslinin kim olduğunu.
Dədədən, babadan bir deyim qalmış,
«Elini ürküt sən axsaqdan yapış».
Həyatın o zaman firavan keçər,
Sevgilin də səni könüldən sevər.
Uzaq dağ kəndində yaşayıb o qız,
Şəhərə gələndən olmuşdu yalqız.
Arzu Alimlə görüşəndən bərı,
Unutdu təkliyi, dərdi, kədəri.
Ürəkdən vuruldu öz eloğluna,
Səadət səpildi onun yoluna.
Hər biri axtardı bu səadəti,
Beləcə birləşdi onların bəxti.

Həsrətin bağrımı közə döndərib,
Bu uca dağları aşıb gəlmişəm.
Mən qərib olsam da sizin yerlərdə,
Demə ki, qəfildən çaşıb gəlmişəm.

Uçan durnaların izinə düşdüm,
Keçilməz çayları aşdım da keçdim.
Gözəllər içində tək səni seçdim,
Kükrəyib, çağlayıb, coşub gəlmişəm.

Xaliqdən verilib ağıl, kamalın,
Boyuna yaraşır o şux cəlalın.
Ağlımı aparıb gözəl camalın,
Hüsnünə nəğmələr qoşub gəlmişəm.

Oxu atılmamış güclü bir yayam,
Sevgidə Məcnuna, Kərəmə tayam.
Yatağına sığışmayan bir çayam,
Bəndləri, bərəni daşıb gəlmişəm.

O gündən ki, mənə buta göndərdin,
Sevdalı qəlbimi muma döndərdin.
Şah idim, xan idim taxtdan endərdin,
Soltanlıq taxtından düşüb gəlmişəm.

Sevib bir-birinə könül verdilər,
Onlar toyla-düyünlə evləndilər.
Xoşbəxt ailəyə təməl qoyuldu,
İzdivacdan gözəl övladlar oldu.

Oxucum, qayıdaq yenə zavoda,
Xeyir də var, şər də var bu dünyada.
Xeyir bu dünyanı qurub-yaradır,
Şər şeytana xidmət edir, dağıdır.
Aramızda xeyir də var, şər də var,
Xeyirlə şər birgə tutmayır qərar.
Deyirlər ki, xeyirlə şər qardaşdır,
Demirlər ki, bir-birinə yoldaşdır.
Bir atadan iki oğul törəyir,
Birisi şər olur, o biri xeyir.
Bəzən xeyir qalib gəlir, bəzən də şər,
Bundan ziyan çəkir qocaman bəşər.
Bizim zavodda da belə qüvvələr,
Bir-biriylə mübarizə edirlər.
Müdirə məlumat çatdırır Səlim:
– Əngəl olub qarşımızda bu Alim.
Nə özü pul yığır, nə imkan verir,
Bizim planların əksinə gedir.

Alimin sexindən bir manat belə,
Heç kim, heç nə yığa bilməyib hələ.
Çəpər olub önümüzü kəsibdir,
Zalım oğlu nə yorulub, bezibdir.
Çalışıram dilə-dişə gəlməyir,
İstəsə də əyri gedə bilməyir.
Bəlkə başımızdan eyləyək onu?
O zaman anlayar kim olduğunu.
Tanıyıram, dediyindən dönməyir,
Bir kimsənin qabağında enməyir.
O, tərsin biridir, həm də dikbaşdır,
Uşaqlıqdan mənimlə çox sirdaşdır.
Biz onu vursaq da məndən görməsin,
Bir dəfəlik məndən üz döndərməsin.
Müdürsə başını qaldırıb bu an,
Səlimə baxdı-baxdı dayanmadan.
Dedi: – Gözləməzdim mən səndən bunu,
Bilirik Alimin kim olduğunu.
O, sənin uşaqlıq dostun olubdur,
Büdrəyəndə arxanda çox durubdur.
Birdəfəlik əl çək o sahədən sən,
Əvəzində daha xeyir görərsən.
Bu sahədir planın çoxun verən,
Alimdir zavodda təmiz iş görən…
Dolandı həftələr, dolandı illər,
Səlimi zavoda rəhbər seçdilər.
Onun nazir kimi dayağı vardır,
Səlim taleyindən çox bəxtiyardır.
O, artıq dostları tanımır daha,
Ona otursa da bu işlər baha.
Ayrılır dostlardan özü bilərək,
Fikirləşir onlar nəyinə gərək.

Hər dostun, tanışın bir qayğısı var,
Səlimin yolunda əngəldi onlar.
Beləcə bir müddət işlədi Səlim,
Elə öz yerində döyürdü Alim.
Dünyanın gərdişi dəyişdi birdən,
Qara, şər qüvvələr axışdı göydən.
Fələyin də çərxi fırlandı dala,
Dünyanı laxlatdı böyük bir bəla.
SSRİ adlanan böyük bir dövlət,
Dağıldı, bölündü böyük səltənət.

Bizim bu kənddə də yıxıldı dünya,
Bilmədik xəyaldı, yoxsa ki, röya.
Boşaldı kəndimiz elə günbəgün,
Azaldı ellərdə həm toy, həm düyün.
Kəndli gəldi kənddən şəhərli oldu,
«Karopka» evlərdə çarəsiz qaldı.
Çoxunu qəm-kədər, nisgil öldürdü,
Neçə-neçə çıraq, ocaq söndürdü.
Neçə ailələr talesiz qaldı,
Fələk də onları kəməndə saldı.

Ay Rafael, qonaq getdim dağlara,
Qartalı, kəkliyi yerində deyil.
Biz cığır açmışdıq göy yaylaqlara,
Dağların kəməri belində deyil.

Əyilib Şindinin vüqarlı başı,
Həsrətdən göynəyib torpağı, daşı.
Bir az da kövrəlib elin yaddaşı,
Nəğməli arzular dilində deyil.

Ellər tərpədilib, yerindən qalxıb,
Köç köçün dalınca yollara çıxıb.
Kasıblar köçlərin dalınca baxıb,
Çarəsi onların əlində deyil.

Millətin çağlayan eşqi sönübdür,
Məzar daşlarının üzü dönübdür.
Ruhlar inciyibdir, göydən enibdir,
Qəbirlər od tutub sərində deyil.

Coculunun imkan yoxdur əlində,
Dərd yaşayır ürəyində, dilində.
Zalım fələk fitnəsində, felində,
Tanrının qəzəbi dərində deyil.

Kəndin faciəsi bitməyir burda,
İmkansız kasıblar qalıb bu yurdda.
Azalıb məktəbə gəlib gedənlər,
Tərk edib məktəbi əsas müəllimlər.
İbtidai, orta təhsil bağlanıb,
Məktəbin təhsili dördillik olub.
Təhsili olmayan belə bir kənddə,
İnsanlar yaşaya bilməz əlbəttə.
Bu kənddən çıxanlar dönməyir geri,
Burada görünür hər fərdin yeri.

Bir qoca yaşayır bizim bu kənddə,
Çəkdiyi ağrılar üzünə çıxıb.
Alnı qırışanda, əldən düşəndə,
Taleyin dərd yükü dizinə çıxıb.

Əsaya söykənib kəndin başında,
Özü də bilməyir kimi gözləyir.
Bu ahıl vaxtında, doxsan yaşında,
Onu kim saxlayır, kim əzizləyir?..

Kənddə alaq basmış yollara baxır,
Dərd onun içində lövbər salıbdır.
Qocanı bir nisgil yandırıb-yaxır,
O, bu daş yollarda çox qocalıbdır.

Yollardan itibdir ayaq izləri,
Kənd niyə bu bədbəxt qocaya qalıb?
Tanrıya dikilib məsum gözləri,
Bir kəndin borcunu qocadan alıb.

Tənha bir qocadır, elə bağlanıb,
Tay-tuşları kənddən uzaqlaşıblar.
Bu həsrətdən sinələri dağlanıb,
Hərəsi bir eldə məzarlaşıblar.

Görəsən bu kəndin günahı nədir,
Bəlkə günahkar pis zəmanədir?
Zaman dayanmadan gedir irəli,
Məkanı dəyişir insan əməli.
İnsandır hökmdar, həm də qul olan,
İnsandır hər hökmə bir möhür vuran.
Bəs nədir insanı günahkar edən,
Həyatı məhv edən, fərmanlar verən?
Tanrı yaradanda bu insanları,
Bir olmadı dinləri, imanları.
Hər fərdin özünün məsləki oldu,
Bəşər təriqətlə, din ilə doldu.
Tanrı insanlara verəndə canı,
Vermədi məhv etsin gözəl dünyanı.
İnsanlar nə üçün fərqli yarandı,
Kimi dağıdandı, kimi qurandı.
Bəlkə Tanrı qəsdən belə edibdir,
Bəşər tarixinə cəza veribdir.
Sual qarşısında dolaşır insan,
Dünyanı anlamaz məntiq olmadan.

Dünya insanları saldı qovğaya,
Möhnətin yükünü çəkə bilmədik.
Bir dünyamız vardı, uçurduq onu,
Nə qədər əlləşdik, tikə bilmədik.

Bağımız laləli, ləçəkli idi,
Hər yanı yamyaşıl, çiçəkli idi.
Gülləri rəngbərəng, bəzəkli idi,
Məhv etdik onları, əkə bilmədik.

Pay umduq, əl açdıq pay verənlərə,
Aldandıq arxadan toy verənlərə,
Söykənə bilmədik hay verənlərə,
Düşdü alnımıza ləkə, bilmədik.

Dünyanın yarısı dizüstə çökdü,
Bir alçaq xallının felinə keçdi,
O biri yarısı çilovu çəkdi,
Dartıldı boynumuz, bükə bilmədik.

Düşmənlər arxadan vurdular bizi,
Xainlər, iblislər qırdılar bizi,
Saldılar tələyə yordular bizi,
Oturmaq istədik, çökə bilmədik.

Üstümüzə yeridilər, basıldıq,
Düşünürük uduzmadıq, satıldıq.
Özümüz öz kəndirmizdən asıldıq,
Düşmənin qanını tökə bilmədik.

Bizim zavod tamamilə dağıldı,
Hərraca qoyulub ucuz satıldı.
İnsanlar zavoddan axışıb getdi,
Zavodun tarixi bununla bitdi.

Fəhlələr üz tutdu dükan-bazara,
Heç nədən insanlar düşdü azara.
Hər yanda yarandı qul bazarları,
Bağlandı kasıbın qazanc yolları.
Alim işsiz qalıb var-gəl edirdi,
«Hambal bazarı»na o da gedirdi.
Səlimsə əksinə bir az ucaldı,
Nazirlikdə şöbə rəisi oldu.
Bir kəndin nağılı sona çatmayıb,
Zaman kəndimizi tam dağıtmayıb.
Hələ də orada həyat yaşayır,
Yeni bir epoxa, dövran başlayır.
Heç kəs bilmir necə olacaq sonu,
Pozulub dünyanın mizan qanunu.



## HAQQA DOĞRU

Haqqa çatmaq istəyirik,
Haqq atlıdır, biz piyada.
Haqqı üzmək istəyənlər,
Haqq üzülməz bu dünyada.

Haqq tanrının dərgahında,
Bir aqilin canındadır.
Haqq insanın pak nəfsində,
Bir də təmiz qanındadır.

İnsan oğlu haqqı boğur,
Haqq incəlir, qırılmayır.
Çirkab suya qarışanda
Təmiz balda durulmayır.

Xeyirlə şər qardaş olub,
Haqla nahaqq qarışıbdır.
Kim deyir bu əqidələr,
Bir-biriylə barışıbdır.

Fərd olaraq insanların,
Azadlığı alınıbdır.
Şər qüvvənin zəncirinə,
Kəməndinə salınıbdır.

Azad vətən, azad insan,
Yaşadırıq xəyallarda.
Azad vətən söyləyirik,
Çərçivədə, dar ayaqda.

Dünya dönüb haqq yolundan,
Ədaləti pozulubdur.
Bu dünyanın tablosuna
Kamil, cahil yazılıbdır.

Güc cahilin qolundadır,
Kamilinsə beynindədir.
Var – cahilin malındadır,
Kamilinsə əynindədir.

Haqqı danan, haqqı qanan,
Bir yol ilə gedə bilməz.
Haqq Hürmüzün sovqatıdır,
Bir nadana o verilməz.

Əhrimənə qulluq edir,
Haqq yolunu getməyənlər.
Həqiqəti başa düşməz,
Ağrı-acı çəkməyənlər.

Azad insan, azad Vətən,
Bu röyadır, bir nağıldır.
Cəmiyyəti dərk eyləyən,
Bir şüurdur, bir ağıldır.

Haqq, ədalət qalib gəlsə,
Dünya abad olacaqdır.
İnsan oğlu azadlığı,
Kamilləşib alacaqdır.

Kamilləşmə uzun sürüb,
Min il davam edəcəkdir.
Biz görməsək bu tarixi,
Gənc nəslimiz görəcəkdir.

## BİR KASIBIN DÜNYASI

Neftimizdən gəlsə gəlir,
Ölkəmiz ağ günə çıxar.
Düşmənin deşib gözünü,
Qəlbini yandırıb-yaxar.

Sərvətimiz boldur bizim,
Ümidləri qırmasalar.
Gələcəyə söz verənlər,
Bizə tələ qurmasalar.

Bizim vətən, bizim diyar,
Gözəl məkanda yerləşir.
Doqquz iqlim qurşağı da,
Azərbaycanda birləşir.

Tarlaların məhsulu bol,
Hər meyvədən dad alırıq,
Ağ qızılın hesabı yox,
İldən-ilə ucalırıq.

Buruqları, mədənləri
Var ölkəmin hər yerində,
Qara qızıl fantan vurur,
Dənizində, çöllərində.

Bu torpağın hər qarışı
Min adda nemət bitirir,
Bu torpağın hər addımı
Dövlətə gəlir gətirir.

Millətin baş bilənləri
Döz deyirlər, biz dözürük.
Səbrimizin hüdudu çox,
Gözlə deyir, gözləyirik.

Deyirlər ki, yaxın vaxtda
Dövlət tərəqqi edəcək,
Hər kasıbın hesabına
Lazımı donluq verəcək.

Dərddən əriyirdi bir kasıb kişi,
Ah-nalə çəkməkdi yazığın işi.
Haraya əl atır, yaxşı iş tapmır,
Tapsa da külfətin nəfinə çatmır.
Səhərdən axşama hər gün çalışır,
Dərd-möhnətə, qara günə alışır.
Bəxtindən şikayət etməyir kasıb,
Neyləsin, ömrünü dərd yükü basıb.
Kasıbın yoxsa da küməsi-taxtı,
Oğuldan-uşaqdan gətirir baxtı.
Deyirlər kasıbın səpdiyi bitməz,
Əkdiyi heç zaman boşuna getməz.
Tanrı yağış kimi tökər başından,
Ayırmaz kasıbı taydan-tuşundan.
Bu kasıb əlini açıb göylərə,
Tanrıya yalvarır gündə min kərə.
Deyir: – Ulu Tanrım, salmısan dara,
Düşmüşəm piyada çətin yollara.
Elə hey gedirəm bitməyir yolum,
Dolandırmır bizi qazancım, pulum.
Mənə də bəlkə bir qapı açasan,
Qaranlıq yoluma işıq saçasan.
Mən də taleyimdən razı olaram,
O uca adına namaz qılaram.
Vaxt tapa bilmirəm namaz qılmağa,
Sənin dərgahında mən qul olmağa.
Elə çalışıram, hey işləyirəm,
Yenə də adına şükr eləyirəm.
Kəsilib taqətim, tükənib halım,
Artmayıb, azalıb dövlətim, malım.

Adam var malının sayı bilinməz,
Saysa da miqdarı hesaba gəlməz.
Bir az da bizə ver qarnımız doysun,
Demirəm ki, mülküm, malım çox olsun.
Tanrısı kasıbın səsini duydu,
Bu işi həll edib yoluna qoydu.
Dərgahından yerə mələk endirdi,
O, kasıbın hüzuruna göndərdi.
Müdrik bir qocaya çevrildi mələk,
Doğrusu kasıba gəlmədi kələk.
Dedi ki, çalışdın, sən çox işlədin,
Tanrıdan həmişə ruzi dilədin.
İndi çox diqqətlə qulaq as mənə,
Qiymətli məsləhət verəcəm sənə.
Bir neçə gün uzun yol gedəcəksən,
Böyük bir dəryaya rast gələcəksən.
Bir nərə balığı köməyin olar,
Yelkənli qayıq tək sırtına alar.
Keçirər dəryadan o biri taya,
Orda rast gələrsən böyük saraya.
Sarayda oturub ulu Peyğəmbər,
Odur hər zamana, məkana rəhbər.
Hamını orada qəbul eyləyir,
Hər gəlib-gedənə ruzi, bəxt verir.
Kasıb xurcununu alıb dalına,
Səfərə başlayıb çıxdı yoluna.
Dərələr, təpələr, dağları keçdi,
Yolda bir ayıyla üz-üzə gəldi.
Ayı qalxıb kəsdi onun yolunu,
Dilə-dişə tutdu insan oğlunu.
Haradan gəlirsən, hara gedirsən,
Qorxulu yollarda var-gəl edirsən?
Kasıb dedi: – Peyğəmbəri görməyə,
Dərdlərimi açıb ona deməyə.

Ayı söylədi ki, ey bəni-insan,
Görürəm doğurdan yaxşı adamsan.
Mənim də dərdim var, de Peyğəmbərə,
Bəlkə də dərdimə eylədi çarə.
Görürsən tüklərim tökülür mənim,
Soyuqdan vücudum sökülür mənim.
Bu dərdimin çarəsini tapmıram,
Qış düşəndə gecə-gündüz yatmıram.
Kasıb dedi: – Dərdini mən deyərəm,
Peyğəmbərə aşikar söyləyərəm.
Yenə də yoluna davam eylədi,
Gülüstana bənzər bir bağa gəldi.
Gördü ki, bağbanı dərd götürübdür,
Yamanca xəyala, fikrə gedibdir.
Kasıb xurcununu çiynindən alıb,
Bu dərdli bağbana bir nəzər salıb,
Soruşdu bağbandan: – Niyə qəmlisən,
Sən də mənim kimi dərdmi yemisən?
Bağban da söylədi: – Doğru deyirsən,
Sən haradan gəlib, hara gedirsən?
Kasıb dedi: – Peyğəmbəri görməyə,
Dərdlərimi açıb ona deməyə.
Bağban da söylədi: – Ey gözəl insan,
Görürəm doğrudan yaxşı adamsan.
Mənim də dərdim var, de Peyğəmbərə,
Bəlkə də dərdimə söylədi çarə.
Görürsən bostanı, bağı-bağçanı,
Lalələr gül açıb, xoşdur hər yanı.
Elə ki, bar vaxtı gəlib yetişir,
Meyvələr dəyməyib, kal yerə düşür.
Kasıb dedi: – Dərdini mən deyərəm,
Peyğəmbərə aşikar söyləyərəm.
Kasıb xurcununu çiyninə atdı,
Uzun yol gedərək, dəryaya çatdı.

Qocanın sözləri düşdü yadına,
Bu vaxt balıq yetişdi imdadına.
Balıq da söylədi ey bəni-insan,
Nədəndir bu qədər sən yollardasan?
Mənim də dərdim var, de Peyğəmbərə,
Bəlkə də dərdimə söylədi çarə.
Yediyim neməti dada bilmirəm,
Tutduğum şikarı uda bilmirəm.
Balıq bu kasıbı alıb dalına,
Keçirdi dəryanın sol kənarına.
Ucalıb burada böyük bir saray,
Sarayın içində səs-səmir, haray.
Vəzirlər, vəkillər yerində durub,
Cəlladlar düzülüb istehkam qurub.
Qəbula yazılır bura gələnlər,
Sevinir, ağlayır burdan gedənlər.
Kasıb da qəbula durdu yazıldı,
Qəbulun vaxtısa çox uzadıldı.
Fərraşlar, əyyanlar biganə oldu,
Kasıb qapılarda aylarla qaldı.
Elə ki, canından bezib doyunca,
Gəldi köməyinə o müdrik qoca.
Peyğəmbər kasıbı qəbul eylədi,
Niyə gəldiyini bir söylə dedi.
Kasıb bilmədi ki, hardan başlasın,
Fikrini hansı səmtə tuşlasın.
Dedi: – Ey millətin başının tacı,
Səndədir dərdimin axır əlacı.
Səhərdən axşama çox işləyirəm,
Külfətimi dolandıra bilməyirəm.
Ruzimi ver, ayağına gəlmişəm,
Mən səni ruhumla, qəlbən sevmişəm.
Peyğəmbər kasıbı dinlədi bir az,
Söylədi mən sənə verərəm muraz.

Dedi arxamca gəl, mən getsəm hara,
Görürəm düşmüsən çətin yollara.
Onlar arxadakı otağa girdi,
Peyğəmbər kasıbı qabağa verdi.
Üç deşik göstərib dedi yaxşı bax,
Üçündən də un tökülür, ay axmaq.
Bax, bu böyük deşik varlılarındı,
Ondan kiçiyi ortabablarındı.
Balaca deşiyi vermişəm sizə,
Əl açıb yalvarıb, çökəsiz dizə.
Kasıb diz çökərək yalvardı birdən,
Öpdü-öpdü Peyğəmbərin əlindən.
Vermək lazımdırsa bizə də muraz,
Bizim də deşiyi  böyütsən bir az.
Peyğəmbər söylədi rahat gedərsən,
Sizin də deşiyi böyüdərəm mən.
Sevincdən kasıbın yaşardı gözü,
Bağlandı burada söhbəti-sözü.
Baş əyib saraydan çox razı çıxdı,
Dönüb bu saraya fərəhlə baxdı.
İndi obasına qayıda bilər,
Kasıblıq daşını atıb, yüksələr.
O, yenə də gəlib çatdı dəryaya,
Sanırdı yetişib gözəl sevdaya.
Balıq gözləyirdi burada onu,
Dindirdi, söylətdi insan oğlunu.
Mənim də dərdimə çarə dedimi,
Barı sənə bir məsləht verdimi?
Peyğəmbər əfəndi balıq haqqında,
Söyləmişdi ləl var dilinin altında.
Ağzındakı ləli çıxarıb atar,
Onda istədiyi arzuya çatar.
Balıq tez ağzından ləli çıxartdı,
Tullayıb torpağın üstünə atdı.

Dedi, bəni-insan qismətin sənin,
Qiyməti lap çoxdur bu almazləlin.
Bu ləli götürsən gərəyin olar,
Yetərincə sənə var-dövlət alar.
Kasıb dedi, ləl nəyimə gərəkdir?
Peyğəmbərin özü mənə köməkdir.
Çünki böyüdübdür bizim deşiyi,
Rahat dolandırram evi-eşiyi.
Balıq bu kasıbı alıb dalına,
Keçirdi dəryanın sağ kənarına.
Gəldiyi yollarla geri qayıtdı,
O, bağban yaşayn məkana çatdı.
Kasıbı görüncə sevindi bağban,
Soruşdu, nə xəbər bizim bu bağdan?
Bağın girəcəyi gözə alınıb,
Oraya küplərlə qızıl salınıb.
Küpləri oradan çıxarsan əgər,
Bağın da bolluca bar-bəhər verər.
Birləşib birlikdə qazdılar yeri,
Tapdılar qızılla dolu küpləri.
Bağban dedi, düz yarısı sənindir,
Mənim deyil bu sənin qismətindir.
Kasıb dedi, qızıl nəyə gərəkdir,
Peyğəmbərəin özü mənə köməkdir.
Çünki böyüdübdür bizim deşiyi,
Rahat dolandırram evi-eşiyi.
O, qalxıb yoluna davam eylədi,
Yenə də ayıya yolda rast gəldi.
Ayı dedi, nigarandım gedəndən,
De görüm, bir xəbər gətirdin məndən?
Kasıb dedi, sənə də çarə buldu,
Dərdinin dərmanı bir nadan quldu.
Nadanın başını sən yesən əgər,
Nə ölərsən, nədə ki, tükün tökülər.

Ayı dedi, ağılı verir xuda,
Səndən də nadanı varmı dünyada?
Nə qızıl götürdün, nədə ki, ləli,
Fəth edir ağılı insan əməli.
Hansı insan ağılına inanır?
Qisməti, ruzini özü qazanır.
Peyğəmbər söz verdi sən ağılsıza,
Eşşək də ölməsə çıxacaq yaza.
O, ruzi verirdi, sən götürmədin,
Deşik-deşik deyib çox əzbərlədin.
Peyğəmbər insaflı, həm rəhimlidir,
İnsanlarsa ruzi verən deyildir.
Bədbəxt bir məxluqsuz, aldanıb sözə,
Cəm ola bilməyib durursuz üzə.
Söz verib deyirlər çox yaxşı olar,
Yaz gələr anbarlar yoncayla dolar.
Tanrı yaratsa da, hökm edir insan,
Hər insanda olmur ədalət, vicdan.
İnsan əyilməyib tələbkar olsun,
İnqilab eyləyib haqqını alsın.
Mədəni inqilab haqq verir sizə,
Siz də var yığasız öz büdcənizə.
Nə qədər baş əyib tabe olsanız,
Zalımın zülmündən razı qalsanız,
Bir o qədər də avam qalacaqsız,
Çoxunuz bizlərə yem olacaqsız.
İndi də incimə, yeyəcəm səni,
Sənin avam başın qurtarsın məni.
Kasıb diz çökərək yalvardı-yaxdı,
Ölü görkəmində ayıya baxdı.
Bir məni yeməklə dünya düzəlməz,
Həyatın balansı nizama gəlməz.
Nadan adamları çox görəcəksən,
Min dənə ağılsız baş yeyəcəksən.

## PADŞAHIN KİÇİK SƏFƏRİ

Bir dəfə padşah çıxır gəzməyə el-obanı,
İstəyir özü görsün həm aqili, nadanı.
O, bilmək istəyir ki, rəiyyət dolanırmı,
İnsanlar valilərdən düşən haqqı alırmı?!
Onun qoyduğu qanun işləyirmi məkanda,
Günah varsa kimdədi zalımda, ya dövranda?
Zalımların zülmünü üzə çıxaran varmı,
Darğaların əlindən yaxa qurtaran varmı?
Haqq-ədalət yeriyir, yoxsa boğulub qalır,
Kim-kimə kələk gəlir, kim-kimdən rüşvət alır?
Müəllimin, loğmanın işi yerindədirmi,
Gözləri millətinin açıq əlindədirmi?
Kəndxuda kəndi çapır, yoxsa kəndə dayaqdır,
Keşikçi keşikdə yatır, yoxsa oyaqdır?
Səfillər, dilənçilər tutubdurmu yolları,
Belində gəzdirirmi qaraçılar şalları?
Bazarın, dükanların taciri, baqqalları,
Çəkidə aldadırmı sadəlöhv insanları?
Məmurun əllərinə bir işgüzar düşəndə,
Bir işi tamamlayıb birinə girişəndə,
Məmur əngəlmi olur, yolmu göstərir ona?
Cildini dəyişdirib girirmi minbir dona,
Hakimlər ədaləti bərpa edə bilirmi,
Hökmü qərəzli olsa heç insafa gəlirmi?
Padşah ayaq saxlayır bir dükanın önündə,
Sahibi oturubdur qorxaq, fağır günündə.
Əmr eyləyir, sahibi hüzuruma gətirin,
Dərdinin çarəsini buradaca bitirin!
Padşaha ərz eyləyir, sahib olan dərdini,
Bildirir içindəki qəmini, kədərini.

Mən hər ayın sonunda idarəyə gedirəm,
Vergilərdən əlavə bir az rüşvət verirəm.
Mən hər ay görməliyəm fərraşı, minbaşını,
Darğanın insafı yox, qoçunu, onbaşını.
Padşah başa düşdü ki, deyən qəflətdə yatıb,
Çox ağır fərmanların zamanı gəlib çatıb.



## SÜLEYMAN VƏ SAZ

Söhbət açaq Süleymanın vaxtından,
Sərvətindən, dövlətindən taxtından.
Öz vaxtında fironluq eyləyibdir,
Fələkdən bac alıb, kələk deyibdir.
Sərvəti, ziynəti olduqca çoxmuş,
Dövlətin sərhəddi, hüdudu yoxmuş.
Gündoğandan günbatana hökm edib,
Döyüşlərdə məğlubiyyət bilməyib.
Acgözlük mərəzi tutubdur onu,
Yuxusu olmayıb illər uzunu.
Loğmanlar, cindarlar yığışıb gəlib,
Dərdinə bir əlac tapa bilməyib.
Carçılar car çəkir böyük Babilə,
Bir əlac eyləyən keçməyir elə.
Kim tapsa həzrətin dərdinə çarə,
Çatacaq sərvətə, dövlətə, vara.
Həzrətə ürəyi daha çox yanan,
Qayğısını çəkən, qeydinə qalan,
Cinlər padşahının bir qızı idi,
Adına da Bəhimsağı deyirdi.
Bəhimsağı bilici, cindar olub,
Çünki, kor şeytandan dərsini alıb.
O, da Süleymana çarə tapmadı,
Dəva-dərman, möcüzə yaratmadı.
Atasının dərgahına üz tutdu,
Bir illik mənzili bir ana çatdı.
Qızın gəlişinə ata sevindi,
Cineyi-cənnətə xoş gəldin dedi,
– Gəlişin xoş qızım! Məramın nədi?
– Günüm xoş, məramım müşkül, söylədi,

Ateyi-mehriban! Ərim xəstədi,
Heç yata bilməyir, tapılmır dərdi.
Kor şeytan bu zaman qımışdı, güldü,
Həzrətin dərdinə çarə də buldu.
Kor şeytan mətləbi açıb danışdı,
– Cineyi-cənnətim! Çox müşkül işdi.
Qaf dağında məxluqatlar yurd salıb,
Sayları Bozqurdun soyundan olub.
O, soyda Ozan var. Uğur Dədədir,
Sağalmaz dərdlərə çarə edəndir.
Onun bir sazı var, çox sehirlidir,
Laylası xəstənin ruhuna girir.
Uğur Dədə nayladıqca sazını,
Huşsuz edir, insan bilmir özünü.
Onun sazı qurdu, quşu uyudur,
Əjdahanı, qızmış kəli soyudur.
Orada əcinnə, nə cin, şeytan var,
O, sazın sehrindən uyumuş onlar.
Yurdun ağbirçəyi, ağsaqqalları,
Ədalətə səsləyir insanları.
Bir kimsə kimsədən asılı deyil,
Nə zalım var orada, nədə ki, zəlil.
Ortaqdır hamının dövləti-varı,
Birdir insanların məslək yolları.
Uğursuz keçinməz toy-düyünləri,
Şadlıqda, bayramda keçir günləri.
Ey cineyi-cənnət! Qafa gedərsən,
Sən, Uğur Dədədən rica edərsən.
Onun sazındadır həzrətin dərdi,
Dədəsiz çarələr boşdu, hədərdi.
Bəhimsağı geydi şeytan donunu,
O, mənzil eylədi Qafın yolunu.

Yolun damarını bir günə qırdı,
Səhərə özünü Qafa yetirdı.
Yenə də geyindi qız libasını,
Dolandı Dədənin el-obasını.
Dilə tutdu hər gələni, gedəni,
Axır toyda tapdı Uğur Dədəni.
Bəhimsağı yalvarmağa başladı,
Yanağını göz yaşıyla yaşladı.
Məramını mətləbini bildirdi,
Nəyə gəldiyinə işarə verdi.
O, imdad dilədi Uğur Dədədən,
Dedi ki, Babilə bəlkə gedəsən?
Ərimin dərdinə çarə səndədir,
Süleyman şah gecə-gündüz qəmdədir.
Yurddaş əhli izin verdi Dədəyə,
Bərxanayla mindirdilər dəvəyə.
Canlarına min bir cəfa qatdılar,
Süleymanın dərgahına çatdılar.
Süleyman Uğuru qəbul eylədi,
Dərdimin çarəsi səndəmi? – dedi.
Uğur Dədə çuxasından sazını,
Çıxardıb köklədi «uy» havasını.
Dədə sazı nayladı nə nayladı,
Süleymanı tutdu sazın fəryadı.
Yuxu dəmi həzrətə gəldi çatdı,
O yatan düz qırx gün, qırx gecə yatdı.
Dədə sazı oyan üstə köklədi,
Süleymanın durmasını bəklədi.
Elə ki, Süleyman özünə gəldi,
Loğmanı hüzura gətirin, dedi.
Söylə görüm, bu çömçənin sirrini,
Düz deməsən soyduracam dərini.

Hansı millət yaradıbdır bu sazı?
İnsanları məst eyləyir avazı.
Türkdən başqa kim düzəltsə bu sazı,
İnsanları məst edərmi avazı?!
Uğur Dədə gördü işi kələkdi,
Onu tora salan qansız fələkdi.
Yum üstündə yenə sazı nayladı,
Bütün Babil əhlinə harayladı.
Babil əhli yavaş-yavaş uyudu,
Bəni-insan, şeytan işi buyuydu!



# VERMƏRƏM

Şərəfdən, hünərdən danışan dostum,
Hərbəni-zorbanı dilə verməyəm.
Sənin tək hamının nökəri olub,
Vəfalı dostları ələ verməyəm.

Baş əysən, əyilər boynunun çatı,
İtaət edənin kölədir zatı,
Azad yaşadığım bircə saatı,
Sənin qul olduğun ilə verməyəm.

Mərd qəbul eyləməz nadan əmrini,
Mərd yaşayır, yaşadığı dövrünü.
Qanqalın, tikanın uzun ömrünü,
Çox qısa yaşayan gülə verməyəm.

Namərdə yön versəm, arxadan vurar,
Vəfasız əhdini, ilqarı danar,
İgidlər, ərənlər arxamda durar,
Qorxağı, alçağı elə verməyəm.

Bir insan olarsa nəfsinin qulu,
Nə qədər çoxalsa dövləti, pulu.
Özünün yoxsa da məsləki, yolu,
Beynimi mən ona kölə verməyəm.

Coculuyam, həqiqət var sözümdə,
Dünya var-dövləti yoxdu gözümdə.
Anadan olalı təpər dizimdə,
Haqqı, ədaləti yelə verməyəm.

## BURA VƏTƏNDİR

Ey Ana Vətənim, dara düşmüşük,
Sinəndə od yanır, qora düşmüşük,
Bilirikmi görən hara düşmüşük,
Bilirik, bilmirik bura Vətəndir?!

Xainlər, iblislər ayaq açıblar,
Qorxaqlar vətəni qoyub qaçıblar,
Mərdimizi diri-diri asıblar,
Ölürük, ölmürük bura Vətəndir?!

Yalvarmaqla donuz çıxmaz darıdan,
Ağlamaqla kimdi bizi yarıdan?!
Yarıdıqmı qəhrəmanlıq sarıdan,
Görürük, görmürük bura Vətəndir?!

İblis kimi ara vurub qatanı,
Şöhrət üçün mətləbinə çatanı,
Dar ayaqda vətənini satanı
Sevirik, sevmirik bura Vətəndir?!

Bu dünyanın gərdişini bilməsək,
Qəlbimizdən kinimizi silməsək,
Uduzarıq bir araya gəlməsək,
Gəlirik, gəlmirik bura Vətəndir?!

Qoruya bilmədik, verdik Vətəni,
Hardan alaq Qorqud təki dədəni?
Alnımıza düşən qara ləkəni,
Silirik, silmirik bura Vətəndir?!

Qarabağın dərdi özü boydadı,
Günahı bizdədi, yoxsa soydadı?
Hesabat verməmək bizdə qaydadı,
Veririk, vermirik bura Vətəndir?!

## DƏLİ KÖNÜL, NƏ DİVANƏ GƏZİRSƏN

Dəli könül, nə divanə gəzirsən?
Dərdinin çarəsi çöllərdədirmi?
Bülbülün naləsi fəğan eyləyir,
Dəvası-dərmanı güllərdədirmi?

Bənövşənin boynu bükülü qalıb,
Nərgizin gül rəngi vaxtsız saralıb,
Ruzigar ağarıb, gah da qaralıb,
Səbəbi sərt əsən yellərdədirmi?

Sanmayın məhəbbət divanəsiyəm,
Xalqımın azadlıq pərvanəsiyəm,
Millətlər içində millət səsiyəm,
Adımız, sanımız dillərdədirmi?

Boynumuz bükülüb bənövşə kimi,
Bizik bu torpağın sadiq sakini,
Kimdi fərman verən, kimdi hakimi,
Möhürü xarici əllərdədirmi?

Diyar-diyar hərə getdi bir yana,
Tanrımız zəmanət vermədi cana.
Fələkdə giribdi gündə min dona,
Xalqımın sorağı ellərdədirmi?

Sellər kimi çağlamasaq, coşmasaq,
Yatağına sığışmayıb daşmasaq,
Bərəni, bəndləri yıxıb aşmasaq,
Qurtuluş əlacı sellərdədirmi?

Kim haqlıdı, kim haqsızdı dünyada,
Kim günahlı, günahsızdı dünyada,
Kim qərarlı, qərarsızdı dünyada,
Millətin pənahı öndərdədirmi?!

## QOCA ŞƏRQİN FACİƏSİ

Dünyanın gözləri önündə Səddam,
Asıldı qurulan dar ağacından.
Səddamı asanlar anlamadılar,
Özləri tarixdə cəllad oldular.
Babək şaqqalandı, al qanı axdı,
Ölümün gözünə mərdanə baxdı.
Səddam da vüqarla çıxdı kürsüyə,
O, fikir vermədi nə haya, küyə.
Qürurla söylədi axır sözünü,
Asdılar, yummadı məğrur gözünü.
Onu asanlar da dəhşətə gəldi,
Səddamın qaməti dim-dik düzəldi.
Son sözü – Vətəni qoruyun! – dedi,
Şeytanlar, iblislər içimizdədi.
Daxildən qırdılar iradəmizi,
Nadan, qul yerinə qoydular bizi.
Qardaşlar qardaşa qarşı gəldilər,
Bir-birini parçalayıb diddilər.

Asdılar Səddamı bir bayram günü,
Qırmaq üçün Qoca Şərqin gözünü.
Qoca Şərqim, indi səni əzirlər,
Sinən üstə yaraları düzürlər.
Keçmişinə ölkələr baş əyərdi,
Şahlar, xanlar qılıncla söz deyərdi.
Sən Qərbin əlində oyuncaq oldun,
Didəşərək öz qanında boğuldun.
Sənsən enerjinin doğal qaynağı,
Sinəndə yoxlanır silah sınağı.
Verdiyin enerji oda çevrilir,
Raketə qoyulub üstünə gəlir.
Çünki məqbul deyil elmin, savadın,
Elmin arxasında dayaq olmadın.
Sən dinlərə, təriqətə bölündün,
Qərbin qarşısında aciz göründün.
Sünnü-şiyə nədir, qardaş qırğını?
Qardaşlar-qardaşın sökür bağrını.
İran, Türkiyə, Ərəb, Suriya, Misir,
Düşmən kimi bir-birini asır-kəsir.
Qərbin caynağına niyə keçmisən?
Çünki elmdə sən çox geri getmisən.
Sən keçmişdə yaydın mədəniyyəti,
Heyran qoydun elminlə bəşəriyyəti.
Qoca Şərqim, indi nə oldu sənə?
Qərbin orduları gəlir üstünə.
Sən qalx! Ey Şərqim, qalx! Elmini artır!
Elmi olmayanın gəmisi batır!..

Səddamı asırlar, Buş isə yatır,
Narahat etməyin, deyirlər Buşu.
Qoca Şərq ağlayır, matəmə batır,
Enir sinəsinə Səddamın başı.

Səddama diktator, despot dedilər,
Buşun əlləriylə edam edildi.
Bu bir dərsdir, Qoca Şərqə verdilər,
Bizim dünyamıza nadan deyildi.

Səddamı Şərq özü niyə asmadı?
Çünki Şərq hələ də cəhalətdədir.
Onu öz taxtından yıxan olmadı,
Despot bir dünyadır, səfalətdədir.

Şərqin hakimləri ömürlük olur,
Bütün bəlalar da elə bundadır!
Dövləti bir insan əlinə alır,
Ancaq inkişafsa qanunlardadır.

Qanunlar Şərq üçün yazılmayıbdır,
İşləmir qanunlar, işləmir Şərqdə.
Hələ kültürümüz yayılmayıbdır,
Məcburuq axtaraq nicatı Qərbdə.

## PAXILLIQ MƏRƏZİ

Bizim öz canımızda bir mərəz var bilinməz,
Yeriyib canımıza, canımızdan silinməz.
Hər millətin canında bir mərəz yerləşibdir,
İstər xeyirdə-şərdə ruhuna birləşibdir.
Paxıllıq mərəzidir giribdir canımıza,
Zamanla tiryək kimi keçibdir qanımıza.
Görəsən bu xəstəlik niyə tutub bizləri,
Nədən bizə kəc baxıb fələyin çəp gözləri?!
Qarnımız tox olsa da, gözümüz doymayıbdır,
Qonşuya sevinməyə paxıllıq qoymayıbdır.
Quyuya düşənlərin kəndirini kəsirik,
Nəticə çıxarmadan qərarda tələsirik.
Paxıllıq içimizi qurd kimi oyur, yeyir,
Paxıllar nə edirsə, özlərinə eyləyir.
Qardaşın da qardaşına paxıllığı tutubdur,
Dost-dostu dar ayaqda bir loxmaya satıbdır.
Paxıllıq canımızdan çıxan vaxt olacaqmı,
Bu millət bir-birinin qeydinə qalacaqmı,
Yenə deyəcəyikmi, qalma dala qonşudan?!
Niyə də götürməyək yaxşı əməl yaxşıdan.
Qonşu imkanlı olsa, qonşusuna əl tutar,
Qonşu paxıl olmasa, qonşular rahat yatar.
Bu şeytan içimizdə çox möhkəm oturubdur,
Bizi ram etmək üçün tələsini qurubdur.
Cəhalətdən bu günə artıq bir iz qalmayıb,
Varlığımız qocalıb, təfəkkür qocalmayıb.
Ağlın polad simləri sürətlə rəqs eyləyir,
Açılmayan sirləri ağıl açır söyləyir.
Kasıblıq, acgözlükdür paxıllığın mərəzi,
Nədir Ulu Tanrının bizə qarşı qərəzi?

## BU YOL HARA GEDİR GÖRƏN

Bəla gəldi elimizə,
Yük vurdular belimizə.
Yol verdilər əlimizə,
Bu yol hara gedir görən?!

Yol uzundur, dalanı çox,
Kələ-kötür olanı çox,
İlişəni, qalanı çox,
Bu yol hara gedir görən?!

Bağlanıbdır əl-qolumuz,
Həm sağımız, həm solumuz,
Niyə yoxdur öz yolumuz,
Bu yol hara gedir görən?!

Şübhədəyik, biləmmirik,
Bir qərara gələmmirik,
Yolumuzu görəmmirik,
Bu yol hara gedir görən?!

Yolumuz var çəkəni yox,
Əngəlləri sökəni yox,
Hamarlayıb tikəni yox,
Bu yol hara gedir görən?!

Öz yolumuz daş-qayalı,
Gedən-gələn baş bəlalı,
Özümüz yolsuz qalalı,
Bu yol hara gedir görən?!

## HACI OLMAQ

Mən anadan olanda bəxtəvər doğulmuşam,
Sən demə bəxtəvərlər bəxtəvəri olmuşam.
Mənim nənəm adımı bilmədən Hacı qoyub,
Hacı – Gözəl nənəmin müdrik dədəsi olub.
Bu ad məni çox sıxıb, çox bəlaya salıbdı,
Uşaqlıqdan adım da Hacıqara qalıbdı.
Tay-tuşum sataşanda səbəbini bilmirdim,
Bu adın altında mən ipə-sapa gəlmirdim.
Böyüyüb başa çatdım, sataşanlar azaldı,
Bütün sənədlərimə adım Hacı yazıldı.
Dövran birdən dəyişib elə bir zaman gəldi,
Hacı sözü müqəddəs adamlara deyildi.
İnsanlar alay-alay ziyarətə gedirdi,
Qayıdıb gələnlərə millət Hacı deyirdi.
Mənsə Həccə getməmiş hazırca Hacı idim,
Nə vaxt Hacı olmuşam, mən özüm də bilmədim.
Düzü insanlar mənə Hacı-Hacı deyirdi,
Həccə getməyimi bir kimsə bilməyirdi.
Maraqlanan yoxuydu əsləm, ya saxtaym,
Özüm də şübhədəydim, haqdayam, nahaqdaym?
Mənə hörmət edənlər çoxalırdı günbəgün,
Açılırdı qarşımda bağlanan hər bir düyün.
Şübhələri azaldıb özümə Hacı dedim,
Vicdanım boğulanda qərarımı dəyişdim.
Məkkənin yolu açıq, niyə Hacı olmayım,
Bu titulu hamı tək halal-hümmət almayım?
İmkanım əl verirdi, öz fikrimi söylədim,
Allahdan izin alıb, Həccə səfər eylədim.
Səfərim başa çatdı, saxtalıqdan qurtuldum,
Mən də titul alaraq doğrudan Hacı oldum.
Şübhədə olanların şübhəsini dağıtdım,
Bir Hacının önünə bir Hacı da çıxartdım.

# DÜNYADA KAMİLLİK QALİB GƏLƏCƏK

Görəsən nə üçün ağıllı insan,
Usanmır, çəkinmir tökdüyü qandan?!
İnsan qan tökəndə nəşələnirmi,
Daşlaşmış qəlbinə insaf gəlirmi?!
İnsan vicdanını itirən zaman,
Aqillik, kamillik gözləmə ondan.
İyirminci əsrin aqil insanı,
Çox-çox qabaqladı dövrü, zamanı.
Dirəşib zamanla durdu üz-üzə,
İnsan dalğaları çevirdi sözə.
Dünyanın bir başı o biri ilə,
Cansız qutuları gətirdi dilə.
Qanadlı dəmirlər quş kimi uçdu,
İnsanlar göylərə yeni yol açdı.
Bir qoşun bir ilə getdiyi yolu,
Gedirlər bir günə silahla dolu.
İndi bir sata, bir günə belə,
Böyük bir ölkəni alırlar ələ.
Bir düymə basmaqla böyük şəhəri,
Məhv edib dağıtmaq olar hər yeri.
Suların altına insan yol salır,
Göyləri fəth edib əlinə alır.
Ancaq iki qütbə bölündü dünya,
Birində elm artdı, birində xülya.
Şərq Qərbdən olduqca geridə qaldı,
Qərbin əlində o oyuncaq oldu.
Zaman ağıllara olsa da heyran,
Ancaq kamilləşə bilmədi dövran.
Dünyanın tarazı pozuldu yenə,
İblisin, şeytanın keçdi felinə.
Yenə torpağın bağrı sökülür,
Nahaqdan insanın qanı tökülür.

Yenə də dağılır şəhərlər, kəndlər,
Yerlə bir edilir bərələr, bəndlər.
Yenə də asılıdır insan insandan,
Ağalıq, hakimlik çıxmayır candan.
İnsan öz nəfsinə qulmu yarandı?
Bu necə əyyamdı, necə dövrandı,
Nə qədər istismar olacaq insan?
Görəsən, gələcəkmi elə bir zaman,
Dünyada kamillik qələbə çalsın,
İnsan azad olub, azad dolansın?!

## KÜÇƏNİN RƏNGİ

Bir uşaq küçəyə atılan zaman,
Küçənin rəngini götürəcəkdir.
Günahlı, günahsız olsa da dövran,
Biri o birinə ötürəcəkdir.

Al-əlvan bəzənsə küçənin rəngi,
Küçəyə atılan, o rəngdə olar.
Dövlətlə bir olsa ruhu, ahəngi,
Uşaq küçədən də tərbiyə alar.

Küçənin özünün fəlsəfəsi var,
Küçə cəmiyyətin balans yeridir.
Atılmır küçəyə təkcə uşaqlar,
Küçə hər zamanın böyük dərdidir!

Dünyanı bu dərddən xilas eyləyən,
Olmayıb, heç zaman olmayacaqdır!
Sən ay ədalətə, haqqa gəlməyən,
Bu dünya belə də qalmaycaqdır!

***

«Könüllülər» poemasını mən hələ 1992-1994-cü illər arasında hissə-hissə yazmışdım, tam tamamlaya bilməmişdim. O hadisələr mənim gözlərim önündə olmuşdur. O hadisələrin canlı şahidiyəm. O zamanlar mən zavodda mühəndis vəzifəsində çalışırdım. Gönüllü dəstələr mənim gözlərim qarşısında yığılırdı. Mənim işlədiyim sexdən də iki nəfər könüllü cəbhəyə getmiş və Şuşa ətrafında keçirilən «Daşaltı» əməlityyatında şəxsən iştirak etmişlər. Mənim borcum onların keçdiyi şərəfli yolu tarixdə işıqlandırmaqdır.

Mənim doğulduğum kənddən onlarla vətəndaş könüllü cəbhələrdə vuruşub. Onlardan üç nəfəri qəhrəmancasına döyüşlərdə həlak olmuş və «Şəhidlər xiyabanı»nda dəfn edilmişlər. Bu poemanı həmin şəhidlərin əziz xatirəsinə həsr edirəm.

Bizimlə bir sexdə işləyən Quliyev Niyazi Naxçıvanda anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakı şəhərinə gəlmiş, gündüzlər «Azərelektroterm» istehsal birliyində çalışmış, gecələr isə qiyabi məktəbdə oxuyaraq ali təhsil almışdır.

1992-1993-cü illərdə könüllü olaraq cəbhələrdə vuruşmuşdur.

Mehdiyev Əlibala Şuşa şəhərində anadan olmuşdur. O, da bizimlə bir sexdə çalışırdı.

1992-1993-cü illərdə könüllü olaraq cəbhələrdə vuruşmuşdur.

Hər ikisi cəbhədən sağ-salamat qayıdıb.




**Xasıyev Mahmud Allahverdi oğlu** 1960-cı ildə Borçalı mahalının Başkeçid rayonunun Şindilər kəndində anadan olub. Əsgəri xidmətini yerinə yetirdikdən sonra kəndə qayıtmış və müxtəlif işlərdə çalışmışdır. Gürcüstanda məlum 1989-cu il hadisələrindən sonra o, gürcülərlə barışmamış, hətta bir neçə gürcünü döydüyünə görə təqib olunmuşdur. 1991-ci ildə ailəsi ilə Bakıya köçmüşdür. Bakıda qeydiyyatı və vətəndaşlığı olmadığı halda elə həmin ildə könüllü olaraq cəbhəyə getmişdir.

1992-ci il oktyabr ayının 19-da Hocaz uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. «Şəhidlər xiyabanı»nda dəfn edilmişdir.

İki övladı var: oğlu – Sənan, qızı – Yadigar.






**Sədəddinov İlyas Abdulla oğlu** 1965-ci ildə Borçalı mahalının Başkeçid rayonunun Şindilər kəndində anadan olmuşdur. Məlum hadisələrdən sonra Bakıya köçmüşdür. Könüllü olaraq cəbhəyə getmiş, bir neçə döyüşlərdə iştirak etmiş və tərifnamələr almışdır.

1994-cü il yanvar ayında erməni tankları ilə səngərdə açıq döyüşə çıxmışlar. Tankın biri İlyas olan xəndəyin üzərinə çıxıb dövrə vurmuş və nəticədə xəndəkdə olan bir neçə əsgərimiz faciəli surətdə həlak olmuşlar.

İlyas «Şəhidlər xiyabanı»nda dəfn edilmişdir.




**Əhmədov Qəzənfər Əhməd oğlu** 1960-cı ildə Borçalı mahalının Başkeçid rayonunun Şindilər kəndində anadan olmuşdur. Orta təhsilini Başkeçid rus məktəbində almışdır. Məktəbi bitirdikdən sonra bir neçə peşə sahibi olmuşdur. Məlum hadisələrdən sonra Bakıya köçmüşdür. Elə uşaqlıqdan qorxmaz və mərd kimi özünü göstərən Qəzənfər könüllü olaraq cəbhəyə getmişdir.

1993-cü ildə ermənilərlə açıq döyüşdə qəhrəmancasına həlak olmuşdur. «Şəhidlər xiyabanı»nda dəfn edilmişdir.

Elşən adlı bir oğlu var.

# KÖNÜLLÜLƏR
**(poema)**

Babək anasını sıxıb köksünə,
Diqqət yetirirdi kövrək səsinə.
Ana həzin-həzin söhbət edirdi,
Xəyalı uçurdu, fikrə gedirdi.
Oğlunu cəbhəyə yola salacaq,
Gözləri həmişə yolda qalacaq.
Ana da bağrına basıb oğlunu,
Bilirdi qəhrəman, ər olduğunu.
Anası oğluna bir söz demədi,
Oğlunu bu yoldan o, döndərmədi.
Bilirdi Babək yolundan dönməz,
Bu uca zirvədən aşağı enməz.
Ananın çarəsi nəsihət versin,
Bu yolda oğluna «mətin ol», – desin.
Dedi, getdiyin yol uğurlu olsun,
Ölkəmiz düşmənə qələbə çalsın!
Babəkin üzündə bir əzəmət var,
Qəhrəman analar qəhrəman doğar.
Babək anasının öpdü əlini,
Ana da oğlunun öpdü alnını.
Anası təmkinli, oğul vüqarlı,
Atası dözümlü, yar intizarlı.
Beləcə Babəki yola saldılar,
Arxasınca baxa-baxa qaldılar.
Qohumlar, qonşular yaş elədilər,
Babəkin dalınca su çilədilər.
Könüllü gedirdi vətən yolunda,
Qürur ürəyində, vüqar alnında.
Gedirdi düşmənin səddini yarsın,
Azğın ermənini öldürsün, qırsın.

Gedirdi haqqını tələb etməyə,
Zəhərli ilanın başın əzməyə.
Düşmənlər şərəfsiz, şeytandan betər,
Erməni tülküdən daha hiyləgər.
Hiyləgər düşmənlə durmaz üz-üzə,
Vuruşa bilərmi onlar göz-gözə?
Babək də bilirdi kimlə vuruşur,
Düşmən arxasında sarılar durur.
Onlara dayaqdır yunan, fransız,
Nə qədər qəsbkar, necə vicdansız.
Ölkəmiz təklənib, köməksiz qalıb,
Dostumuzdan düşmənimiz çox olub.
Türkük, soyumuzu qurddan almışıq,
Bir vaxt Qərbə, Şərqə hakim olmuşuq.
Bax, ona görə də sevmirlər bizi,
Türklərin dünyada itməyib izi.
Çox yerdə hələ də izi qalıbdır,
Zamana, dövrana hakim olubdur.
Bir başa cəbhəyə yollandı Babək,
Düşmənlə üz-üzə vuruşsun gərək.
Ağdamda yerləşən alaya gəldi,
Onu komissarlıq qəbul eylədi.
Bildirdi o, könüllü olduğunu,
Könüllü orduya yazdılar onu.
Sovetlər ölkəsi tamam dağılıb,
Yerində müstəqil dövlətlər qalıb.
Rusların ordusu çəkilib gedib,
Burada çaxnaşma əmələ gəlib,
Lazımdır yenidən yollar axtarmaq,
Cəbhədə nizami  ordu yaratmaq.
Bizimsə nizami ordumuz yoxdur,
Ordu yaratmağa əngəllər çoxdur.

Yarandı hər yerdə xırda dəstələr,
Vuruşur cəbhədə bir də milislər.
Bəzi komandirlər olsa da mətin,
Milləti cəm etmək oldu çox çətin.
Babək özü haqda məlumat verdi,
Sovet ordusunda xidmətdən dedi.
Dünyanın ən qaynar nöqtəsi olan,
İnsanı dəhşətə, qorxuya salan,
Əfqanlar yurdunda xidmət etmişəm,
Beynəlmiləl olan borcu vermişəm.
Mən orada kəşfiyyatçı olmuşam,
Tərifnamə, çoxlu nişan almışam.
Orada nə üçün vuruşduğumu,
Özüm də bilmirdim, kim olduğumu.
Kimlə vuruşurduq, düşmən deyildi,
Bir kimsə bilmirdi məqsəd nə idi.
Amalsız, məqsədsiz biz döyüşürdük,
Xidməti yerləri tez dəyişirdik.
İndi bir borcum var, o da Vətəndir,
Əllərim çatandır, ünüm yetəndir.
Alçaqlar soxulub ana yurduma,
Qoy ləkə düşməsin təmiz adıma.
Ölsəm də döyüşdə öləcəyəm mən,
Ölümlə ləkəmi siləcəyəm mən.
Hələlik ölümü yasaq etmişəm,
Düşmənləri öldürməyə gəlmişəm.
Komissar zabitə tapşırıq verdi,
Babəki Şuşaya göndərin, dedi.
Bütün komandanlıq harda yerləşir,
Kəşfiyyat dəstəsi orda birləşir.
Bir dəstə gedirdi bu gün Şuşaya,
Babəki qoşdular həmin alaya.

Şuşada yerbəyer olundu hamı,
Ərlərin döyüşə artır ilhamı.
Döyüş paltarını Babək geyindi,
Qürurla fəxr edib, bir az öyündü.
Silahlandı, yaraqlandı qəhrəman,
İgidi yaşadır, yetirir zaman.

Ey Ana Vətənim, dara düşmüsən,
Sinəndə od yanır, qora düşmüsən.
Düşmənin atdığı tora düşmüsən,
Müsəllək əsgərik sənin yolunda.

Könüllülər keşiyində durublar,
Vücudundan səngər, qala qurublar.
Düşmənləri çalıb-çapıb yorublar,
Müsəlləh əsgərik sənin yolunda.

İgidlərin silah tutur atlanır,
Əziyyətə, zülmətlərə qatlanır,
Vətən deyə ürəyimiz çatlanır,
Müsəlləh əsgərik sənin yolunda.

Bircə qarış torpağını verməri k,
Yas tutarıq, ömür boyu gülmərik.
Qisasını almayınca ölmərik,
Müsəlləh əsgərik sənin yolunda.

Tutulubsa çığır, yolun gedərik,
Toplaşarıq qalın-qalın gedərik.
Silah yoxsa, əli yalın gedərik,
Müsəlləh əsgərik sənin yolunda.

Keçmişimiz bir olmadı, bölündük,
Düşmənlərə çox balaca göründük,
Aciz olduq, ayaqlarda süründük,
Müsəlləh əsgərik sənin yolunda.

Cəm olmağın vaxtı gəlib çatıbdı,
Oğlun, qızın ayılmayıb yatıbdı,
Zaman bizi qabaqlayıb ötübdü,
Müsəlləh əsgərik sənin yolunda.

***

Şuşa ətrafında döyüşlər gedir,
Tırtıllı maşınlar hərəkət edir.
Alazan raketlər sükutu pozur,
Düşdüyü yerləri şumlayır, qazır.
Qradların tüstüsü yaradır duman,
Bugündən sabaha qalmayır güman.
Tankların nərəsi ət ürpəşdirir,
İnsanın ruhunu əsəbləşdirir.
Avtomat gülləsi yağış tək yağır,
Bir topun mərmisi bir kənd dağıdır.
Tarixin təkəri gerimi dönür?!
Həyatda yaşamaq həvəsi sönür.
Qırılır qocalar, körpə uşaqlar,
Millətin bu boyda dərdimi olar?
Yerdə qalmayacaq bu tökülən qan,
Qalxacaq ayğa can Azərbaycan.
Nə zaman ki, ağ qaraya qarışır,
Düşmənlərlə şərəfsizlər barışır.
Biz ağı qaray qatmayacağıq,
Gecələr gündüzlər yatmayacağıq.
Nə vaxt bu qisası alacağıq biz,
Ondan sonra rahat olacağıq biz!

Qisas qiyamətə qalası deyil,
Millətim qeyrətsiz olası deyil.
Babək bu fikirlə gəzir, dolanır,
Özünə yer tapmır odlanır, yanır.
Peşəsi cəbhəyə gələndən bəri,
Öyrənir düşmənlər olan yerləri.
Çox çətin peşədir kəşfiyyat işi,
Bu işi bacarmaz hər duran kişi.
Kəşfiyyatın üç növü var faktiki –
Strateji, operativ, taktiki.
Bunları da bizdə bilən çox azdır,
Elmimizsə bu sahədə dayazdır.
Babək dərs almışdı Əfqanınstanda,
Unutmamış, saxlamışdı yadında.

## KƏŞFİYYATDA

Babək özünə bir dəstə yaratdı,
Kəşfiyyat işləri günbəgün artdı.
Kimlər ki, gəlmişdi onun xoşuna,
Beş nəfər topladı, yığdı başına.
Onların hərəsi bir igid idi,
Canını millətə fəda edirdi.
Mahmud Borçalıdan, Şindi balası,
Bir kəndin sipəri, elin qalası.
İlqar da, Vüqar da Qarabağlıdı,
Bir elin sinəsi, qəlbi dağlıdı.
Gəncəbasardandı Kərimlə Əhməd,
Döyüşə ər verir hər oba, hər kənd.
Hər biri cəbhəyə könüllü gəlir,
Vətən qarşısında borcunu verir.

Komandir Babəki çağırıb dedi:
– Yuxarıdan bizə məktub gəlibdi.
Əmr ediblər əməliyyat aparaq,
Gərək Daşaltıdan cəbhəni yaraq.
Vaxtımıza hələ beş gün qalıbdı,
Artıq əməliyyat hazırlanıbdı.
Bu müddətdə kəşfiyyata gedərsən,
Bizə xəbər, məlumat göndərərsən.
Babək iki yerə böldü dəstəni,
Çox deyil cəbhənin uzunu, eni.
Üç nəfər Şuşikənd tərəfə getdi,
Özləri Daşaltı səmtinə endi.
Mahmud da Vüqarla onunla idi,
Düşmən mövqeyini bildirməyirdi.
Düşmən mövqeyini öyrənmək üçün,
Yenə irəlləmək lazımdır  yəqin.
Onlar işlərini çox yaxşı bilir,
Gecələr yol gedir, gündüz gizlənir.
Onlar bir qayalı yerə gəldilər,
Çox oturmayıb az dincəldilər.
Bu zaman havalar işıqlanırdı,
Qarşıda, yaxında məşəl yanırdı.
Düşmənin mövqeyi aydın görünür,
Əsgərlər yerimir, yerlə sürünür.
Babək söylədi ki, dayanaq daha,
Ehtiyat igidə oturmaz baha.
Hava işıqlanıb, bizi görərlər,
Hücum çəkib üstümüzə gələrlər.
Burada balaca səngər qazdılar,
Xəndəyin önünə qaya düzdülər.
Babək binokulla hər yana baxır,
Düşmən tərəfində mövqe axtarır.
Köçürür dəftərə gördüklərini,
Mahmuda anladır bildiklərini.

Vüqar da öyrənir bəzi sirləri,
Mahmudun alışır, yanır gözləri.
İntiqam sözləri düşmür dilindən,
Bir an silahını qoymur əlindən.
Qayıdıb xəbəri çatdırmaq gərək,
Babək dedi, Mahmud dayan bir görək.
Düşmən yaxındadır, görərlər bizi,
Onların əlinə verməm sizi.
Qaranlıq düşəni gözləməliyik,
Elə bu xəndəkdə gizlənməliyik.
Dəlillər, sübutlar əlimizdədir,
Hünər də, qeyrət də indi bizdədir.
Çatdıra bilsəydik biz xəbərləri,
Yarardıq qurulan bu cəbhələri.
Bir dənə «tuşonka» açıb yedilər,
Tanrıya min dəfə şükür dedilər.
Bu yanvar ayında sərt olur ayaz,
Ay Mahmud, özündən danışsan bir az.
Canımız qızaraq isindi bəlkə,
Dərdini bölüşsən bizim Babəklə.
Deyərək ahəstə söylədi Vüqar,
Onun da Qarabağ boyda dərdi var.
Şindilər balası, dağlar oğluyam,
Sizin kimi mən də qəlbi dağlıyam.
Bizdə də dağıldı ellər, obalar,
Alışıb-yanıram, belə dərd olar?!
Fələyin qəzəbi bizimi tutub?
Bəlkə də şərəfsiz düşmənə satıb.
Bakıda evim yox, qeydiyyatım yox,
Neyləyim, sinəmə tuşlanmış bu ox.
Könüllü cəbhəyə gətirdi məni,
Dişimlə gəmirrəm qarı düşməni.
Mahmud qurtarmamış axır sözünü,
Səs gələn tərəfə tutdu üzünü.

«Türk», – deyə çağırdı kimsə bu zaman,
Babəkin gülləsi vermədi aman.
Düz ağzından vurdu, yıxıldı düşmən,
Vüqar öz yerindən sıçradı həmən.
O, da nişan aldı, tətiyi sıxdı,
Gülləsi düşməni tez yerə yıxdı.
Bu zaman düşmənlər çəkildi dala,
Babəkgil yerləşib qurdular qala.
Babək söylədi ki, xəndəkdən çıxın,
Hər yana, hər yerə diqqətlə baxın.
Düşmənlər imkanı verməzlər əldən,
Xəndəyə qumbara atarlar birdən.
Birtəhər aradan çıxmalıyıq biz,
Burada tanışdır hər cığır, hər iz.
Vuruşa-vuruşa çəkilək dala,
Təpəni aşaraq, girərik kola.
Oradan o yana rahat gedərik,
Məlumatı komandirə verərik.
Bir dənə erməni qayadan keçdi,
Silahı əlindən sürüşdü düşdü.
Mahmudla erməni gəldi üz-üzə,
Hər ikisi dayandılar göz-gözə.
Əlbəyaxa döyüş başladı birdən,
Mahmudsa itidir ayaqdan, əldən.
Ermənini yıxdı bircə kəlləyə,
Saldı onu ayaq altda, şilləyə.
Canında nə qədər yanğı var çıxdı,
Tutub boğazından çox möhkəm sıxdı.
Öl dığa, deyərək boğub öldürdü,
Şərəfsizin çırağını söndürdü.
Yenə bir erməni dığası gəldi,
Arxadan Mahmuda hücum eylədi.
Mahmud sıçrayaraq düşdü xəndəyə,
Güllələr od kimi səpildi göyə.

Erməni bir daşın dalına keçdi,
Mahmudu özünə bir hədəf seçdi.
Gülləni boşaldır xəndəyə tərəf,
Yoxdur abırsızda nə həya, şərəf.
Babək bu səhnəni uzaqdan gördü,
Vurub erməninini tez yerə sərdi.
Daşın arasından vurmuşdu onu,
Alçaq yaranmışı, alçaq oğlunu.
Mahmudsa xəndəkdən durduğu zaman,
Güllələr atıldı ona yaxından.
Güllələr torpağa, daşlara dəyir,
Mahmud gah sürünür, gah da gözləyir.
Güllələr atılır daşın dalından,
Saxlayıb Mahmudu bir az yolundan,
Səs gələn tərfə qumbara atdı,
Yenə də çevrilib xəndəyə yatdı.
Qumbara atılan yerdə partladı,
Elə orda bir dığanı haqladı.
Şaqqalandı onun ayağı, əli,
Hələ çox sınacaq onların beli.
İki nəfər qaçdı üzü aşağı,
Canını qurtardı alçaq uşağı.
Görünməz oldular daşın dalında,
Yolçu gərək hazır ola yolunda.
Çox ağır bir sükut çökdü araya,
Ağ qüvvələr qalib gəldi qaraya.
Babək də, Mahmud da durdu ayağa,
Vüqar sürünərək çıxdı qabağa.
Dişini sıxaraq gülümsəyirdi,
Ayaqdan yüngülcə yaralı idi.
Babək ilk yardımı göstərdi ona,
Ağrıkəsən iynə  vurdu dostuna.
Artıq buralarda gözləmək olmaz,
Qisas qisasçıda əvəzsiz qalmaz.

Düşmənlər yenidən qayıda bilər,
Bizim başımıza bəlalar gələr.
Vüqarı qaldırıb düşdülər yola,
Təpəni aşdılar, girdilər kola.
Təhlükə sovuşub qurtarmış idi,
Onlar təhlükəsiz talaya girdi.
Ağac topladılar, ocaq çatdılar,
İsti vurdu, xumarlanıb yatdılar.
Durub yollarına davam etdilər,
Həyacansız, təhlükəsiz getdilər,
Komandir onları pişvaza çıxdı,
Babəkin gözünün içinə baxdı.
Babək dəftərini çıxartdı verdi,
Bütün məlumatlar burdadı, dedi.
Mühüm xəbər ilə gəlmişdi Babək,
Düşmənin planın bilmişdi Babək.
Orada hər yerə «parol» vurulub,
Mən bilən yollarda tələ qurulub.
Düşmənlər agahdı bizim plandan,
Niyə də biz itgi verək yalandan?!
Onların tutduğu mövqelərində
Qüvvələr çox azdır cəbhələrində.
İçimdə dəyişən şübhələrim var,
Deyəsən yeni bir tələ qururlar.
Komandir söylədi, biz nə karəyik,
Bizə nə deyərlər onu edərik.
Siz gedin dincəlin, bir gündən sonra,
Heç kəs bilməyəcək gedəcək hara.
Kərimin dəstəsi harada qalıb,
Nəsə gizlədirsiz, bir şeymi olub?
Babək həyacanlı, təlaş keçirir,
Komandir sözünü belə bitirir.
Tələyə düşdülər, kömək olmadı,
Onlar da düşmənə borclu qalmadı.

Hərəsi bir neçə erməni vurub,
Hər biri meydanda mərdliklə durub.
Döyüşdən götürdük cəsədlərini,
Vətən unutmayır igidlərini!
Çarəmiz nə idi, tapşırdıq yerə,
Ruhları əbədi uçdu göylərə.
Babək əlləriylə tutdu başını,
Gizlədə bilmədi o təlaşını.
Vücudu titrədi, yaşardı gözü,
Başını qaldırdı, bu oldu sözü
Tökülən qan yerdə qalmayacaqdır,
İradəmiz məğlub olmayacaqdır!

***

Xəyallar tərk etmir Babəki bir an,
Nədən bir-birinə düşməndir insan?
Yataqda o yana, bu yana dönür,
Şəhərdə işıqlar gah yanır, sönür.
Dörd tərəf zülmətə qərq olur birdən,
Atılır mərmilər, partlayır hərdən.
Dəhşətli partlayış sükutu pozur,
Taleyi qırılmış səhfələr yazır.
Babəkin yuxusu ərşə çəkilib,
Dan yeri ağarıb, şəfəq sökülüb.
Xəyallar içində xəyala dalır,
Sorğusu, sualı cavabsız qalır.
Xəyallar, fikirlər ölçüyə gəlməz,
Yüz fikir bir borcu ödəyə bilməz.

## ƏMƏLİYYAT

Bu gün bir qış günü, hava qaralıb,
Dağların başını qar, boran alıb.
Soyuq qılınc kimi kəsir insanı,
Üşüyür, titrəyir adamın canı.
Ruzigar ağlayır nədənsə bu gün,
Dartılır ilmələr, bağlanır düyün.
Havalar tökübdür qaşqabağını,
Günəş də gizlədib al yanağını.
Elə bil mürgülü yatıbdı yer-göy,
Nə duyub matəmə batıbdı yer-göy?
Döyüşə hazırdı bizim ordumuz,
İmtahan önündə durub yurdumuz.
Kim qalıb, kim məğlub olacaq bu gün?
İgid qılıncını çalacaq bu gün.
Qorxaqlar aradan çıxıb, gəlməyib,
Dədəm Qorqud onlara ad verməyib.
Bu gün dava günü, meydan günüdür,
Oğuzun ruhunun qaydan günüdür.
Bu gün ərənlərin sınaq günüdür,
Şəhidin əbədi qonaq günüdür.
Bu gün döyüşə girəcək ordu,
İgidlər, ərənlər qoruyur yurdu.
Hər birisi əmrə müntəzir durub,
Hərəsi döyüşdə bir möhür vurub.
Bu gün ər qızacaq, igid qızacaq,
Hər biri tarixə dastan yazacaq.

***

Meydanda əsgərlər düzülüb səf-səf,
Hədəfə alınıb Daşaltı tərəf.

Yuxarılar əmrə imza atıbdır,
Döyüşə çıxmağın vaxtı çatıbdır.
Ön dəstə yön aldı hədəfə sarı,
Bölünübdür dəstələrin yolları.
Hər dəstədə iyirmi bir nəfər var,
Ayrı-ayrı tapşırıqlar alıblar.
İgid Babək, Mahmud, bir də ki, Vüqar,
Vətənin qədrini bilən oğullar.
Qoşulub Fərmanın ön dəstəsinə,
Səs verir millətin ötən səsinə.
Bütün cəbhə boyu ordu yeriyir,
Qəhrəman oğullar sözünü deyir.
Düşmən ordusu da irəli gəlib,
Qurduğumuz planın məğzini bilib.
Düşmən silahlanıb pusquda durub,
Hər yanda, hər yerdə tələ qurulub.
Ordunun tələdən yoxdu xəbəri,
Pis bilir yolları dəstə rəhbəri.
Dəstələri bələdçilər aparır,
Xam çobandan qurd qoyunu qoparır.
Bələdçilər yolları pis bilirmiş,
Beləcə ordunu tələyə vermiş.
Arxaya yol yoxdur, döyüşmək qalıb,
Hər əsgər bir igid cəngavər olub.
Yağış kimi yağır güllələr göydən,
Bizitm mövqeyimiz gedibdir əldən.
Fərman əsgərləri yerbəyer etdi,
Özüsə bir az da irəli getdi.
Üç dığa araya saldılar onu,
Vurmaq istədilər Vətən oğlunu.
Mahmudun ürəyi dözmədi, durdu,
Quş kimi çevrilib birini vurdu.
Sürünə-sürünə Fərmana çatdı,
Babək də özünü irəli atdı.

Onun da gülləsi hədəfi tutdu,
Sonra da qıvrılıb xəndəyə yatdı.
Üçüncü gülləni Fərman tuşladı,
Düşmənin cəsədi yerində qaldı.
Bütün cəbhə boyu ordu döyüşür,
Yavaş-yavaş vəziyyət də dəyişir.
Hər yerdə, hər yanda olsa da tələ,
Ordumuz mövqeyi keçirib ələ.
Nəbilər səmtində döyüşür Fərman,
Niyazi düşmənə verməyir aman.
Əlibala yerli – əslən Şuşalı,
Həyacan keçirir dəyişir halı.
O, hamıdan artıq vuruşmalıdır,
Əsgərlər tələdən qurtulmalıdır.
Düşmənlər arxadan vurdu Fərmanı,
Gülürdü gözləri, çıxsa da canı.
Niyazi döyüşdən çıxartdı onu,
Bitir gözlərində həyatın sonu.
Qəhrəman gözünü əbədi yumdu,
Niyazi yenidən döyüşə cumdu.
Mahmudun gözündə nifrət görünür,
Avtomat əlində yerlə sürünür.
Deyəsən bir yağlı hədəf görübdür,
Əvvəlcədən qərarını veribdir.
Sürünüb qayanın dalına keçdi,
Gülləsi düşmənin bağrını deşdi.
Düşmənlər Vüqarı tələyə salıb,
Əlibala necə çarəsiz qalıb.
Hər-halda özünün həmyerlisidir,
Özünü Vüqara yetirəsidir.
Sürünə-sürünə getdi irəli,
Əlində qumbara göründü Əli.
Düşmənlər tərəfə qumbara atdı,
Səsini mərminin səsinə qatdı.

Əzəmətlə irəliyə gedirdi,
Vüqar da düşməni güllələyirdi.
Birdən avtomatın kəsildi səsi,
Vüqarı susdurdu namərd gülləsi…
Babək əmr elədi, irəli keçin,
Vüqar olan yerdə aranı kəsin.
Bir neçə düşməni vurub sərdilər,
Vüqarın meydini tez götürdülər.
Babək komandanı alıbdır ələ,
Dəstədən on dördü qalıbdır hələ.
Dörd əsgər yaralı, ölü daşıyır,
Qalanı döyüşü bir də başlayır.
Babək taktikanı tez işə saldı,
Əsgərlər yenidən göstəriş aldı.
Guya tez qaçmağa cəhd etsək əgər,
Düşmənlər qalxaraq hücuma keçər.
Çox uzaq getməyib mövqe tutarıq,
Bacardıqca düşmənləri qırarıq.
Babəkin dəstəsi çəkildi geri,
Yamanca aldatdı erməniləri.
Mövqedən çıxaraq hücum etdilər,
Düz Babəkin pusqusuna getdilər.
Rəqiblər çox gərgin döyüş başladı,
Silahları bir-birinə tuşladı.
Ermənilər açıq döyüşə çıxıb,
Türklər də silahı onlara sıxıb.
İrəli keçəni vurub yıxırlar,
Düşmənləri yandırırlar-yaxırlar,
Erməni istədi ayağa dursun,
Qumbara atanla türkləri vursun.
Babək gecikmədi tez nişan aldı,
Erməni yıxılıb yerində qaldı.
İndi də tələyə düşüblər onlar,
Gördülər heç nədən tökülür qanlar.

Ermənilər pis durumda qaldılar,
Geri çəkilməyə məcbur oldular.
Mahmud sürünərək əsir dizləri,
Qumbara atanı tutub gözləri.
Babəksə Mahmudu çağırır dala,
Qorxur ki, dostunu tutar bir bəla.
Qumbara atanı Mahmud götürdü,
Özüylə üç ədəd mərmi gətirdi.
Babəkgildə yoxdur qumbara atan,
Silahla, sursatla qorunur vətən.
Bir «kamaz» erməni köməyə gəldi,
Döyüş səngiməmiş, hələ gedirdi.
Qumbara atanla davranan varmı,
Uzaqdan «kamaz»ı vurmaq olarmı?
Niyazi dedi ki, Rafiq götür sən,
Bilirəm, «kamaz»ı vura bilərsən.
Rafik də götürdü, söykəndi daşa,
Tuşladı silahı ora bir başa.
Tətiyi çəkərək mərmini atdı,
Mərmi də maşina dəydi, dağıtdı.
«Kamaz»da iyirmi erməni vardı,
Hamısı yerində öldü, qırıldı.
Bir alçaq erməni Rafiki vurdu,
Rafik yıxılsa da, yenə də durdu.
Niyazi görmüşdü, bir az gecikdi,
Vurub ermənini tez yerə sərdi.
Rafikin mərəzi geri dönürdü,
Onun gözlərində həyat sönürdü.
Namərdlər arxadan vurdular onu,
Vətən unutmayır igid oğlunu…
Oxucum, siz mənə irad tutmayın,
Ağ-qaranı bir-birinə qatmayın.
Hərdən-hərdən ermənini söyürəm,
Alçaq oğlu, şərəfsizlər deyirəm.

Kamil adam müharibə edərmi,
Başqasının torpağına girərmi?
Hardandı onlarda bu kin, bu nifrət,
Alçaqlıq etməklə gələrmi şöhrət?
Qayıdaq yenə də döyüş yerinə,
Vuruşma qızışır, gedir dərinə.
Arxayla əlaqə tamam kəsilib,
Bir az da ərlərin ruhu yüksəlib.
Əsgərlər sındırmır öz vüqarını,
Babək əmrlə dedi son qərarını.
Döyüşə-döyüşə çəkilin geri,
Saxlayın atəşdə ermənilər.
Dəstə yavaş-yavaş geri çəkilir,
Tanrının qəzəbi yerə tökülür.
Tanrı üzümüzə qayğıyla baxdı,
Döyüşdən on nəfər salamat çıxdı.
Düşmənlər qırx nəfər itgi verdilər,
Türk oğlu türklərin gücün gördülər.
Yüz nəfərə qarşı iyirmi əsgər,
Şərəflə, qeyrətlə döyüşürdülər.
Ordu cəbhə boyu yaxşı vuruşdu,
Əsgərlər döyüşdə qeyrətlə durdu.
Kim qalib, kim məğlub bəlli olmadı,
Kim istər, nə istər həlli olmadı.
Kim öldürür dəhşətliydi gözləri,
Kim ölürdü qatlanırdı dizləri.
Kim öldürür özü baxırdı yandan,
Kim ölürdü ruhu çıxırdı candan.
Kim satqındı, kim satıldı ölmədi,
Şərəfsizlər abır-həya bilmədi.
Heç nədən nə qədər biz itgi verdik,
Döyüşdə nə qədər xəyanət gördük!
Xəyanət olmasa itgi verməzdik,
Ağrılı-acılı günlər görməzdik.

Bizdən yetmiş nəfər döyüşçü öldü,
Şərəflə, hömətlə yerə gömüldü.
İyirmi dörd əsgər itgin sayıldı,
Hər birinə abidə də qoyuldu.
Yüz əlli dörd nəfər erməni öldü,
Qurduğu tələnin qurbanı oldu.

## QƏRARGAHDA

Bu gün qərargahda yığılıb hamı,
Sönüb əsgərlərin eşqi, ilhamı.
Boşuna getmişdi tutulan plan,
Məhv edir hər şeyi əyri və yalan.
Naxələf çıxdılar verilən sözə,
Ordunu atdılar silahsız düzə.
Yox idi bir dənə qumbara atan,
Olmadı dar anda efirə çıxan.
Arxa ilə əlaqələr yox idi,
Dəstələrə əngəllər də çox idi.
Bələdçilər düz deyil, tərs gedirdi,
Əsgərləri yorurdu, incidirdi.
Bütün komandirlər hesabat verir,
Hər biri dərdindən, çorundan deyir.
Babək də yerindən durub danışdı,
Söylədi, bilmirik görən nə işdi?
Dövlətdə iqtidar, müxalifət var.
Ay Allah, belə də böyük dərd olar?
Partiyalar tayfa-tayfa bölünür.
Kənardan baxana aydın görünür,
Çəkici bir yerə vura bilmirik,
Düşmən qabağında dura bilmirik.

Çəkişmələr, dartışmalar dayanmır,
Top atılır, yatan yatır oyanmır.
Hər tərəfdə kürsü savaşı gedir,
Mənəm-mənəm içimizi məhv edir.
Bir-birinin arxasında duran yox,
İçimizdə kin yeriyir qıran yox.
Qarabağ əllərdə bir «kozur» olub,
İçimizə şeytan, iblis cin dolub.
Heç bilmirik qurulan nə oyundur,
Yeyən qurddur, yeyilən də qoyundur.
Kim udacaq, uduzacaq bilinmir,
Biz bölündük, ancaq düşmən bölünmür.
Döyüşdə igidlik göstərənləri,
Canıyla, qanıyla döyüşənləri,
Təriflər yağdırıb, çəkdilər başa.
Babək oturubdur Mahmudla qoşa,
Komandir göstərdi hər ikisini,
Bir az da yüksəltdi kövrək səsini.
Mərd igid düşməni yerində boğur,
Qəhrəman analar qəhrəman doğur.
İgid olan düşmən üstə yeriyir,
Ana-bacı namusunu qoruyur.
Mahmud döyüşlərdə şərəf qazandı,
Babək öz adıyla dastan yazandı.
Niyazi qorudu təmiz adını,
Döyüşdə söndürdü Rafik odunu.
Bir nərə çevrildi bu Əlibala,
Vüqar da, Fərman da qalmadı dala.
Hər əsgər döyüşdə bir igid oldu,
Adları tarixdə əbədi qaldı.
Mərkəzdən göstəriş gəlibdir bizə,
On gün məzuniyyət verilib sizə.
Gedin rahat olun, bir az dincəlin,
Vaxt tamam olanda qayıdıb gəlin.

Babək Mahmud ilə girib qol-qola,
Çıxıb qərargahdan düşdülər yola.
Ay Mahmud, mənimlə gedəsən bəlkə,
O qədər də böyük deyildir ölkə.
Bir neçə günlüyə bizdə qalarsan,
Qohum-əqrabayla tanış olarsan.
Mahmud nəfəsini ahəstə dərdi,
Babəklə getməyə razılıq verdi.
Balaca maşina oturdu onlar,
Onları apardı dolama yollar.
Gətirib çıxartdı Kür qırağına,
Babəkin yurduna – öz ocağına.

## GÖRÜŞ

Darvaza döyülür, açılır qapı,
Qırılır ananın qəlbinin sapı.
Babəki görəndə tərpənə bilmir,
Yerimək istəyir, ayaq yerimir.
Quruyub heykələ dönübdür ana,
Bəlkə yuxu görür, nə olub ona?!
İnana bilməyir gördüklərinə,
Şərik çıxılarmı ana dərdinə?!
Hər gün bu qapıdan yola baxırdı,
Ana nisgillənir, çox darıxırdı.
Babək anasını bağrına basır,
Anası danışır, o, qulaq asır.
Yollara baxmaqdan dözüm qalmadı,
Ürəyimdə məşəl yandı, qor oldu.
Cəbhədə vuruşdun qəhrəman oldun,
Bu gün sən anadan bir də doğuldun.

Mahmud da sarsıldı, kövrəldi yaman,
Günahkar insandı, yoxsa ki, zaman?
Ay ana, Mahmuddur, cəbhə yoldaşım,
Döyüşdə arxamdır – dostum, qardaşım.
Bağışla, ay oğul, yaman çaşmışam,
Dərdimiz böyükdür, lap qocalmışam
Deyərək, Mahmudun alnından öpdü,
Mahmud da ananın əlindən öpdü.
Qohumlar, qonşular axışdı gəldi,
Əminə ananı təbrik eylədi.
Sarılır Babəkə birbə-bir hamı,
Əminə ananın gur yanır şamı.
Sonra da geçdilər süfrə başına,
Babək həsrət idi ana aşına.
Atası hövlanak içəri girdi,
Əlləri, ayağı əsim-əsirdi.
Həsrətlə sarıldı atayla oğul,
Bu nə əfsanədir, nədə ki, nağıl.
Hər evdə yaşanır bu yaşantılar,
Çox belə təlaşlar, belə intizar.
Kim bilir, nə qədər çəkəcək sonu,
Nə vaxt açılacaq bu buzun donu?!

***

Mahmud səhər tezdən yuxudan durdu,
Əl-üzünü yudu, bağa buyurdu.
Elə bil burada cənnət qurulub,
Hər gülə-çiçəyə bəzək vurulub.
Bir az aralıda Kürün ləpəsi,
Məst edir adamı çayın nəğməsi.
Hər bir gülün, hər çiçəyin ətri var,
Ağacları cərgə-cərgə salıblar.

Aşağı-yuxarı bağı dolandı,
Fikir çəkdi onu, birdən dayandı.
Yadına düşmüşdü Şindinin dağı,
Kəndin altındakı kolxozun bağı.
Yadına gəlir ki, bir gecəyarı,
Toplayıb başına o, uşaqları.
Kolxozun bağına səssiz girdilər,
Hərəsi bir neçə alma dərdilər.
Gözətçi bu işdən tutunca xəbər,
Aradan çıxaraq, tez əkildilər.
Fikirdən ayırdı Babək Mahmudu,
Dostum nə fikirdi, bu nə uyğudu?
Eh! Babək, soruşma mənim halımı,
Yaxşı ki, dağıtdın sən xəyalımı.
Mənim də yadıma düşdü elimiz,
Dağılan obamız, köçən kəndimiz.
Günorta Bakıya yola sal məni,
Darıxmışam, gedib görüm aləmi.
Mahmud yola düşdü Kür qırağından,
Ayrıla bilmədi xəyallarından.

***

Bacısı Babəki tutubdur dilə,
İstəyir birtəhər gətirsin ələ.
Qardaşım, vuruşdun sən yetərincə,
Anam çox sevindi evə gəlincə.
Borcunu vermisən vətən yolunda,
Qaçıb gizlənmədin ana dalında.
Atam da, anam da intizardadır,
Gözləri sən gedən o yollardadır.
Arzu da israrla səni gözləyir,
Mənim də sevməyə haqqım var, deyir.

Ay mənim ağllı, kamallı bacım,
Sizdədir qeyrətim, amalım, gücüm,
Qaytara bilmədik vətən borcunu.
Hər ana gizlətsə dalda oğlunu,
Bəs onda vətəni kim qoruyacaq,
Səngərdə yerimdə cinmi duracaq?!
Nə qədər ki, torpaq azad olmayıb,
Borcumuz çox artıb, heç azalmayıb.
Borçalı balası Mahmudu gördün,
Onun əhvalını soruşdun, bildin?
Bakıda nə evi, qeydiyyatı var,
İnsanda bu qədər qeyrətmi olar?!
Özü də Gürcüstan vətəndaşıdır,
Millətin oğludur, məhəg daşıdır.
O getsin döyüşsün, biz isə qalaq,
Deyirsən, qeyrətsiz, şərəfsiz olaq?!
Bir daha bu haqda söz açma mənə,
Borcumuz xidmətdir Ana Vətənə.
İndi mən Arzunu görmək istərəm,
Qara saçlarını hörmək istərəm.
Biləndə mənim də gözləyənim var,
Açılır qarşımda bağlanan yollar.
Arzuya deyərsən görüşə gələr,
Ürəyim sevinər, gözlərim gülər.
Bacısı kövrəldi, baş üstə dedi,
Bir başa Arzunun yanına getdi.

***

Oturub Arzuyla Babək üz-üzə,
Tutub bir-birini söhbətə-sözə.
Şirin-şirin danışırlar-gülürlər,
Könüldən-könülə buta verirlər.

Arzunun qızarıb al yanaqları,
Həyacandan əsir gül dodaqları.
Babəkin əlində titrəyir əli,
Danışa bilməyir, söz tutmur dili.
Yaxın olmayıblar bu qədər onlar,
Uzaqdan-uzağa sevib cavanlar.
Babək ona sevdiyini söyləyir,
İlk baxışdan aşiq olduğun deyir.
Əfqan ölkəsindən mən gələn kimi,
Sən oldun qəlbimin sevdalı simi.
Sadəcə ürəkdən sevirəm səni,
Nə qədr ki, sağam gözlə sən məni.
Ölməyə hazıram sənin yolunda,
Kölən də olaram, bil ki, qulun da.
Bəxtimin açarın səndə görmüşəm,
Ruhumu, hissimi sənə vermişəm.
Babək, Tanrı səni mənə verəcək,
Arzun ölməyəck, ağ gün görəcək.
Elə bil göylərdən bir səda gəlir,
Babək qismətindir, mətin ol, deyir.
Bu möhnətə, ayrılığa dözərəm.
İzin versən mən səninlə gedərəm,
Son sözümü cəbhələrdə deyərəm.
Aslanın erkəyi, dişisi  olmaz,
Qeyrətimiz, iradəmiz qırılmaz.
Get Babək, yaxşı yol, vətən dardadır,
Vətənin nicatı qəhrəmandadır.
Yolların açıqdır, qoy açıq olsun,
Millətim düşmənə qələbə çalsın!
Tanrı çiçək, gül yaradıb sizləri,
Sizə arxa, qul yaradıb bizləri.
Darıxma sevgilim, sağ qayıdaram,
Əhdimə vəfalı, sadiq olaram.

Öpdü Arzusunu o, gülə-gülə,
Töküldü gözündən yaş gilə-gilə.
Özünü saxlaya bilmədi Arzu,
Kövrəldi, ağladı o dan ulduzu.

Azərbaycan qızıyam,
Namusla yoğrulmuşam.
Mənim atam Koroğlu,
Nigardan doğulmuşam.

Azərbaycan qızıyam,
Nüşabə qeyrətliyəm.
Sənin kimi igidə,
Hər an sədaqətliyəm.

Azərbaycan qızıyam,
Tomrisdən süd əmmişəm.
Qılıncımı çalmışam,
Tarixdə yüksəltmişəm.

Azərbaycan qızıyam,
Mən elin anasıyam.
Vətənimi bürüyən
Odlarda yanasıyam.

Azərbaycan qızıyam,
İsmətim öz adımdır,
Vətənə dəyən yara,
Mənim yaralarımdır.

Azərbaycan qızıyam,
Hər vaxt ucadır adım.
Əhdimə, ilqarıma
Mən vəfasız olmadım.

***

Qohumlar, qonşular bu gün axışıb,
Mahmudun başına gəlib yığışıb.
Allahverdi kişi ziyafət verir,
Gələnlər, gedənlər göz aydın deyir.
Suallar verirlər, Mahmud danışır,
Mübahisə olur, ara qarışır.
Kimi deyir, erməni qorxaq millətdir,
Kimi də deyir ki, yalan söhbətdir.
Kimi deyir, birliyimiz pozulub,
Kimi deyir, qəbirimiz qazılıb.
Biri deyir, əşi, bu iş düzülüb,
Urusların xəlbirindən süzülüb.
Allahverdi kişi görmüş kişidir,
Arada-bir söhbətləri eşidir.
Ay oğul, atalar belə söyləyib,
Arxalı köpəklər qırd basar deyib.
Onların arxası bir az möhkəmdir,
Elə sözləri də bizdən ötkəmdir.
İnşallah cəm olub birləşərik biz,
Tanrıdan güc alıb, gücləşərik biz…
Söhbət çox uzandı, məntiq olmadı,
Şair bu məclisdən razı qalmadı.
Hərə bir tərəfə çəkirdi sözü,
Buradan görünür cəbhənin üzü.
Gecədən keçəndə məclis dağıldı,
Atası oğulla üz-üzə qaldı.
Ana da bu axşam pərişan olub,
Elə fikirləşir, xəyala dalıb.
Oğlunu saxlamaq istəyir yoldan,
Ananı yorğunluq salıbdır haldan.
Atası çox deyir, inad eyləmə,
Ərənlikdən, igidlikdən söyləmə.
Gözləri yollarda qoyursan məni,
Nə itirən, nə axtaran var səni.

Bu dövlətin vətəndaşı deyilsən,
Vallah, mən bilmirəm nə istəyirsən.
Ay ata, bu dərdə dözə bilmirəm,
Başımı qaldırıb gəzə bilmirəm.
Vətən də mənimdir, millət də mənim,
Torpaq da mənimdir, dövlət də mənim.
Babalarım döyüşlərdə can verib,
Oymaq-oymaq torpaqları itirib.
Bəsdir artıq, torpağımız kiçilir,
Ərənlərə, igidlərə ar gəlir.
Qorxaq üçün torpaq nədir, yer nədir,
Alçaq üçün kəfən nədir, gor nədir?
Dəfələrlə söyülsə də goruna,
Almaz onu nə eyninə, arına.
Hər bir adam öz yolunu gedəcək,
Mənim yolum döyüşlərdən keçəcək.
Ölüm məni öz adımla yaşadar,
Ölümsüzlük haqda belə qayda var.

***

Vədə yetişibdir, vaxt tamam olub,
Arzunun gözləri boşalıb-dolub.
Babək «veş-mişok»u aldı qoluna,
Çıxıb darvazadan düşdü yoluna.
Yenə də yığılıb bütün qonşular,
Qanad saxlayıbdır göydəki quşlar.
Təbiət tökübdür qaşqabağını,
Bacısı isladır al yanağını.
Kür də lal olub dayanıb bir an,
Bircə dayanmayır, dövr edir zaman.
Tarixi aparır, çəkir irəli,
Tarixlər yaradır insan əməli.
Babək də şərəfli tarix yazacaq,
Oxuyub insanlar xatırlaycaq.

## ŞUŞA DÖYÜŞÜR

Yığılıb yenə də ər döyüşçülər,
Hər biri cəbhədə göstərir hünər.
Döyüşlər dayanıb, nə də səngiyib,
Düşmənlər bir az da irəli gəlib.
Ruslar da onlara yardımçı olub,
Bizim millətimiz təklənib qalıb.
Silah da, sursat da çatışmır bizdə,
Döyüş maşınları az qalıb üzdə.
Onların çoxunu ruslar aprıb,
Satıb erməniyə bizdən qoparıb.
Silah-sursat tapa bilmirik hələ,
Qüvvələr balansı pozulub belə.
Erməni çox bicdir, işini bilir,
Yağsız, filansız da ruslara girir.
Halqaya salınıb Şuşa şəhəri,
Yəhərləyə bilməyirik kəhəri.
Düşmənlər hər gündə bir addım atır,
Yavaş-yavaş bizim kəndlərə çatır.
Qoşulub onlara rusun ordusu,
Ağır durumdayıq sözün doğrusu.
Türkiyə ordusu gələ də bilməz,
Bu olay dünyada qəbul edilməz.
Qurtuluş çarəsi əlimizdədir,
Bütün ağırlıqlar belimizdəddir.
Bu yükün altına girən oğullar,
Vətənə borcunu verən oğullar,
Qəhrəman olsalar, nər də olsalar,
İgid də olsalar, ər də olsalar,
Silahsız, sursatsız necə döyüşər?!
Yaraqsız əsgərlər ruhdan t ez düşər.
Ruhumuz ölməyib, qırılıb bir az,
Arxası olanın ruhu  qırılmaz.

## XOCALIDA FACİƏ

Babəkə verilib təzə tapşırıq,
Cəbhədə yaranıb yenə qarışıq.
Xocalı tutulub, tamam dağılıb,
Böyükdən-kiçiyə hamı qırılıb.
Ruslarla erməni əlbir olublar,
Çox geniş, böyük bir cəbhə qurublar.
Çevrəyə alınıb Xocalı kəndi,
Bağlanıb yolları, bərəsi, bəndi.
Sonra da qaçmağa bir yol ayrılıb,
Rus türkün «qeydinə» gör necə qalıb.
Dörd yüz doqquzuncu diviziya ilə,
Bütün Xocalını keçirib ələ.
Tırtıllı maşınlar hücuma keçib,
Duranı, qaçanı bir hədəf seçib.
Silahsız, əsgərsiz mülkü insanlar,
Düşmən gülləsinə hədəf olanlar,
Qırılan qırılıb, qaçan qaçıbdır,
Bir elin küməsi belə uçubdur.
Rəhm olmayıbdır heç bir insana,
Tutublar hamını güllələbarana.
İnsan meyidləri çölə səpilib,
Hamilə qadının qarnı kəsilib.
Cəsədlərin dəriləri soyulub,
Körpələrin gözü çıxıb, oyulub.
Süngüyə taxılıb körpə uşaqlar,
Allah bu zülmü necə bağışlar?!
Mülkü insanların nədir günahı,
Tutmazmı dünyanı onların ahı?
Siz ey Avropanın cahangirləri,
«Tarixin məhvəri dönəndən bəri»,
Gözünüz yumuldu, kormu qaldınız.
İnsan haqlarından çox danışdınız.
Harda qaldı sizdə insaf, ədalət?
Verirsiniz ermənıyə bəraət.

## ŞUŞANIN SÜQUTU

Babək kəşfiyyata çıxıbdır bu gün,
Açılmır bu kələf, bağlanır düyün.
Tutulur Şuşanın kəndləri bir-bir,
Düşmənlər günbəgün irəli gəlir.
Şuşanın başını alıb təhlükə,
Çox böyük sarsıntı keçirir ölkə.
Lazımi güc-qüvvə gəlməsə əgər,
Şuşa da düşmənə verilə bilər.
Düşmən mövqeyini öyrənmək üçün,
Babək sərf eyləyir bütün var gücün.
Bu gün o, Mahmudla gedib bərabər,
Onunla birlikdə göstərir hünər.
Birlikdə olanda şirə dönürlər,
Döyüşdə rəqibi asan yenirlər.
Şuşadan bir qədər aralanıblar,
Cəbhə boyu məlumatlar alıblar.
Düşmənin qüvvəsi doğrudan çoxdur,
Bizim bir o qədər qüvvəmiz yoxdur.
On beş tank, on ədəd zirehli maşın,
Sökürlər bağrını torpağın, daşın.
On dənə topları, tankvuranları,
BMP, BTR kəsib yolları.
Böyük bir güc ilə irəliləyirlər,
Şuşa ətrafını çəpərləyirlər.
Ruslarla birlikdə çoxdu sayları,
Tülküdən törəyib çaqqal soyları.
İki min əsgər var sıralarında,
Muzdurlar da çoxdur aralarında.
Babək çox çalışdı qurdu rabitə,
Hər bir məlumatı verdi zabitə.
Zabit əmr eylədi, qayıdın gəlin,
Çalışın hücumun vaxtını bilin.

Onlar yollarıyla irəliləyirlər,
Səmt alıb Şuşaya tərəf gedirlər.
Babək dayanaraq boylandı sola,
Buradan az qalıb çıxsınlar yola.
Yenidən getdilər çox yavaş-yavaş,
Onlara qorxudu hər qaya, hər daş.
Qarşıda, yaxında Mahmud səs duyur,
Erməni dığası mahnı oxuyur.
Meşəyə yayılır mənfurun səsi,
Mahmudun tükənir lap hövsələsi.
Sürünə-sürünə irəli çıxır,
Kötüyün dalından onlara baxır.
Burada balaca koma tikilib,
Üstünə parçadan çadır çəkilib,
Ocaq çatılıbdır, çəkilir kabab,
Masanın üstünə düzülüb şərab.
Özləri kefdədi, nəşələniblər,
Elə bil Mahmuda yanıq veriblər.
Babək də Mahmudu tutubdur dilə,
Deyir, uzaqlaşaq, keçərik ələ.
Sən rahat ol Babək, bir dayan görək,
Onlara yaxşıca qurmuşam kələk.
Şərabı içiblər, qızıb başları,
Öldürmək lazımdır bu oğraşları.
Bəs fikrin nədir, nə gözləyirsən?
Sonunu gözləsən onda görərsən.
Ermənilər gəlib bir-bir oturdu,
Kababı düzdülər, məclis quruldu.
Sağlıqlar deyirlər, şərab içirlər,
Şərabın üstündən nəşə çəkirlər.
Onların kefləri lap durulanda
Halları Mahmuda aydın olanda,
Sürünə-sürünə irəliləyirdi,
Babək də onunla birgə gedirdi.

Elə ki, lazımı mənzilə çatdı,
Çəkdi qumbaranı hədəfə atdı.
Qumbara partladı düşdüyü yerdə,
Torpaqdan, dumandan yarandı pərdə.
Babək çox diqqətlə ora baxırdı,
Durmaq istəyəni vurub yıxırdı.
Beləcə beş nəfər erməni öldü,
Mahmud çox sevindi, ürəkdən güldü.
Hələ də ocaqda kabab bişirdi,
Mahmudun qəlbini ovub deşirdi.
Gör necə rahatca kabab yeyirlər,
Bizim ölmümüzə sağlıq deyirlər.
Bu dərdi götürüb olarmı dözmək,
Lazımdır ilanın başını əzmək.
Bir daşın üstünə bir taxta qoydu,
Bişən kababları çubuqdan soydu.
Salamat qalmışdı bir şüşə araq,
Hələlik gəlmirdi nə səs, nə soraq.
Babək, gəl oturaq doyunca yeyək,
Düşmənin məhvinə bir sağlıq deyək.
Ay Mahmud, tez gedək, vaxtımızmı var?
Tələyə düşərik gələnlər olar.
Yox Babək, bu yemək qismətimizdir,
Nə olsun bişirən düşmənimizdir.
Çörək də bizimdir, ət də bizimdir,
Dağılan şəhərlər, kənd də bizimdir.
Gəl içək eynimiz açılsın bir az,
Fələyin dövranı belə də qalmaz.
Qoy baxsın kənardan ölü oğraşlar,
Beləcə yıxılır dikilən başlar.
Mahmud çox həvəslə yeyib içirdi,
Arada bir, hərdən sağlıq deyirdi.
Babəkin kefi də azca düzəlib,
Araq təsir edib, özünə gəlib.

Elə ki, durdular süfrə başından,
Deyəsən səs gəldi qaya tuşundan.
Otlar arasında yatdılar yerə,
Arxada uzanır böyük bir dərə.
Dərəyə düşsələr qaça bilərlər,
Düşmənlər oraya çətin girərlər.
Qayanın dalından üç nəfər çıxdı,
Babək nişan aldı birini yıxdı.
İkisi gizlənib tez yerə yatdı,
Mahmud da bir neçə güllə boşaltdı.
Heç kimin cürəti yoxdur ki, dursun,
Silahı tuşlayıb hədəfi vursun.
Mahmud tez Babəkə verdi işarə,
Dedi, bu dərdə də tapılar çarə.
Güllənі səpələ düşmən üstünə,
Mən də durum dığaların qəsdinə.
Babək avtomata qoydu silahı,
Tanrının kərəmi, vardı pənahı.
Darağı boşaldır, yenisin taxır,
Qanqalı, tikanı yan üstə yıxır.
Dığalar başını qaldıra bilmir,
Başları üstündən güllə səpilir.
Mahmud bir ildırım sürəti ilə,
Elə bil dönmüşdü küləyə, yelə.
Sol yandan düşmənə macal vermədi,
Nişan aldı, nəfəsini dərmədi.
Gülləsi haqladı vurdu birini,
Dəyişirdi o biri də yerini.
Babəkin gülləsi susdurdu onu,
Bu iblis oğlunu, daşnak oğlunu.
Babək səsləyəndə Mahmud hay verdi,
Qaçaraq dostunun yanına gəldi.
Cəld düşək dərəyə, dayanmaq olmaz,
Bizə o yollarda qorxu yaranmaz.

Dərəyə endilər, yalı ötdülər,
Oradan o yana rahat getdilər.
Artıq gün batıbdır, hava qaralıb,
Mahmudun səbiri tamam daralıb.
Şuşaya çatmağa hələ çox qalıb,
Bu yollar onları lap əldən salıb.
Ay Babək, deyirəm bir ocaq çataq,
Uzanıb yanında bir azca yataq.
Yaman yorulmuşam, yoxdu taqətim,
Azalıb enerjim, həm hərarətim.
Yox, Mahmud hələlik dözməliyik biz,
Bu yolun canını üzməliyik biz.
Təpədən o yana «post»larımız var,
Orada dincəlib yatmaq da olar.
İgidlər getdikcə yol ağırlaşır,
Ay uca göylərdə şam tək alışır.
Ay da yol göstərir bu igidlərə.
Yamyaşıl geyinib çəmən, dağ, dərə,
Bu may axşamında hava sərindir.
Yol, yola söykənən igidlərindir,
Birtəhər təpəni keçib-aşdılar.
Milli əsgərlərlə qarşılaşdılar.
Keçdilər, gəldilər çətin yolları,
Ayaqda durmağa yoxdu halları.
Əsgərlər onların bildi halını,
Soruşan olmadı hal-əhvalını.
Onlara yatmağa yer göstərildi,
İkisi də bir yatağa sərildi.
Yuxuya getdilər uzanan kimi,
Çoxalıb millətin kədəri, qəmi.
Nə qədər sürəcək bu möhnət, kədər,
Yazılıb millətə beləmi qədər?!
Şirin yuxudadı qəhrəmanlarım,
Mənimsə daralıb səbrim, qərarım.

Əlimdə titrəyir, yazmayır qələm,
Batıbdı matəmə böyük bir aləm.
Hələ qəhrəmanın yoxdu xəbəri,
Süquta uğrayır Şuşa şəhəri.
Yatıb qəhrəmanım, çox şirin yatıb,
Bütün Azərbaycan matəmə batıb.
İnsafım gəlməyir oyadam onu,
Döyüşdən qayıdan bu türk oğlunu.
O, nə qədər oddan, alovdan çıxıb,
Düşmənin qəlbinə süngülər taxıb.
İndi bu xəbəri çatdırım ona,
Necə deyim Şuşa batıbdır qana?..
Uzaqdan görünür Şuşanın halı,
Solub, saralıbdı o gül camalı.
Topların, tankların nərəsi gəlir,
Şuşanın ahları göyə yüksəlir.
Evlər, imarətlər alışıb yanır,
Şuşanın sinəsi qana boyanır.
Şuşa çox şahları pərişan edib,
Ümidlə gələnlər ümidsiz gedib.
Burada Pənah xan qala salıbdır,
Burada Vaqifin ruhu qalıbdır.
Mənim qəhrəmanım oyanmayıbdır,
Şuşada atəşlər dayanmayıbdır.
Bu gün Şuşamızın sönən günüdür,
Oğuzun ruhunun ölən günüdür.
Şəhərlər öləndə diriltmək olur,
Zamana ehtiyac, qisası qalır.
Qisas qiyamətə qala da bilməz,
Həqiqət incələr, ancaq üzülməz.
Mənim qəhrəmanım yuxudan durub,
Olduşqca kədərli, məyus oturub.
Olan hadisədən yoxdu xəbəri,
Özü də bilməyir nədir kədəri.

Yatanda dəhşətli yuxular görmüş,
Anası Babəkə nəsə deyirmiş.
Çıxıb darvazadan açıb qolunu,
Arzu da kəsibdir onun yolunu.
Babək çox yeriyir irəli gedir,
Nə isə onlara çata bilməyir.
Bu zaman aranı çən, duman kəsir,
Anası, Arzusu gözündən itir.
Sonra da görür ki, səhrəda qaçır,
Arxadan düşmənlər atəşlər açır.
Nə gizlənə bilir, nə güllə dəyir,
Düşmənlər yox olur, atəş kəsilir.
Düşüb ayağından ayaqqabısı,
Ağlayır, göz yaşı tökür bacısı.
Ay qardaş, atamın gözü yoldadır,
Anam fikirləşir, xəstə haldadır…
Mənim qəhrəmanım xəyala dalıb,
Yuxusu Babəkə ağır yük olub.
Bu zaman Xansuvar girdi içəri,
Kövrəlib, yaşarıb qəmli gözləri.
Məlumat almışıq, gedibdir Şuşa,
Düşmən əlindədir, o dilbər guşə.
Hamı tək Babəkin quruyub qanı,
Mahmudun titrəyir, ürpəşir canı.

Şuşa verilibdir, kimdi səbəbkar,
Satılıbsa, onda kimdi günahkar.
İçimizdə axtarmayq düşməni,
Nə satanı, nə də torpaq verəni.
Biz satqın sözünü çox işlədirik,
Qorxub qaçanlara satqın deyirik.
Bacarmadıq, bu döyüşü uduzduq,
Bizə ar gətirən bir tarix yazdıq.

Millət məğlub olur, gah qalib gəlir,
Tarixdə gah enir, gah da yüksəlir.
Biz enmədik, birləşib endirdilər,
Ermənini ağ ata mindirdilər.
Bizdə heç zaman birlik olmadı,
Hikkəlilər hikkəsindən qalmadı.
Mənəm-mənəm içimizi əritdi,
Bizi yıxıb düşmənləri diriltdi.
Xansuvar qoruyar bu yüksəkliyi,
İnsanı məst edir gülü, çiçəyi.
Vətənin hər yanı belə gözəldir,
Hüsnünə söylənən şeyir, qəzəldir.
Nəğmələr qoşulub hər dağa, daşa,
Qarabağ cənnətdir ayaqdan-başa.
İnsafdırmı verək düşmən əlinə,
Yenə keçək iblis, şeytan felinə.
Şuşa da verildi, ancaq dözürük,
Başımız dik deyil, enik gəzirik.
Düşmən göz dikibdir bu yüksəkliyə,
Sarılıb bir bölmə burda süngüyə.
Buradan qorunur Laçının yolu,
Bağlanır düşmənin əlləri, qolu.
Burda iki topçu, iki top durur,
Yollarda hərəkət edəni vurur.
Topçu Mehman İsgəndərdən dərs alıb,
Top atmaqda İsgəndər tək ucalıb.
Nəyinsə qəsdinə durduğu zaman,
Məhv edir, dağıdır, verməyir aman.
O nişan qoymaqda mahir ustadır,
Gecə-gündüz topun arxasındadır.
Düşmənin ordusu budur yeriyir,
Bu hündür təpəni almaq istəyir.
Heyyətdə birləşib iyirmi nəfər,
Hər biri döyüşdə göstərir hünər.

Tanklar üç tərəfdən dağa dırmaşır,
Bizim əsgərlərin səbiri daşır.
Xansuvar əmr etdi, döyüş başladı,
Mehman öz topunu  tanka tuşladı.
Birinci nişanda bir tank dayandı,
Tüstüsü ucaldı, alışdı-yandı.
Tanklar da təpəni tutub atəşə,
Bu günün zülməti çıxacaq ərşə.
İstehkam təpədə qurulub möhkəm,
Bir az mərmiləri, güllələri kəm.
Silahlar, sursatlar azdırsa, ancaq
Əsgərlər döyüşdə möhkəm duracaq.
Onlar bir addım da çəkilmir dala,
Səngərdə qeyrətdən qurublar qala.
Döyüşə qoşulub Mahmudla Babək,
Şərəfdir onlara savaşda ölmək.
Olduqca çox gərgin bir döyüş gedir,
Düşmənlər qabağa hərəkət edir.
Tanklar yavaş-yavaş dırmaşır dağa,
Hər tankın üstündə beş-altı dığa.
Babək aynalını götürüb ələ,
Düşmənin canına salır vəlvələ.
O, nişan yerindən diqqətlə baxır,
Hər nişan alanda bir daşnak yıxır.
Babəkgil meşədə döyüşən zaman,
Düşmənə orada verməyib aman.
Aynalı tüfəngi alıb götürdü,
Özü ilə yüksəkliyə gətirdi.
Mahmud Xansuvarla durub yan-yana,
Vurub düşmənləri boyayır qana.
Qüvvələr bərabər olmasa belə,
Xansuvar mövqeyi verməyib hələ.
Mehmanın topları hey nərildəyir,
Düşdüyü yerləri viran eyləyir.

Düşmənlər azalıb, düşüb təşvişə,
Mina atanları salıblar işə.
Tanklar aşağıdan atır yuxarı,
Dumana çevrilir barıt buxarı.
Bir tankdan bir mərmi, bir alov gəldi,
Mehmanın topunu vurub çevirdi.
Mehmanla köməkçi qana boyandı,
İkisinin qəlbi birdən dayandı.
İndi bir top qalıb ondan atırlar,
Əsgərlər meydanda zaman dartırlar.
Əlaqə kəsilib, yoxdu rabitə,
İndi ümid qalıb bircə zabitə.
Arxadan bir kömək gələsi deyil,
Dəstənin hamısı öləsi deyil.
Babəksə sürünür zabitə sarı,
Düşünə-düşünə çıxış yolları.
Döyüşsə get-gedə qızır-qızışır,
Torpaq da alışır, daş da alışır.
Düşmənin itgisi get-gedə artır,
Ancaq yavaş-yavaş təpəyə qalxır.
Babək Xansuvara məsləhət verir,
Geriyə çəkilmək vaxtıdır, deyir.
Mühasirə həlqəsi çox daralıb,
Çün batıbdır, hava bir az qaralıb,
Biz arxa tərəfdən çıxa bilərik.
Təpəni aşarıq, yola enərik,
O yanda yerləşir bizim qüvvələr.
Dəstəmiz orada birləşə bilər,
Xansuvar əmr etdi, çəkilin dala,
Onsuz da dağılır bu səngər, qala.
Dörd əsgər yaralı, ikisi ölüb,
Günəş üfüqlərdən qüruba enib.
Onları döyüşdən çıxarmaq olar,
Üç nəfər burada səngərdə qalar.

İki əsgər qaldı, bir də Xansuvar,
Babəkə dedi ki, dəstəni apar.
Yaxşı tanıyırsan sən bu yerləri,
Sənə tapşırıram hər bir əsgəri.
Dəstə uzaqlaşır döyüş yerindən,
Düşmən yaxınlaşır hər bir tərəfdən.
Üç nəfər durubdur düşmənə qarşı,
Vətən oğulları – vətənin daşı.
Xansuvar mərmini topuna saldı,
Bir tankı birbaşa nişana aldı.
Top haray çəkərək mərmini doğdu,
Tankın üst qatını göyə sovurdu.
Düşmənlər dayandı, ayaq saxladı,
Top bir də gurladı, bir də haqladı.
Hava qaralıbdır fürsət vaxtıdır,
İnsan taleyidir, insan baxtıdır.
Düşmənlər təpyə qalxana qədər,
Hava tam qaralar, qaranlıq düşər.
Xansuvar söylədi biz də gedirik,
Döyüşün sonunu yaxşı bilirik.
Durub tərk etdilər döyüş yerini,
Tanrı saxlaycaq şeytan şərini.
Döyüş səngiyibdir, tamam dayanıb,
Güllər, çiçəklər də alışıb-yanıb.
Artıq şər qarışıb, qaranlıq düşüb,
Dəstəmiz çəkilib, xətər ötüşüb.
Düşmənlər dörd tankı, qırx beş nəfəri
İtirdilər, ancaq oldu bəhəri.
Çoxlu sayda itgi versələr belə,
Bu hündür təpəni aldılar ələ.
Düşmənlər təpyə çıxdığı zaman,
Bizim igidlərə qalmışlar heyran.
Burda nə cəsəd var, nə də yaralı,
Gediblər uzağa, çox da aralı.

Meydanda qalıbdır ağır silahlar,
Bir də ermənidən qalan günahlar.
Ancaq bu günahı sel, su da yumaz,
Çəkilən dağları millət unutmaz.
Bu xəmir nə qədər su aparacaq,
Nə qədər kəm tale, can qoparacaq?
Nə vaxt qurtaracaq zülmətin sonu,
Nə vaxt yırtılacaq fələyin donu?
Nə vaxt kamilləşə biləcək insan,
Məyus olacaqmı, tökdüyü qandan?!
Budur, Xansuvargil dəstəyə çatıb,
Əsgərlər kədərə, qüssəyə batıb.
Babək çox sevindi onu görüncə,
Sağ-salamat olduqların bilincə.
Sıxdı sinəsinə o, Xansuvarı,
Dedi, düzdür aşdıq, keçdik dağları,
Bir az da itgimiz artıq olaydı,
O yüksək təpəcik bizdə qalaydı.
Çarəmiz yox idi, kömək gəlmədi,
Qeyrətimiz, şərəfimiz ölmədi.
Düşmənlər çox sayda itgi verdilər,
Bizdəki mərdliyi, gücü gördülər.
Meydanda qoymadıq yaralı, ölü,
Durdu üstümüzdə Tanrının əli.
Nə olsun, dərdimiz böyükdü yenə,
Beləcə zərbəlr dəyir vətənə.
Bu nə tilsim, bağlanıbdır açılmır,
İçimizdə xeyirlə şər seçilmir.
Qarış-qarış torpaqları veririk,
Dirigözlü zülmətləri görürük.
Şəhərlər dağılır, kəndlər dağılır,
Vətən yükü boynumuza yığılır.
Niyə basılırıq, nə oldu bizə?
Həmişə aldandıq söhbətə, sözə.

Ruhlar bizdən inciyəcək, küsəcək,
Oğuz babam, Koroğlumu gələcək?
Babəkmi oyanıb qılınc çalacaq,
Yoxsa Nəbi, Kərəm qisas alacaq?
O ruhlardan xəyal-xülya qalacaq,
Sual-cavab o dünyada olacaq.
Soracaqlar bizdən, nədir fərqiniz?
Biz vermişdik, siz də torpaq verdiniz.
Biz xan idik, xanlıqlara bölündük,
Düşmən qarşısında gücsüz göründük.
İncimirik sizdən, sizi biz əkdik,
Siz gedən yolları özümüz çəkdik.

***

Xansuvar kapitan rütbəsi alıb,
Laçında alaya komandir olub.
Yenə də dövlətdə qarışıb ara,
Dövlətin rəhbəri düşübdür tora.
Xocalı gedəndə istehfa verib,
Şuşa veriləndə qayıdıb gəlib.
Parlament bölünüb iki cəbhəyə,
İclaslar çevrilib haraya, küyə.
Xalqımız müstəqil olandan bəri,
Elə hey  tərsinə gedir işləri.
Ağız deyənləri qulaq eşitmir,
Millət vəkilləri düz yola getmir.
Biri mıx çalanda, o biri əyir,
Biri düz, biri də yalan söyləyir.
Hərəsi çəkici bir yana vurur,
Mıx batmır, yerində dayanır, durur.
Bəzən ağ olana qara deyirlər,
Bəzən sözü saqqız tək çeynəyirlər.
Ağa qara deyən elə danışır,
Bütün xalqın başı ona qarışır.

Xalqın gözündə ağ qara görünür,
Xalq qaranın arxasınca sürünür.
Belə olur təcrübəsiz dövlətdə,
Vəkillərin günahı yox əlbəttə.
Vəkillərdə içimizdən çıxıblar,
Ona görə ağa qara yaxıblar.
Özümüz qabaqda, tənqid daldadır,
Məntiqi olanlar bizi aldadır.
Ağlı olan məntiqə güc veribdir,
Bizim millət nağıllardan gəlibditr.
Nağıllara inanmıram, a qardaş,
Reallığa söykənməsə vətəndaş,
Nağıllara, dastanlara söykənər,
Qabağa yox, o, arxaya yönələr.
Nağılların vaxtı keçib gedibdir,
İnsan aya, kosmosa yüksəlibdir.

***

İndi də Laçının həndəvərində,
Bir qorxu yaşanır bölgələrində.
Düşmənlər həlqəni gücüylə sıxır,
Aldığı hər kəndə bir bayraq taxır.
Laçında durublar düşmənə qarşı,
Paytaxtda millətin qarışıb başı.
Laçında döyüşür ərlər, ərənlər,
Paytaxtda didişir ağıl verənlər.
Təpədən dırnağa düşmən silahlı,
Kimdi fərman verən, kimdi günahlı?
Hücuma keçiblər var gücü ilə,
İstəyir Laçını keçirsin ələ.
Laçından çıxıbdır mülki-əhali,
Bu dərd  millətimi etməzmi dəli?
Ordudan bir hissə Bakıya gedib,
Paytaxtda hökumət yenə devrilib.

Laçına giribdir düşmən ordusu,
Çox zəif qurulub səngər qurğusu.
Bəylərin qüvvəsi şəhərdən çıxıb,
Laçından olanlar ayğa qalxıb.
Döyüşə qoşulub könüllülər də,
Qızğın müharibə gedir şəhərdə.
Xansuvar alayı yerbəyer edib,
Hərəyə ayrıca tapşırıq verib.
Hər divar dalında pusqu qurulub,
Yenə də cəbhəmiz artıq yarılıb.
Mahmud mənimsəyib yeni bir peşə,
Qumbaratanı salıbdır işə.
Babək də Mahmudla durub yanaşı,
Aparır onunla birgə savaşı.
Düşmən gülləsindən qoruyur onu,
Borçalı balası dağlar oğlunu.
Yenə aynalını götürüb ələ,
Boşuna atmayır bircə də güllə.
Bir tank irəliləyir onlara tərəf,
Mahmuda çox aydın görünür hədəf.
Sərrast nişan alır, tətiyi çəkir,
Tankın üzərindən tüstü yüksəlir.
Tank dayanır, lüləsi fırlanır dala,
Sonra da bir qədər fırlanır sola.
Tankın içindəki heyyəti çıxır,
Babək bircə-bircə onları yıxır.
Laçında dəhşətli bir döyüş gedir,
Cəbhəmiz yarılıb, düşmən öndədir.
Düşmənlər yeriyib mərkəzə qədər,
Bizim zəhmətimiz getməyib hədər.
Düşmən meyidləri yollara dolub,
Yenə də ordumuz çarəsiz qalıb.
Onlara arxadan birləşir kömək,
Şəhəri tərk etmək lazımdır demək.

Xansuvar döyüşür, geri çəkilmir,
Düşmənə çox ağır itgilər verir.
Artıq əmr gəlib, geri çəkilin,
İmkan daxilində az itki verin!
Döyüşlər səngiyib, dayanıb bir az,
Göstəriş olmadan başlamaq olmaz.
Bir «vilis» maşını yolda yeridi,
Elə bil, bizlərə yanıq verirdi.
Mahmudun əsəbi dözmədi bu an,
Balaca maşını tez aldı nişan.
Qumbara atandan bir mərmi çıxdı,
Dağıdıb maşını yan üstə yıxdı.
Maşının içində üç zabit öldü,
Babək çox sevindi, ürəkdən güldü.
Dayanmış bu savaş bir də başladı,
Yenə də tərflər silah tuşladı.
Xansuvar dözmədi bu haqsızlığa,
Orduya əmr edib, getdi qabağa.
Silahlar işləyir, güllələr yağır,
Düşmənin içinə vəlvələ salır.
Düşmənlər dözməyir, geri çəkilir,
Xansuvar dayanmır, irəli gəlir.
Qumbara atanla tanklar vurulur,
Düşmənin döyüşən əzmi qırılır.
Babək hündür evin damına çıxır,
Düşmən çəkildiyi yollara baxır.
Nişana tuş gələn hədəfi vurur,
Xansuvar qızışıb düşməni qırır.
Düşmənin arxadan gələn qüvvəsi,
Söndürdü türklərdə olan həvəsi.
Üç mini  keçmişdir düşmənin sayı,
Yayılır tankların hayı, harayı.
Zirehli maşınlar kəsib yolları,
Döyüşür, mərd ölür türk oğulları.

Xansuvar vurulub – qan içindədir,
Yumulur gözləri – can üstündədir.
Son sözü: «Sağ olun, vətən yaşasın!
Başımın üstündə bayraq ucalsın!
Qaldırın bayrağı son dəfə görüm,
Bu bayraq altında canımı verim!
Döyüşün meydanda əsir olmayın,
Düşmən qabağında yesir qalmayın!
Mərd olan mərdanə döyüşə girər,
Mərd, döyüşdə ya öldürər, ya ölər!..»
Şair, sən öldürmə qəhrəmanları,
Vətəni qoruyan ər oğlanları.
Onda kim alacaq bu torpaqları?
Yaxına buraxma sən qorxaqları.
Sən niyə bədbinsən, mənim oxucum?
Şairlər söz ilə eyləyir hücum.
Bir qəhrəman ölür, beşi dirilir,
Biri ölür, mini qeyrətə gəlir.
Yenə müharibə dayandı birdən,
Atışma səsləri gəlirdi hərdən.
Düşmənlər yerində dayanıb durub,
Bəlkə də düşünüb bir tələ qurub.
Çox itgi veribdir, üç yüzü keçib,
Bəlkə ona görə bu yolu seçib.
Bilmirlər nə qədər qüvvəmiz qalıb,
Hər əsgər on əsgər əvzi olub.
Qırıblar düşmənin qorxaq gözünü,
Deyiblər döyüşdə axır sözünü.
Ordumuz çəkilmək əmri alıbdır,
Bu müəma sirr olaraq qalıbdır,
Atışma səsləri tamam kəsilib,
Ordumuz şəhərdən geri çəkilib.
Xansuvar ölümün gözünə baxdı,
Babək bu döyüşdən qəhrəman çıxdı.

Mahmud da döyüşdü qəhrəman kimi,
Silinmir gözündən kədəri, qəmi.
Gedibdir laçınlar yuvası, şəhər,
Mənim qəhrəmanım çəkməzmi qəhər?!
İgidlər dözərmi bu ağır dərdə?
Veribdir bir dənə böyük şəhər də.
Laçın! O, dağlardan qüvvət alırdı,
Quş quş idi, uçsa qanad salırdı.
Taleyi qırılan, bəxti kəm şəhər,
Açıldı üstünə dumanlı səhər.
Qəhrəman oğullar qaldırdı səni,
İblislər, şeytanlar öldürdü səni.
Səngər oldun, döyüşlərdə yoruldun,
Bir dağ oldun, sinəmizə vuruldun.
Boynu bükük bənövşəyə dönübsən,
Dağ başından dağ dibinə enibsən.
Bir gün oğulların gələcək sənin,
O qəmgin gözlərin güləcək sənin.
Qalanlar haqqını qaytaracaqlar,
Hüsnünü bəzəyib tez  quracaqlar.

***

Bir payız ayıdır, soyuyur hava,
Düşmənlər Laçında  qurublar yuva.
Yarpaqlar tökülür, xəzələ dönür,
Göydən üstümüzə dərd-bəla enir.
Bu böyük dərdimiz oyatmır bizi,
Yenə də didirik biri-birimizi.
Amalımız, əqidəmiz birləşmir,
Beynimizə birgə olmaq yerləşmir.
Çəkişməkdən yorulmuruq heç zaman,
Birləşməyə qalmayıbdır bir güman.
Zaman-zaman belə olub işimiz,
Ona görə bərkiməyib dişimiz.

Gələn-gedən bizi dərdə salıbdır,
Oymaq-oymaq torpaqları alıbdır.
Gör nə günə qalıb mənim millətim,
İtib-batıb olan-qalan hörmətim.
Bir ovuc erməni çapır atını,
Hansı ki, özü də bilmir zatını.
Tarix boyu quyruq olub, sürünüb,
Yazıq, məzlum libasına bürünüb.
Gör bir kimin əllərində qalmışıq,
Doğrudanmı, belə aciz olmuşuq?!
Doğru deyil, heç də belə olmayıb,
Tək erməni Qarabağı almayıb.
Çox olubdur yardım edən onlara,
Yoxsa qeyrət hara, erməni hara?!
Özümüz də günahkarıq bilmədik,
Biz heç zaman bir araya gəlmədik.
Qarabağdan biz heç nədən devrildik,
Siyasətin qurbanına çevrildik.
Qarabağın özü  qalsın bir yana,
Göz dikiblər Kəlbəcərə, Ağdama.
Vermişik Laçın tək qəhrəman yurdu,
Hocaz dağlarına çəkilib ordu…

## HOCAZDA ŞƏHİD

Könüllü dəstələr döyüşür burda,
Hər biri can verir, qan tökür yurda.
Yenə də birgədir Mahmudla Babək,
Onlara örnəkdir vətəni sevmək.
Qopsa da tufanlar, axsa da sellər,
Bağlayır onları qırılmaz tellər.
Ölüm də dostları qorxuya salmaz,
Babəklə Mahmudu ayırmaq olmaz.

Düşmənlər yeriyir Hocaza doğru,
Yarılıb güllərin, çiçəyin bağrı.
Hocazda başlayıb qanlı döyüşlər,
Belə haqsızlığa göz yumur bəşər.
Sırayla düzülüb tank vuran toplar,
Tırtıllı maşınla dolubdur yollar.
Onlar hücum edir, bizimki vurur,
Düşmənlər yeriyir, gah da ki, durur.
Biz müdafiədə, düşmən hücumda,
Döyüş gedir Hocaz dağı uğrunda.
Yeriyir düşmənin piyadaları,
Babək «snayper»lə vurur onları.
İki gündə on beş erməni vurub,
Ordu çox döyüşüb, tamam yorulub.
Mahmud sinəsini irəli verib,
Qumbara atanla döyüşə girib.
O, yaxına gələn tankları vurur,
Çox yorulub, ancaq ayaqda durur.
Düşmənlər hər günə gedir irəli,
Durub üstümüzdə tanrının əli.
Burada qurulub möhkəm bir qala,
Ordumuz düşməni oturdur dala.
Düşmənin itgisi qat-qat çoxalır,
Hər günə döyüşdə yeni dərs alır.
Düşmənin qüvvəsi çox olsa belə,
Yenə də üstünlük qazanmır hələ.
Düşmənlər gecələr  ehtiyat edir,
Ordumuz bu zaman rahat dincəlir.
Yenə də açılıb aydın bir səhər,
Ayılıb yuxudan hərə birtəhər.
Al günəş boylanıb Hocaz düzünə,
Ordumuz bir azca gəlib özünə.
Arxadan ehtiyat qüvvəsi gəlib,
Ordunun sırası artıq düzəlib.

Düşmənin qüvvəsi artıb ikiqat,
Növbələr dəyişir saatbasaat.
Düşmənlər gah basır, gah da basılır,
Torpağın taleyi qıldan asılır.
Çox ağır başlayıb bugünkü döyüş,
Əsgərlə doludur hər yoxuş, eniş.
Düşmənin tankları, topları atır.
Atəşin səsindən qulaqlar batır,
Düşmənin qabağı kəsilib tamam,
Burnu əzilibdi, edilibdi ram.
Bu gün ermənilər atılır dala,
Vurulub, salınıb gəldiyi yola.
Düşmənin ordusunda otuz tank olub,
Səkkizi vurulub yollarda qalıb.
İyirmi zirehli maşınları var,
Altısı vurulub düzdə qalıblar.
Düşmənlər yenidən hücuma keçir,
Ordumuz onları taxıl tək biçir.
Yaxına gəliblər, mənzil azalıb,
Əl-yaxa olmağa lap azca qalıb.
İki tank cəbhəni yarıbdır soldan,
Zabit əllərində qumbara atan,
Budur nişan alıb tankın birini,
Təyin edir vursun hansı yerini.
Sürücü oturan bacadan vurdu,
Tank böyük qayaya dirəndi, durdu.
Tankın daxilində partlayış oldu,
Heyyətin hamısı yerində öldü.
Tankın ikincisi yaxına gəlir,
Xəndəyi adlayıb keçmək istəyir.
Mübariz ayağa qalxır yerindən,
Buraxır nəfəsi, çəkir dərindən.
Əlində tutduğu qumbara ilə,
Çəkib alışqanı, gətirir dilə.

Qumbaranı tankın altına atır,
Özü isə yenidən xəndəyə yatır.
Tırtılı çıxaraq yana sürüşür,
Düz Mübariz olan xəndəyə düşür.
Özünü saxlaya bilməyir Musa,
Babək yaş axıdır, batıbdır yasa.
Tankın üst qapağı açılır birdən,
Musa da fürsəti verməyir əldən.
Əl qumbarasını atır deşiyə,
O boyda tank sanki dönür beşiyə.
Yırğalanıb, silkələnib partlayır,
İçindəki heyyəti rahatlayır.
Qaranlıq düşübdür, döyüş dayanıb,
Çiçəkli çəmənlər qana boyanıb.
Tırtıllar əzibdi çiçəyi, gülü,
Susub bu yerlərin sarı bülbülü.
Hər yanda kəsilib quşların səsi,
Təbiət ağlayır, sönüb həvəsi.
Dərələr, təpələr od tutub yanır,
Torpağın altında qurdlar oyanır.
Hava işıqlanıb, yeni gün doğur,
Toplar nərildəyir, mərmilər yağır.
İndi də hücuma keçib ordumuz,
Yanır od içində ana yurdumuz.
Babəkin mərəzi qarışıb bu gün,
Mahmudun gözləri alışıb bu gün.
Ordumuz durmadan gedir irəli,
Küməşib düşmənin ayağı, əli.
Budur, əlbəyaxa döyüş başlayıb,
Ermənilər şalvarını yaşlayıb.
Mahmud çox qızışıb, dönübdür kələ,
Yenə də güc verib ayağa, ələ.
Çəkisi yüz kilo, qolları zindan,
Yıxılır bir zərbə alanlar ondan.

Düşmənlər vurulub geri atıldı,
İyirmi nəfəri diri tutuldu.
Babək dəstəsiylə içəri girib,
Düşmənlər özünü tamam itirib.
Ölənin, itənin çoxdu sayları,
Qəhrəman doğulur Oğuz soyları.
Düşmənlər Babəki alıb dövrəyə,
On nəfər erməni düşür hərəyə.
Arxadan ordumuz zərbə vursa da,
Babəkə təsəlli, kömək dursa da.
Onu xilas etmək mümkün olmadı,
Döyüşə-döyüşə o, alçalmadı.
Babəki vururlar, yerə sərilir,
Onu diri tutmaq əmri verilir.
Elə ki, ayılır, özünə gəlir,
Özünü əlləri qandallı görür.
Düşmənlər sürətlə çəkilir geri,
Bir gün kəsiləcək qanlı əlləri.
Çəkilə-çəkilə atəş açırlar,
Arxaya baxmadan dala qaçırlar.
Onların atdığı mərminin biri,
Sovurdu Mahmudgil dayanan yeri.
Qəlpələr Mahmudun qarnına doldu,
O, qalxa bilmədi, yerində qaldı.
Tutub əlləriylə qarnını sıxdı,
Ölümün gözünə mərdanə baxdı.
Dedi ki, Babəki yetirin mənə,
Ona deyiləsi sözüm var yenə.
Qan axır, Mahmudun rəngi saralır,
Nəfəsi çatmayır, səbri daralır.
Saxlaya bilmirlər, dayanmır qanı,
Poladdan tökülüb Mahmudun canı.
Özünü toplayıb alıbdır ələ,
Ölümə can vermir, qan axsa belə.

Komandirə tutur məğrur üzünü,
Ölmədən söyləyir axır sözünü.
Övladım olacaq, kim olur-olsun,
Anam da adını Yadigar qoysun.
Onun hər çiyninə bir mələk qondu,
Məğrur gözlərini əbədi yumdu.
Mahmud sadiq qaldı ana vətənə,
Vətən bir qəhrəman itirdi yenə.

## MATƏM

Yenə də bir əsgər tabutu gəlib,
Ananın fəryadı göyə yüksəlib.
Cırır üz-gözünü, yolur saçını,
Çağırır dil desin qardaş-bacını.
İtirib oğlunu ana bu zaman,
Ağlayır, yaş tökür o, dayanmadan.
Hərdən sakitləşir bir daşa dönür,
Fəryadı gah qalxır, gah da ki, enir.
Bu gün  nə günüdür, çox gəlib adam?
Beynimdə çalınır toyu dambadam.
Yox! Toyda bu qədər adam yox idi,
Oğlum oynayırdı, kefi tox idi.
Axşamdan uzanıb rahatca yatır,
Mahmudu bir kimsə niyə oyatmır?
Ağlayır-ağlayır, gəlir özünə,
Məlul baxır onun-bunun üzünə.
Bütün el tökülüb gəlib matəmə.
Qohumlar batıblar kədərə, qəmə,
O, bir eldən gedir, elin oğludur,
Bir elin sinəsi, qəlbi dağlıdır.
Arvadlar dil deyir, ağı söyləyir,
Yüksələn ahların sədası gəlir…

**Birinci səs:**

Ağlama, ay Mənzər, balan gəlibdir,
Düşmənin canını alan gəlibdir.
Ərənlər ərəni, bir igid idi,
İgidlər içinə talan gəlibdir.

**İkinci səs:**

Ay qızlar, Mahmudu ağlayın bu gün,
Elin sinəsinə vurulub düyün.
Ay Mənzər, Mahmudun qəhrəman öldü,
Adıyla fəxr eylə, bir az da öyün.

**Üçüncü səs:**

Ay qızlar, Mahmudun özü gəlibdir,
Dostlarla söhbəti-sözü gəlibdir.
Bir elin üzünü ağartdı getdi,
Mahmud tək cəbhədən yüzü gəlibdir.

**Dördüncü səs:**

Ay qızlar, dil deyin siz şəhidlərə,
Onlara borcluyuq gündə min kərə.
Bizim yolumuzda can verib onlar,
Ruhları qalxacaq uca göylərə.

**Bacısı:**

Ağlama, anam ağlama,
Başına qara bağlama.
Qardaşım qəhrəman ölüb,
Fəxr eylə, sinə dağlama.

İki yüz kiloluq cöngə kəsildi,
Mahmuda layiqli ehsan verildi.
Onun tabutunu bir el götürdü,
Hamı bir-birinə verdi, ötürdü.
Onu xiyabanda qoydular yerə,
Bu bir dastan oldu, düşdü dillərə.
Bir ömrün beləcə yetişdi kamı,
Mahmudun ruhuna baş əydi hamı…

## ƏSİRLİK

Babək əsir düşüb, yatır zindanda,
Qaranlıq otaqda ağrı canında.
Yatağı daş ilə döşənmiş yerdir,
Babəkin dözümü qeyrət, hünərdir.
Hər gün o döyülür lazımi qədər,
Onu sarsıtmayır bu işgəncələr.
Hey susur, bir kəlmə artıq danışmır,
Düşmən mövqeyiylə heç vaxt barışmır.
Çox sorğu-suala tutublar onu,
Dindirə bilmirlər bu türk oğlunu.
Taqəti yoxsa da vüqarla durur,
Yenə də qırılmır ondakı qürur.
Axşamdan daş üstə yatıb qalıbdır,
Soyuq vücuduna ağrı salıbdır.
Gün qalxıb, günorta yerinə çatıb,
Qurgen onu sorğu-suala tutub.
Cavab ver, itoğlu, susduğun bəsdir,
Sizin müqavimət boşdur, əbəsdir.
Çünki Qarabağı alacağıq biz,
Bu torpaqda hakim olacaağıq biz.
Danışsan lazımi qərar verərik,
Rəhm edib biz səni azad edərik.

Sən cəbhədə kəşfiyyatçı olmusan,
Çox məqsədi anlamısan, bilmisən.
Hocazda nə qədər qüvvəniz olub?
Bizim canımıza vəlvələ salıb.
On nəfər erməni verirlər mənə,
Yenə də onları dəyişməm sənə.
Azad olmağının bircə yolu var,
Doğru, dürüst cavab tapsa suallar.
Mən sənə nə deyim, nə cavab verim,
Düşmən ayağına torpaqmı sərim?!
Türk oğlu türk olan torpaq alıbdır,
Dünya yarısına hakim olubdur.
Mən fərdəm, əlimdən nəisə gəlməyir,
Mərd olan namərdə heç əyilməyir.
Bir cana borcluyam, alın canımı,
İtirə bilmərəm şərəf, şanımı.
Bu torpaq nə mənim, nə də sənindir,
Torpaq, uğurunda ölənlərindir!
Dəyişir Qurgenin halı anba-an,
Çığırır-bağırır şərəfsiz insan.
Nə qədər erməni öldürmüsən sən?
Erməni yox, düşmən öldürmüşəm mən.
Nahaqdan əlimiz batmayır qana,
Haqsızlıq utancdır kamil insana.
Qurgen bir rəng alıb, bir rəng verirdi,
Əhvalı pozulub tez dəyişirdi.
Cəlladı çağırıb, göstəriş verdi,
Atan barmağını sındırın, dedi.
Qırdılar Babəkin bir barmağını,
Gözlədilər onun bağırmağını.
Səsini çıxarıb, uf da deməyir,
Şərəfsiz düşmənə o, baş əyməyir.
Ağızı, burnu bulaşmış qana,
Yenə də atdılar onu zindana.

Babəkin taqəti qalmayıb daha,
Üzür vücudunu bu zindan-kaha.
Axırıncı sorğu alınır ondan,
Babək çox bezibdir bir quru candan.
Döyülür, söyülür sirr vermir yenə,
Cavab da qaytarmır Qurgen deyənə.
Azərbaycan bayrağını yırtdılar,
Sonra onu ayaq altda atdılar.
Babəkə dedilər, indi də yandır,
Fikirləş ki, yanan Azərbaycandır.
Babək də bayrağı götürdü yerdən,
Gözləri yaşardı belə kədərdən.
O, bayrağı vücuduna sarıdı,
Bayraq onun and yeridi, gorudu.
Bayraqla sarılı döydülər onu,
Qıra bilmədilər bu türk oğlunu.
Qurgen bir «komvoy» çağırıb dedi:
– Bu itin çarəsi Xankəndindədir.
Sürücü Serqeylə sən çatdır ora,
Orada yaxşıca çəkərlər dara.
Dili də açılar, danışar bir az,
Burada bu türkü öldürmək olmaz.
Babəkin qoluna qandal vurdular,
Mindirib «vilis»ə yola  saldılar.
Yerindən tərəpətdi Serqey maşını,
Gedə-gedə işlədirdi başını.
Laçından çıxaraq çox aralandı,
Əyləci sıxaraq maşın dayandı.
Tapançanı yavaş-yavaş çıxartdı,
«Kanvoy»un başına bir güllə atdı.
Sonra da maşını çevirdi sola,
Qubadlı tərəfə düzəldi yola.
«Kanvoy» gözləmirdi, Babək də çaşdı,
Serqey bu sirrini Babəkə açdı.

Mən Serqey deyiləm, adım Samirdi,
Sanma ki, ürəyim daşdı, dəmirdi.
Mən də sənin kimi türkün oğluyam,
Anam ermənidi, bəxti bağlıyam.
Anadan olmuşam Ermənikənddə,
Uşaqlıq vaxtını keçirdim dərddə.
Atam iş yerində qəzada öldü,
Mənim sevincimi tək anam böldü.
Əmilərim yiyə durmadı mənə,
Nə babam saxladı, nə də ki, nənə.
Sonra hadisələr araya düşdü,
Anam atasının yanına köçdü.
Məni də özüylə götürdü anam,
Qarışıq olsam da mən də insanam.
Adımı dəyişib Serqey yazdılar,
Hər şeyi yalandan qoşub-düzdülər.
On səkiz yaşını bitirən kimi,
Yetişdi anamla ayrılıq dəmi.
Məni götürdülər hərbi xidmətə,
Babam da bu zaman getdi rəhmətə.
Çox keçmədi anam dünyadan köçdü,
Mənim də işlərim tərsinə düşdü.
O vaxtdan cəbhədən buraxılmadım,
İllərdir bircə an rahat olmadım.
Ancaq sürücülük olubdur işim,
Sıxmışam dilimi, kəsibdir dişim.
Fürsət axtarırdım, düşdü əlimə,
Qayıtmaq istərəm yenə elimə.
Təmiz danışıram hər iki dildə,
Böyüdüm Şirvanda, Muğanda, Mildə.
Məni əmilərim qəbul etsələr,
Babam da, nənəm də insafa gələr.
O, maşının açarını bağladı,
Uçurumun kənarında saxladı.

«Kanvoy»u sürüyüb çıxartdı çölə,
Canı soyumayıb, istidir hələ.
Qandalın açarı cibində idi,
Açarlar Samirin əlinə gəldi.
«Kanvoy»u yarğandan atdı aşağı,
Belə öləsidir, alçaq uşağı.
Babəkin əlindən qandalı açdı,
Onun gözlərində nur, işıq saçdı.
İnana bilmirdi gördüklərinə,
Əlac varmı, Samirin də dərdinə?
Oturdu maşına Samir, verdi «qaz»,
Tələsmək lazımdır, gecikmək olmaz.
Maşın şütüyürdü, yol uzanırdı,
Samir danışırdı, vaxt qazanırdı.
Elə bil Babəkin dili tutulub,
Özü də bilmirdi ona nə olub.
Bu qədər çətinə düşməmişdi o,
Belə bir sınaqdan keçməmişdi o.
Samirin fikiri götürüb onu,
Qurtara bilərmi, təzə dostunu?
Birdən onu yaxşı qarşılamazlar,
Birdən də əfv edib bağışlamazlar.
Mən öz həyatımı borcluyam ona,
O da mənim kimi risq edib cana.
Babək fikirdədir, çarə tapmayıb,
Maşın qərargaha hələ çatmayıb.
Qubadlı şəhəri görünür, budur,
Babəkin gördüyü bəlkə yuxudur.
Qədərin qisməti beləmiş demək,
Ölüm pəncəsindən qurtarıb Babək.
Onun ayağını soyuq aparıb,
Dırnağını bir-bir düşmən qoparıb.
Maşından düşməyə qalmayıb halı,
Onu düşündürür Samirin yolu.

Özünün yardıma var ehtiyacı,
Kimdədir Samirin xilas əlacı?!
Götürdülər onu xəstəxanaya,
Xoş səda yayıldı elə-obaya.
Samiri komissar qəbul eylədi,
O, baş verənləri açıb söylədi.
Komissar deyir ki, narahat olma,
Babək də sağalar, nigaran qalma.
Biz səni Bakıya salarıq yola,
Orada tutarlar sorğu-suala.
Samir, nənən, əmilərin gələr,
Sənin kimliyini təsdiq eyləyər.
Yenidən özünə sənəd alarsan,
Vətənə layiqli əsgər olarsan.

## HOSPİTAL

Babək xəstə yatır, hospitaldadır,
Xəyalı göylərdə, gözü yoldadır.
Atası, anası gəlib çıxmayıb,
Həsrət qalasını hələ yıxmayıb.
Səhər açılmamış, dan ağarmamış,
Anası Tanrıya eyləyir alqış.
Atası boynunu kəc büküb durub,
Bacısı kədərli, qəmli oturub.
Hər üçü gözləyir açılsın qapı,
Qırılıb ananın qəlbinin sapı.
Babək də bu səhər tezdən oyanıb,
Bəlkə ürəyinə nə isə damıb?!
Qapını açırlar, anası girir,
Atası özünü tamam itirir.
Babək dirsəklənib, istəyir dura,
Anası qəşş edib yıxılır yerə.

Atası bağrına basır oğlunu,
Beləcə yetişir həsrətin sonu…
Anası ayılıb özünə gəlir,
Dərindən ah çəkir, ah-uf eyləyir.
Oğluna sarılıb, elə yaş tökür,
Bacısı ağlayır bax, hönkür-hönkür.
Üçü də sarılıb qucaq-qucağa,
Bir atəş düşübdür sönmüş ocağa.
Babəkin gözləri gözləyir yenə,
Arzusu vəfasız çıxmaz eşqinə.
Arzu daxil olur otağa birdən,
Babək sevinərək durur yerindən.
Üz-üzə, göz-gözə dayanır onlar,
İtirir özünü bir an  cavanlar.
Hal-əhval tutulur bizim Babəkdən,
Atası-anası gülür ürəkdən.
Anası gizlətmir öz marağını,
Don vurub Babəkin sol ayağını.
Anası hər şeyi bilmək istəyir,
Babəksə dərdini demir, gizləyir.
Sabah əməliyyat olacaq ona,
Yaş tökür, hey təlaş keçirir ana…

***

Cərrah masasına uzanıb Babək,
Həkimlər igidə göstərir kömək.
Sol ayağın barmaqları kəsilib,
Sağ qolunun damarları tikilib.
Şahadət barmağı gibsə salınıb,
Narkozun təsiri gedib, ayılıb.
Arxada qalıbdır əzab-əziyyət,
İşi rəvan, yaxşılaşır vəziyyət.

Babəkə baş çəkir qohum, qonşular,
Uşaqlar, cavanlar, ahıl yaşlılar.
Artıq sağalıbdır, durub ayağa,
Yaxşılaşır, hər gün gedir qabağa.
Gözləriylə odlar, alovlar gördü,
Yüz dəfə dirildi, yüz dəfə öldü.
Qaldı əsirlikdə o, yenilmədi,
Düşmən qabağında heç əyilmədi.
Cismi əzilirdi, ruhu dözürdü,
Düşmənin səbrini qırır, əzirdi.
Döyüldü, söyüldü, o alçalmadı,
Əzmiylə düşməndən qisas, bac aldı.

***

Qarabağın torpağı da, daşı da,
Düşmən tapdağında zar-zar ağlayır.
Matəmdədir tanıyan da, naşı da,
Dərd millətin sinəsini dağlayır.

Sərkərdə istərəm qılıncın sıyrıb,
Qartal tək şığıya düşmən üstünə.
Çəkib ordusunu, gücün göstərib,
Məhv edə düşməni,dura qəsdinə.

Sərkərdə istərəm topla, tüfənglə
Düşmənin səddini dağıda, qıra.
Qaldıra milləti bellə, kürəklə,
Düşmənə layiqli zərbələr vura.

Sərkərdə istərəm əqli, zəkası,
Düşməni əzməyə qeyrəti ola.
Sərkərdə istərəm Babək balası,
Məkirli düşməndən qisasın ala.

Sərkərdə istərəm Koroğlu təki,
Çaldıra «Cəngi»ni, döyüşə girə
Xatırlaya Oğuz xanı, Babəki,
Meydanda düşmənin dərsini verə.

Abidə qoyarıq o sərkərdəyə,
Hüzuruna biz səcdəyə gedərik.
Onu qovuşdurub əbədiyyətə,
Millət xilaskarı ona deyərik!

1992-1994

# MÜNDƏRİCAT

MÜƏLLİFDƏN....................................3
AĞLI-QARALI DÜNYAM....................................7
DÜNYANIN SİRRİ....................................8
EŞQ HAQQINDA....................................14
QƏZƏL....................................15
AĞLIMI ALIB GETDİ....................................16
ƏDALƏT HAQQINDA....................................17
AĞIL HAQQINDA....................................18
VƏTƏNDAŞ OLMAQ....................................20
VƏTƏNİ SEVMƏK....................................22
SÖZ HAQQINDA....................................25
DÜNYANIN GƏRDİŞİ....................................27
DÜNYAMIZIN YARANMASI....................................29
VARLIĞIN DƏRK EDİLMƏSİ....................................35
DÜNYANIN İSTİRABLARI....................................37
PAPAQ QEYRƏTİMİZDİR....................................39
GECƏNİN ƏYLƏNCƏSİ....................................41
SUSMAQ ADƏTİMİZDİR....................................42
İKİÜZLÜLÜK HAQQINDA....................................43
SƏRXOŞLUQDAN AYILMAQ....................................46
QARABAĞ DƏRDİ....................................47
DİLİMİZ VARLIĞIMIZDIR....................................48
BÖYÜK GÜNAHLAR....................................49
BİR KƏNDİN NAĞILI....................................51
HAQQA DOĞRU....................................68
BİR KASIBIN DÜNYASI....................................70
PADŞAHIN KİÇİK SƏFƏRİ....................................78
SÜLEYMAN VƏ SAZ....................................80
VERMƏRƏM....................................84
BURA VƏTƏNDİR....................................85
DƏLİ KÖNÜL, NƏ DİVANƏ GƏZİRSƏN....................................86
QOCA ŞƏRQİN FACİƏSİ....................................87
PAXILLIQ MƏRƏZİ....................................90
BU YOL HARA GEDİR GÖRƏN....................................91
HACI OLMAQ....................................92
DÜNYADA KAMİLLİK QALİB GƏLƏCƏK....................................93
KÜÇƏNİN RƏNGİ....................................94
KÖNÜLLÜLƏR....................................99

«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması
Baş direktor: ***Hidayət Musabəyli***

«Nərgiz» nəşriyyatı
Texniki redaktor: ***Kəmalə Məmmədova***
Korrektor: ***Yasəmən İsmayılova***
Kompüter mətni və dizayn: ***Yeganə İmanova***

Mətbəə müdiri: ***Akif Musayev***

Yığılmağa verilmişdir: 01.06.2007.
Çapa imzalanmışdır: 15.07.2007.
Kağız formatı: 60x84 1/16.
Həcmi: 10,25 çap vərəqi.
Tiraj: 250 nüsxə; Sifariş: 591.

Nərgiz - NƏŞRİYYATI

Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan: 8-ci km qəsəbəsi R.Rüstəmov küç. 36
Əlaqə telefonları: iş: 423-69-53,
mob: 050-738-37-22.